AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
AĞCABƏDİ FİLİALI





*Şuşanın yaranmasının 270 illiyinə həsr olunmuş*

# "ŞUŞA AZƏRBAYCANIN MƏDƏNİYYƏT MƏRKƏZİDİR"

***mövzusunda elmi-praktiki konfransının***

# *MATERİALLARI*

**AĞCABƏDİ-2022**



**Əziz Şuşa, sən azadsan!**
**Əziz Şuşa, biz qayıtmışıq!**
**Əziz Şuşa, biz səni dirçəldəcəyik!**
**Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

***İLHAM ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**
**AĞCABƏDİ FİLİALI**




***Şuşanın yaranmasının 270 illiyinə həsr olunmuş***

# "Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir"

***mövzusunda elmi-praktiki konfransının***

# *MATERİALLARI*

***Şuşanın yaranmasının 270 illiyinə həsr olunmuş "Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir" mövzusunda elmi-praktiki konfransının materialları ADPU-nun Ağcabədi filialının Elmi Şurasının 27 aprel 2022-ci il tarixli 02/27- s saylı iclasının (Protokol №7) qərarı ilə çap olunur.***

**AĞCABƏDİ – 19 aprel 2022-ci il**

## *Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 5 yanvar 2022-ci il**

# KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Mobil Məcidov | ADPU-nun Ağcabədi filialının direktoru, dosent |

**Üzvlər:**

| | |
|---|---|
| Seymur Süleymanov | ADPU-nun Ağcabədi filialının tədris və elmi işlər üzrə direktor müavini, dosent |
| Mahir Səlimov | ADPU-nun Ağcabədi filialının tərbiyə işləri üzrə direktor müavini, dosent |
| Baxış Ələsgərov | ADPU-nun Ağcabədi filialının “İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının müdiri, dosent |
| Sahib Zeynalov | ADPU-nun Ağcabədi filialının “Riyaziyyat, informatika və onların tədrisi texnologiyası” kafedrasının müdiri, dosent |
| Vaqif Allahverdiyev | ADPU-nun Ağcabədi filialının “Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası” kafedrasının müdiri, dosent |
| Tahir Kərimli | ADPU-nun Ağcabədi filialının “Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası” kafedrasının müdiri, baş müəllimi |
| Qərənfil Rzayeva | ADPU-nun Ağcabədi filialının “Keyfiyyətin təminatı” şöbəsinin müdiri, |
| Sahibə Nəsirova | ADPU-nun Ağcabədi filialının “Kompüter mərkəzi”nin müdiri |
| Fatma Əliyeva | ADPU-nun Ağcabədi filialının “Kompüter mərkəzi”nin mütəxəssisi |

**MÜNDƏRİCAT**

***Giriş sözü:***
*Mobil Məcidov*............................................................ 5

***Şuşa tarixi yaşayış məskənidir***
*Baxış Ələsgərov*............................................................ 6

***Şuşa şəhərinin Azərbaycanın ictimai-siyasi, mədəni həyatında yeri***
*Yaqub Səmədov* ............................................................ 9

***Şuşa tarixi və strateji əhəmiyyətə malik olan şəhərdir***
*Araz Əliyev*............................................................ 12

***Şuşa Azərbaycanın musiqi və mədəniyyət beşiyidir***
*Tahir Kərimli*............................................................ 16

***Üzeyir Hacıbəyovun fəlsəfi baxışları***
*Mahir Səlimov*............................................................ 23

***Şuşanın tarixi, dini abidələri.***
*Əlizadə Nəcəfov*............................................................ 26

***Şuşa elm və təhsil ocağıdır***
*Seymur Süleymanov*............................................................ 35

***Molla Pənah Vaqifin Qarabağda dövlət xadimi və şair kimi fəaliyyəti***
*Vaqif Allahverdiyev*............................................................ 38

***Fundamental və tətbiqi elmlərin inkişafında şuşalı alimlərin rolu***
*Sahib Zeynalov* ............................................................ 42

***Şuşanın ədəbi məclisləri***
*Anar Kərimli*............................................................ 50

***Şuşa bədii söz sənətinin dilində***
*Qərənfil Rzayeva*............................................................ 53

# GİRİŞ SÖZÜ:

***Mobil Məcidov, dosent***
***ADPU-nun Ağcabədi filialının direktoru***

"Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur". Ümummilli lider Heydər Əliyev vaxtilə Şuşanın ölkəmiz üçün nə dərəcədə əhəmiyyətli olmasını bu sözlərlə ifadə etmişdi.

Ən böyük Qələbəni ağır məğlubiyyətdən sonra əldə edirsən. Şuşanın işğalı nə qədər ağrılı olsa da, 28 il sonra azad olunması bizim üçün olduqca qürurverici oldu.

28 illik işğal dövrü xalqımıza maddi və mənəvi olaraq öz zərbəsini vurmuş, tarixi mədəniyyət abidələrimiz tamamilə dağıdılmışdır. Qarabağ xanlığının banisi, Şuşanın qurucularından olan Pənahəli xanın şəhərin mərkəzində yerləşən, əzəmətli sarayından əsər-əlamət qalmamışdı. Əsrlər boyu dünyada məşhur olan, orta əsr tacirlərinin hədsiz marağına səbəb olan Qarabağ xalılarının, Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi məqsədilə yaradılan Şuşa Xalça muzeyi və bir sıra mədəniyyət obyektləri işğal dövründə ciddi dağıntılara məruz qalıbdır.

Dağıntıları seyr edən beynəlxalq ictimaiyyət nümayəndələrinin də fikrincə, törədilən cinayətlərin, vəhşiliklərin, vandalizmin bəşər boyu oxşarı olmayıb. Bu gün ermənilərin törətdikləri dağıntıların beynəlxalq ictimaiyyətə çatdırılması bu soyqırım və dağıntıların təkcə Azərbaycan xalqına qarşı deyil, ümumilikdə bəşəriyyətə, insanlığa qarşı törədilmiş bir cinayət olduğunu göstərir. Məscidlərin dağıdılması, təhqir olunması isə müsəlman dünyasında İslam dininə hörmətsizlik kimi qəbul olunur.

Tarixin səhvlərindən nəticə çıxarmaq yalnız qüdrətli, uzaqgörən lideri olan xalqlara nəsib olur. Zəfər Qələbəsi Günü kimi qeyd olunan Şuşanın işğaldan azad edildiyi gündən etibarən burada böyük abadlıq və bərpa işlərinə başlanılıb. Yüzlərlə kilometr məsafədə müasir standartlara uyğun yolların, enerji xətlərinin çəkilişi ilə yanaşı tarixi abidələrin bərpasına başlanılıb. Qəbul edilmiş layihələrdə beynəlxalq təcrübəyə malik yerli və xarici şirkətlərin, xüsusilə, Heydər Əliyev Fondunun iştirakı yekunda işlərin zövqlə başa çatacağına əminlik yaradır.

Şuşanın azad edilməsindən danışarkən təbii olaraq hərbi əməliyyatlarımızın uğurundan da danışmaq lazımdır. Ən qürurverici hal isə Azərbaycan əsgərinin yalnız döyüş meydanında əli silahlı düşmənə qarşı vuruşmasıdır. Döyüş meydanında məğlubiyyətə məruz qalan düşmən bunun acısını mülki yaşayış məskənlərimizə top mərmisi, raket atmaqla dinc əhalidən çıxmağa çalışırdı. 100-ə yaxın mülki soydaşımızın, azyaşlı uşaqların, qadınların bu təxribatlar nəticəsində həlak olması erməni ordusunun nəinki hərbi güc baxımından, həmçinin mənəvi cəhətdən də Azərbaycan ordusundan zəif olduğunun göstəricisidir.

Zəfər Qələbəsi münaqişəyə son qoysa da qarşıda digər məsələlərin həlli dayanır. İşğaldan azad edilmiş torpaqlarımızın abadlaşdırılması, dağıdılmış şəhər, kənd və qəsəbələrin tikilməsi, infrastrukturun qurulması, yolların çəkilməsi ilə bağlı geniş aspektli layihələrə start verilib. Düşünürük ki, Vətən müharibəsindəki hərbi uğurları ilə dünyanı heyrətə salan Azərbaycan tezliklə bu layihələrin icrasında da böyük uğurlara imza ataraq Qarabağımızın, Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşamızın əvvəlki gözəllik nümunələrini bərpa edəcəkdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci təqvim ilini "Şuşa ili" elan etməsi ilə əlaqədar ADPU-nun Ağcabədi filialının Elmi Şurasında bu istiqamətdə görüləcək işlərin tədbirlər planı təsdiq edilmiş və icrasına başlanılmışdır. Tədbirlər planında keçirilməsi nəzərdə tutulan "Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir" mövzusunda elmi-praktiki konfrans təşkilat komitəsi tərəfindən yüksək səviyyədə təşkil olunmuşdur. Bugünkü elmi-praktiki konfransda müxtəlif məzmunlu, geniş əhatəli 11 məruzənin edilməsi nəzərdə tutulur.

Bununla da "Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir" mövzusunda keçirilən elmi-praktiki konfransın işini açıq elan edir və konfransın işinə uğurlar diləyirəm.

## ŞUŞA TARİXİ YAŞAYIŞ MƏSKƏNİDİR

***Baxış Ələsgərov, dosent***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
**elesgerov.adpu@mail.ru**

Şuşanın bir şəhər kimi formalaşması 3 əsas mərhələdən keçmişdir. Pənahəli xanın hakimiyyət dövrünü (1748–1763) əhatə edən birinci mərhələdə Şuşanın ilk böyük məhəlləsi, sonralar Aşağı məhəllə adlandırılan Təbrizli məhəlləsi salınmışdır. Əhalisinin əksəriyyətini vaxtilə Təbriz və Ərdəbildən Bayat qalasına köçürülmüş sənətkarlar təşkil edən bu məhəllədə aşağıdakı kiçik məhəllələr – Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyular, Merdinli, Hacı Yusifli, Qazançalı və Çöl qala məhəllələri yerləşirdi.

Təbrizli məhəlləsi — Şuşa şəhərinin 17 məhəlləsindən biridir.

Təbrizli məhəlləsinin tarixi Şuşa tarixinin tərkib hissəsidir. Şuşa şəhəri qurulduğu çağdan başlayaraq genişləndi. Yeni-yeni məhəllələr meydana gəldi. Hər məhəllədə məscid, hamam tikildi, meydan quruldu. Ümumiyyətlə, Şuşanın bir şəhər kimi formalaşmasını şərti olaraq üç mərhələyə bölmək olar:

1. Birinci mərhələ 1750-ci ildən başlayaraq çox qeyri-sabit şəraitdə 1763-cü ilə qədər davam etmiş, tikinti işləri bir qədər tələsik aparılmışdı. Bu dövrdə şəhərin Çuxur adlı şərq hissəsində 9 məhəllə salınmışdı.
2. İbrahimxəlil xan Cavanşirin hakimiyyəti illərinə (1763–1806) təsadüf edən ikinci mərhələdə Şuşada aparılan tikinti işləri daha keyfiyyətli və möhtəşəm olmuşdur. Bu dövrdə şəhərdə yaşayış məhəllələrinin sayı 17-yə çatmışdı.
3. XIX yüzili əhatə edən üçüncü mərhələdə şəhərin dağlıq qərb hissəsində yeni 12 məhəllə salınmış və əslində bununla Şuşanın formalaşması başa çatmışdır.

Təbrizli məhəlləsi Şuşa şəhərinin ilk məhəllələrindən biridir. Bu məhəllə sakinləri Təbrizdən Bayat qalasına, ordan Şahbulağa, ordan isə Şuşa şəhərinə gəliblər. Bayat qalasına gəlmələri haqqında tarixçi Mirzə Camal Cavanşir Qarabaği yazır:

"Hələ Qarabağın Xəmsə mahalları ona tabe olmadığı zaman (Pənah xan) ətraf xanların öz üzərinə hücum edəcəkləri təqdirdə ailə və qohumlarının, qulluqçu və yaxın adamlarının və böyüklərinin qorunması üçün ellərin arasında münasib bir yerdə qala tikilməsini lazım bilmişdi. Məşvərətdən sonra,

indi Kəbirli mahalı içində olan Bayat qalasının binası qoyuldu. Qısa bir zamanda möhkəm hasar və xəndək qazıldı, bazar, hamam və məscid tikildi. Xan bütün ailəsini, qohumlarının və el böyüklərinin əhli-əyalını oraya topladı. Ətrafda olan camaat, hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələri ilə birlikdə gəlib Bayat qalasında yerləşdilər. Bayat qalası müsəlman tarixi ilə 1161, xristian tarixi ilə 1745-ci ildə tikilmişdir".

İbrahimxəlil xan Sarıcalı - Cavanşir 1783-cü ildə və 1785-ci ildə Təbriz xanlığına yürüş etmişdi. O da bu yürüşlərində Təbrizdən xeyli ailə gətirib Təbrizli məhəlləsinə yerləşdirmişdi. Həmin dövrdə hələ Təbrizdə yaşayan Ağa Hüseyn Arif, İbrahimxəlil xan Sarıcalı-Cavanşirin Təbrizə yürüşünü şeirlərində pisləmişdi. O, bu yürüşlə bağlı yazırdı: 1823-cü ildə Yermolov və Mogilyovski tərəfindən tərtib olunmuş vergi dəftərində şəhərin məhəllələri və demoqrafik mənzərəsi əks olunmuşdur:

1. Təbrizli məhəlləsi
2. Qazançılı məhəlləsi
3. Əylisli məhəlləsi

Şəhərdə müəyyən mahaldan və el-obadan gəlib kompakt halında yaşayanlar da vardı. Bu yaşayış sahələri sonradan böyük məhəllələrə çevrildi:

1. Dəmirçihəsənli mahalından (Mamaylı, Xocavənd)
2. Cavanşir-Dizaq mahalından (Hacılı, Yağləvənd, Qaraxanbəyli, Merdinli, Seyidmahmudlu, Dədəli, Zərgər və dəmirçilərin yaşadıqları məhəllə)
3. Cavanşir mahalından (Köçərli, Keştazlı, Şıxbabalı, İlxıçı-Muğanlı)
4. İyirmidörd mahalından (Saatlı)
5. Kəbirli mahalından (Qurd-Dördlər, Qurd-Gürcüstan, Qurd-Qaradağlı, sonradan Seyidli)
6. Ağadədəli məhəlləsi öz adını Cəfərqulu xan Sarıcalı-Cavanşirlə bağlı olan Ağa bəy Dədəlinin yaşadığı ünvandan alıb.
7. Hacıyusifli məhəlləsi isə məşhur divanbəyi Hacı Yusif ağa Hacı Rəhim ağa oğlu Muğanlının adından götürülüb.
8. Gəlmələr məhəlləsi isə müxtəlif yerlərdən gəlmiş adamlar tərəfindən şəhərdə salınmış yaşayış massivi idi.

Demək olar ki, Şuşanın ən qədim məhəlləsi Təbrizlidir. Təbrizli məhəlləsinin sakinləri Qarabağ mədəniyyətinə təkan verdilər. Muğamat sazı, qəzəl qoşmanı üstələdi. Qarabağın bir çox şairləri bu məhəllədən çıxıb. Həmin şairlərdən Ağa Hüseyn Arif, Abdulla Canızadə, Süleyman Faxir, Əbdül Şahin, Mirzə Nəcəfqulu Şəms-Zakir, Fərruxi və başqalarını nişan verə bilərik. Məhəllə əhalisinin əksəriyyəti savadlı idi. 1797-ci ildə Şuşada tərtib olunmuş bir qəbaləyə qol çəkib şahidlik edənlərin böyük çoxluğu Təbrizli məhəlləsinin sakinləridir. Həmin sakinlərdən Hacı Xudaverdini, Ağa Nadirhüseyni, Ağa Cilovxanı, Hacı İmamqulunu, Məşədi Hüseyni və başqalarını göstərə bilərik. Bu məhəllədən həkimlərdən Hacı Mirzə Müqim bəy İmanbəyovu, Məşədi Hacı Əkbər oğlunu, katiblərdən Mirzə Haqverdi Ocaqverdi oğlunu və digər peşə sahiblərini təqdim edə bilərik. Məhəllə ilk dövründə sənətkarlar məhəlləsi olsa da, tez bir zamanda mədəniyyət beşiyinə çevrildi. Şuşa şəhərindən ilk Zaqafqaziya (Qori) Müəllimlər seminariyasında oxuyan Təbrizli məhəlləsinin sakini idi. Həmin şəxsin, Əbdüləli bəy Bağır oğlu Muxtarovun Azərbaycanda maarifçiliyin yayılmasında önəmli rolu var.

Təbrizli məhəlləsinin bünövrəsinədək Qarabağda Xudadad (farsca Allahverdi) adı yox idi. Bu adı özləri ilə bərabər gətirmişdilər. Ad daşıyıcılardan biri Xudadad xan Dünbili Təbrizin hakimi olmuşdu. Məhəllə sakinlərindən biri bu adı öz oğluna qoymuşdu. Şuşa şəhərinin digər məhəllələrində tanınmış birisini çağıranda adının sonuna, Təbrizli məhəlləsində isə önünə ağa sözü əlavə edilirdi.

XVIII yüzilin ikinci yarısından başlayaraq Aşura təziyyəsi əsasən Təbrizli məhəlləsində keçirilirdi. Daha izdihamlı, daha gur olduğundan şəhər qazısı da bu məhəllədə təziyəyə qatılırdı. 1840-cı illərin önlərində ruslara arxalanan ermənilər Təbrizli məhəlləsinin təziyyə məclisinə lağ eləmişdilər. Təziyədə iştirak edən şəhər qazısı Mirzə Əbülqasım bəy Mirzə Əli bəy oğlu Haqverdiyev ermənilərin əleyhinə fitva hazırlamış, bu işin həyata keçirilməsini şəhər deputatı, Təbrizli məhəlləsinin ağsaqqalı Hacı Hüseyn Kərbəlayı Mustafa oğluna tapşırmışdı. Məhəllə əhli hərə bir dəyənək götürüb erməniləri xurd-xəşil eləmişdilər. Şəhər qəza idarəsinin polisləri və keşikçilər qəzəbli kütləni güc-bəla ilə yatırmışdılar. Erməniləri fitnəsi haqqında çara məlumat verilmişdi. 1906-cı il erməni basqınlarında keçmiş Təbrizli məhəlləsinin sakinləri müdafiədə fəallıq göstərmişdilər. Belə fəallardan biri də Əfrasiyab Əzimov idi. O, vətənpərvər, el qədri bilən bir qəhrəman kimi tanınmışdı. 1905–1906-cı illər erməni-müsəlman qırğınlarında igidliyi sayəsində neçə-neçə günahsızı ölümdən qurtarmışdı. Mir Möhsün Nəvvab yazır:

"Müsəlmanlar da bir neçə yerdə səngərlər tərtib etmişdilər. Birinci səngər Vəzirzadələrin evinin qabağında, ikinci səngər isə Hacı Həsən Qaraşirzadənin evinin içində və baş tərəfində idi. Bu səngərləri tərtib edən və onların başçısı Abbas bəy Talıb bəy oğlu idi. Üçüncü səngər isə Məşədi Kərimin və erməni Xaçatur oğlunun evləri idi. Bu səngərləri yaradan və onların rəhbəri bizim Mir İbrahim Ağamirzadə idi. Dördüncü səngər isə Ağadədəlidə idi. Onun da böyüyü və rəhbəri Əfrasiyab Hacı Əzim oğlu idi. Beşinci səngər Təzə məhəllədə yerləşirdi. Onun rəhbəri isə Məşədi Abış Bəylər oğlu idi. Altıncı səngər isə mərhumə Gövhər ağanın evi və həyəti idi. Bu səngərin rəhbəri və istiqamətvericisi cənab Axund Molla Şükür idi".

Əfrasiyab Əzimov həm "Difai", həm də "Qarabağ məclisi" təşkilatlarının fəal üzvi olmuşdu. "Difai", həm də "Qarabağ məclisi" təşkilatlarının üzvülərindən biri də keçmiş Təbrizli məhəlləsinin sakinlərindən biri Məşədi Süleyman Kərbəlayı Allahverdi oğlu Əsgərov idi. Təbrizli məhəlləsinin əhalisi azad icma idi. Onlar xan divanına, rus üsul-idarəsi dönəmində dövlətə vergi ödəyirdilər. Şuşa şəhərinin digər məhəllələrində olduğu kimi, Təbrizli məhəlləsində də əhalinin başlıca məşğuliyyət sahələri sənətkarlıq və ticarət idi. Məhz sənətkarlar və tacirlər Təbrizli məhəlləsi əhalisinin böyük əksəriyyətini təşkil edirdi. Bu məhəllədə əslən Təbrizli olanlarla yanaşı, qonşu Qaradağdan, Naxçıvandan, Şirvandan və digər yörələrdən gələnlər də məskunlaşmışdılar. Təbrizli məhəlləsi XIX yüzilin ikinci yarısından sonra tarix meydanından çıxdı. Bu məhəllənin sakinləri digər məhəllələrdə məskunlaşdılar. Bu məhəllənin sakinlərinin bir qismi Ağadədəli, bir qismi isə Xocamircan məhəlləsinə qarışdı.

Əsasən sənətkar və tacirlərin yaşadığı məhəllə "Təbrizli" adlanırdı, ilk sakinləri Pənahəli xan Cavanşirın dövründə Ərdəbil, Zəncan, əksəriyyəti isə Təbrizdən gətirilmiş, əvvəlcə Bayat, sonra Şahbulaq, daha sonra Şuşa qalalarında məskunlaşdırılmışdı. XVIII əsrin 80-ci illərində İbrahimxəlil xanın özünün yaxın müttəfiqi, Xoy hakimi Əhməd xanla birlikdə Təbriz üzərinə yürüş edərək oranı tutmuş, şəhəri öz aralarında bölüşdürmüşdülər. O, qardaşı oğlu Əsədulla bəyi Təbriz xanlığının hakimi

təyin etdikdən sonra oradan xeyli seçmə sənətkar və tacir ailəsini gətirib həmin məhəllədə yerləşdirmişdi. Sonralar burada İranın Qaradağ mahalından, Naxçıvan, Şirvan və başqa yerlərdən gələnlər də məskunlaşmışdılar. "Təbrizli məhəlləsi"nin camaatı həm xanlıq, həm də rus hakimiyyəti dövründə azad icma olmuş və dövlətə vergi vermişlər. XIX əsrin axırlarında məhəllənin bir hissəsi "Ağadədəli", bir hissəsi isə "Xocamircanlı məhəlləsi"nə qarışmışdır.

Təbrizli məhəlləsində yaşamış ailələr belə adlanırdı. Abidinbəyovlar, Ağabəyovlar, Bababəylilər, Bağırovlar, Canızadələr, Hacımirzəbababəylilər, Hacıəsgərlilər, Ələsgərovlar, Əzimovlar, Müqimovlar, İbrahimbəyovlar, Sadıqovlar, Səfərovlar, Şəfiyevlər, Şəmslər, Tağızadələr, Fəyyazovlar, Fərəcovlar, Qədimovlar, İmanovlar.

Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmiş, 28 il ərzində buna çalışmış lakin nail ola bilməmişlər. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Ə. Çingizoğlu. Şuşa şəhəri. Təbrizli məhəlləsi. Zərdabi. LTD MMC, Bakı, 2012, 324 səh.
2. M.Y. Qarabaği. Qarabağnamələr. I kitab. "Şərq-Qərb", Bakı, 2006, 216 səh.
3. M. M. Xəzani. Kitabi-Tarixi - Qarabağ.
4. Q. Cəbiyev. Azərbaycan tarixi. Bakı, 2017.
5. www.azerbaijan-news.az
6. www.anl.az.


## ŞUŞA ŞƏHƏRİNİN AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ VƏ MƏDƏNİ HƏYATINDA YERİ


***Yaqub Səmədov***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının dosenti,***
***yaqub.semedov63@mail.ru***


Hörmətli konfrans iştirakçıları!

Şuşa rayonu ─ Azərbaycan Respublikasında inzibati-ərazi vahidir və 1930-cu ildə təşkil edilmişdi. Ərazisi 289 km²-dir. Əhalisi 1 yanvar 2016-cı il tarixinə görə 32,8 min nəfər olmuşdur. Şuşa rayonunun ərazisinə bir şəhər və 31 kənd daxildir. İnzibati mərkəzi Şuşa şəhəridir. I Qarabağ müharibəsi dövründə Şuşa şəhəri rus-erməni hərbi birləşmələri tərəfindən işğal edilmiş (1992-ci il mayın ayının 8-də) və hərbi əməliyyatlar zamanı dağıdılmışdı. Tarixə nəzər salarakən aydın olur ki, 1905, 1920-ci illərdə Şuşa şəhəri tamamilə yandırılmış və axırıncı işğal dövründə (1992-ci ildən sonra) də şəhər böyük dağıntılara məruz qalmışdı.

Bir cəhəti də xüsusi vurğulamaq yerinə düşər ki, 2020-ci il iyun ayının 22-də Prezident İlham Əliyev Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında fərman imzaladı və bu Fərmana əsasən "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" yaradıldı.

Şuşa şəhəri tarixən Azərbaycanın ictimai-siyasi və mədəni həyatının ən mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən "Şuşa şəhərinin

tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etməsi də bu baxımdan olduqca mühüm əhəmiyyət kəsb etmişdi. 2021-ci il yanvarın 5-də isə Prezident İlham Əliyev Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etdi.

Prezident İlham Əliyev tərəfindən digər, yanvarın 5-də "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" verilən Sərəncamda da Şuşanın Azərbaycan xalqının və dövlətinin həyatında necə mühüm əhəmiyyət kəsb etməsi faktı dünya içtimaiyyətinin diqqətinə bir daha çatdırıldı.

Şuşa şəhərinin tarixindən bəhs edərkən bir cəhəti xüsusi vurğulamaq lazımdır ki, bu şəhərin əsası 1750-1751-ci illərdə qoyulmuşdu. Qarabağ tarixçilərinin yazdığına görə,1750-ci ildə Şuşakənddən bir qədər aralı, hündür, sıldırım dağ üstündə qalanın tikintisinə başlandı və işlər 1756-1757-ci illərdə başa çatdırıldı. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır. 1751-ci ildən sonrakı siyasi hadisələrdə isə daima Şuşa şəhərinin adı çəkilirdi. İngilis səyyah və alimləri C. Morye və R. Burter də Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr söyləmişlər.

Məsələn, C. Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R. Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları var".

XIX əsrin birinci yarısında şəhər əhalisinin sayı ətraf regionlardan ora gələn peşə sahibləri, alim və sənətkarların hesabına 20 minə çatmışdı. 1809-cu ili məlumatına görə, o dövrdə Şuşada 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Bu da ən azı 1500 sənətkar demək idi. Tarixi mənbələrdə XVIII əsrin sonu, XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu manufakturanın və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. 1882-ci ildə İ. Drozdov "Kavkazski sbornik" kitabında yazırdı: "Şuşa Yelizavetpol quberniyasının qabaqcıl şəhərlərindəndir. O, ticarətdə və gözəllikdə Tiflislə rəqabət aparır.Yelizavetpol əyalətində yaşayan 625 min 599 insanın 24 min 522 nəfəri Şuşanın payına düşür".

1864-cü ildə Şuşada şairlər Mirzə Rəhim Fəna və Hacı Abbas Agahın təşəbbüsü ilə təşkil olunan "Məclisi-üns" və 1872-ci ildə Şuşada Mir Möhsüm Nəvvabın təşəbbüsü ilə onun mənzilində təşkil olunan "Məclisi-fəramuşan" ədəbi məclisləri, Ağahüseyn Rəsulzadənin 1925-1927-ci illərdə rəhbərliyi altında fəaliyyət göstərən "Azərbaycan ədəbiyyat cəmiyyətinin Şuşa şöbəsi" Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamışdı. Şüşa Azərbaycan mədəniyyətinə Qasım bəy Zakir (1784-1857), Xurşidbanu Natəvan (1830-1897), Mir Möhsün Nəvvab (1833-1918), Nəcəf bəy Vəzirov (1854-1926), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Yusif Vəzir Çəmənzəminli (1887-1943), Firüdin bəy Köçərli (1863-1920), Haşım bəy Vəzirov (1868-1916), Bədəl bəy Bədəlbəyov (1875-1932), Əhməd bəy Ağaoğlu (1869-1939) və Üzeyir bəy Hacıbəyli (1885-1948) və s. belə görkəmli şəxsiyyətlər bəxş etmişdi.

XVIII əsrin II yarısında Şuşa həm də, əhəmiyyətli musiqi mərkəzinə çevrilərək Azərbaycan musiqisinin yüksəlişinə güclü təkan vermişdi. XIX əsrin sonu və XX əsrin əvvəllərində isə Qafqazın musiqi mərkəzinə çevrilən Şuşa "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılmışdı.

Şuşa qalasında üç əsas giriş-çıxış qapısı (Gəncə qapısı və ya Çiləbörd, İrəvan və Ağoğlan), 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6

karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən, 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdu.

Şuşadan Azərbaycan xalqının izlərinin itirilməsi məqsədilə 600-ə qədər milli memarlıq abidəsi və tarixi ərazilər, o cümlədən Qarabağ xanlığının yarandığı dövrdən cıdır yarışlarının və yerli türk əhalisi tərəfindən Novruz bayramlarının keçirildiyi Cıdır düzü erməni işğalçılarının tapdağı altında qalmışdı. İşğalın davam etdiyi 30 il müddətində Pənahəli xanın sarayı, Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, Şərqin məşhur şairi xan qızı Xurşidbanu Natəvanın evi, Qarabağ xanlığında vəzir olmuş klassik Azərbaycan şayiri Molla Pənah Vaqifin məqbərəsi, professional Azərbaycan simfonik musiqisinin, eləcə də Şərqin ilk operasının yaradıcı dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin, dünya şöhrətli opera müğənnisi Bülbülün, məhşur tarixçi, rəssam, musiqişünas Mir Möhsün Nəvvabın ev muzeyləri vəhşicəsinə dağıdılmış, milli muzey fondlarından 10 mindən çox eksponat, Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi və Dövlət Qarabağ Tarixi Muzeyindən 1000-dən çox əşya qarət edilərək Ermənistana daşınmışdı. Ümumilikdə, 60-dən çox kitabxana, muzey, musiqi məktəbi və şəhərin qədim müsəlman qəbristanlığı məhv edilmişdi.

Nəhayət, haqq, ədalət gec də olsa zəfər çaldı. Ölkə rəhbəri – Azərbaycan ordusunun Ali Baş Komandanı İlham Heydər oğlu Əliyev həddini aşmış, azğınlaşmış ermənilərə "Dəmir yumruq"la cavab verilməsini uzaqgörənliklə müəyyənləşdirdi və münaqişənin həllində hərbi yolun yeganə çıxış yolu olduğunu tam şəkidfə qətiləşdirdi.

2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq müzəffər Azərbaycan ordusu ölkənin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında işğalçı ermənilərin xarabalıqlara çevirdiyi torpaqlarımızı kənd-kənd, qəsəbə-qəsəbə, şəhər-şəhər qəsbkarlardan azad etməyə, bayrağımızı ucaltmaqla başladı. 8 noyabr tarixi Azərbaycanı uzun illərlə həsrətində olduğu doğma Şuşasına qovuşdurdu. 10 noyabr tarixi isə Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyi şanlı Qələbə Gününə çevrildi. Beləliklə bu Şanlı qələbə həm, Şüşamızın tarixinin qaranlıq səhifələrinin bir daha dərindən araşdırılmasını aktuallaşdırdı, həm də Şuşa həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm mərhələnin əsasını qoydu.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://president.az › articles › view.
3. https://ikisahil.az › post › dunyanin-medeniyyet-paytaxt.
4. https://xalqqazeti.com › mobile › news
5. https://kulis.az › xeber › media › Susa-Azrbaycanin-md.

## ŞUŞA TARİXİ VƏ STRATEJİ ƏHƏMİYYƏTƏ MALİK OLAN ŞƏHƏRDİR

***Araz Əliyev***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***ani.eliyev95@bk.ru***

Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qarabağ xanı Pənah Əli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, Qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənah Əli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır.

İngilis səyyah və alimləri C. Morye və R. Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C. Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R. Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır". Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir. Tarixi mənbələrdə Şuşanın hətta XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olması haqqında faktlar vardır.

XVIII əsrin ikinci yarısından başlayaraq şəhərin əhalisi sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdi. Hələ Pənah Əli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da gücləndi. Xanlığın ərazisində Əskəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və s. diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdi. Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdi.

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. XVIII əsrin 80-ci illərində şəhərin dövrəsinə möhtəşəm qala divarları çəkilib başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Şuşalı tacirlər Təbriz, Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdı. Şəhərdə "Pənahabadi" adlı gümüş sikkələr zərb edilirdi.

Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. "Rastabazar"ın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət olan və qalereyanı xatırladan şəkiləri başdan-başa örtülü olduğundan bütün fəsillərdə quru və təmiz qalırdı. Küçənin ortası ilə nəqliyyat vasitələri hərəkət edirdi. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin "Meydan" deyilən əsas meydanı Rastabazar küçəsi boyunca tikilmiş ibadətgah və ticarət təyinatlı tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan və qoşa minarəli yaraşıqlı Cümə məscidindən ibarət idi. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı ki, bunların

da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı. Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud idi.

Qeyd etmək vacibdir ki, tarixi mənbələrdə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. 1809-cu ilin məlumatına görə, o dövrdə Şuşada 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Bu da ən azı 1500 sənətkar demək idi. Tarixi mənbələrdə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. XIX əsrin 60-cı illərində Şuşada illik ticarət gücü 78 milyon rubla bərabər olan ipəksarıma fabrikləri fəaliyyət göstərirdi ki, çox keçmədən həmin müəssisələrin illik istehsal gücü 117 milyon rubla çatmışdı.

1873-cü ildə Vyana şəhərində açılmış beynəlxalq sərgidə Şuşanı təmsil edən nümayəndələr də iştirak etmiş və onların sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə dərin maraq oyatmışdı. 1903-cü ildə Tiflisdə nəşr olunmuş "Vestnik Kavkaza" jurnalının 43-cü səhifəsində göstərildi ki, "Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırlladır.

Bununla yanaşı, Şuşanın gözəl təbiəti, coğrafi mövqeyi, xüsusilə çox mühüm strateji əhəmiyyətli qala olmasını bir sıra tədqiqatçılar dəfələrlə bildirmişlər. Məşhur klimatoloqlar dəniz səthindən 1403 metr hündürlükdə yerləşən mühüm əhəmiyyətli şəhərin iqlim şəraitini, fauna və florasını dəqiq yoxladıqdan sonra mülayim təbiətli Şuşanın böyük müalicəvi əhəmiyyətli bir şəhər olduğunu söyləmişdilər. 1854-cü ildə şəhərdən cənubda, 18 kilometr aralı "Turşsu" deyilən səfalı guşədə mədən suyunun çıxması da alimlərin mülahizəsini doğrultdu. Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhəri kimi tanınmışdır. Bu baxımdan, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerləri, istirahət guşələrinə görə məşhur idi. Şuşa dağlarında xüsusi gözəlliyi ilə seçilən və dünyanın heç bir yerində bitməyən "Xarı bülbül" gülü bitir. Bu endemik gül həm gözəl, həm də müalicəvidir.

Artıq XIX əsrin ikinci yarısında şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla 25 minə çatmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışlar.

Tarixi sənədlər göstərir ki, "Üç muşketyor" və "Qraf Monte Kristo" kimi klassik əsərlərin müəllifi olan məşhur yazıçı Aleksandr Düma 1858-ci ilin ortalarından 1859-cu ilin əvvəllərinə kimi Rusiya və Qafqazda olmuşdur. Qafqaza səfəri zamanı müəyyən müddət Azərbaycan ərazisinə səyahət etmiş, 1859-cu ilin aprel ayında isə Dümanın 3 cilddən ibarət Qafqaz səyahətinin təəssüratları əsəri (fransızça: "İmpression de Voyage Le Caucase") Parisdə çap olunmuşdur.

Bakı məhəllələrinin birinin polismeysteri Piquliyevskinin evində qonaq olan Aleksandr Düma orada Qarabağ xanının qızı, məşhur şairə Xurşudbanu Natəvan və onun həyat yoldaşı knyaz Xasay Usmiyevlə tanış olur, onlar arasında səmimi dostluq münasibətləri yaranır. Fransız yazıçısı Düma Azərbaycan şairəsi Natəvanla şahmat oynayır. Oyunun nəticəsi isə, çox yadda qalan olur. Belə ki, Natəvan Dümanı mat edir. Natəvan Dümaya qalib gələrkən o, Dümadan yaşca xeyli kiçik idi.
Natəvanın cəmi 26, Dümanın isə 56 yaşı vardı. Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun dəstəyi ilə 2016-cı il fevralın 18-də Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi

Xurşidbanu Natəvanın abidəsinin açılışı olmuş və abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat vardır.

Ümumiyyətlə, tarixi mənbələr sübut edir ki, Şuşa qalası tarixən Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. XIX əsrin əvvəllərində - 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla Rusiyanın Qafqaz qoşunlarının baş komandanı general Sisianov arasında Kürəkçay müqaviləsi ("Andlı öhdəlik") imzalandı. Bununla da Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil oldu və dərhal Qarabağda çarizmin mövqeyini möhkəmlətmək üçün ermənilərin bura köçürülməsinə başlandı. Bu fakt onu göstərir ki, ermənilərin Qarabağa dair ərazi iddiaları əsassızdır. Çünki əgər ermənilər Qarabağ xanlığında yaşayıb, vəzifə sahibi olsaydılar, general Sisianovla müqavilə Qarabağ xanı İbrahim xanla imzalanmazdı. Qarabağın dağlıq hissəsində erməni əhalisinin xeyli dərəcədə çoxaldılması isə XIX əsrin 20-ci illərində, xüsusilə Cənubi Qafqaz üçün Rusiya tərəfindən işğal edilməsindən sonra baş vermişdir. 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artmağa başladı. Bunu Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri kimi sənədlər də təsdiq edir. 1828-ci ildən sonra Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən rəsmən 124 min (qeyri-rəsmən 200 min) erməni köçürülmüş, bu proses bütün XIX əsr boyunca davam etdirilmiş və bu da demoqrafik vəziyyətə müəyyən təsir göstərmişdir.

Nəticədə Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və nəticədə bu hadisə Ermənistanın Dağlıq Qarabağa dair gələcək ərazi iddiaları üçün bir vasitə olmuşdur. Qarabağ 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə quberniyasının tərkibində olmuş, 1921-1991-ci illərdə isə Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olmuşdur.

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər "böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair yenidən ərazi iddiaları irəli sürdülər. XX əsrin 80-ci illərinin sonu-90-cı illəri ol olnin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Dağlıq Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi.

1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün yuxarı Qarabağ zəbt olundu. Nəticədə 289 kvadratkilometr ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı,

Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Hazırda Şuşa rayonunun 34 min 300 nəfər əhalisi Azərbaycanın 58 rayonunda müvəqqəti məskunlaşmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P. Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B. Haqverdiyevin, Q.B. Zakirin, M.M. Nəvvabın, S.S. Axundovun, N.B. Vəzirovun, Y.V. Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı,
Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimlərin vətəni, hesab edilən şəhər xarabazara çevrilmişdir. Nəhayət qeyd etmək lazımdır ki, 27 sentyabr 2020 ci il tarixdə başlayan və 44 gün davam edən Vətən müharibəsi zamanı Ali Baş Komandanın və şanlı Azərbaycan ordusunun qarşısında diz çökən Ermənistan ordusu və rəhbərliyi 10 noyabr 2020 ci il tarixdə kapitulyasiya aktına imza ataraq təslim oldu və işğal altında olan torpaqlarımız öz azadlığına qovuşdu. Hal-hazırda işğaldan azad olunan ərazilərdə bərpa- quruculuq işləri davam etməkdədir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan arxeologiyası. VI cilddə, I cild, Bakı, 2008, 443 səh.
2. Azərbaycan tarixi. VII cilddə, Bakı, 2007, 608 səh.
3. A.A. Bakıxanov. Gülüstanı İrəm. Bakı, 2000,224 səh.
4. Azərbaycan müəllimi qəzəti. 22 fevral 2022.
5. Xalq qəzeti. Bakı, 11 yanvar 2022.
6. M. Adıgözəl bəy. Qarabağnamə. Bakı, 2006. 2016 səh.
7. Z. Bünyadov. Azərbaycan tarixi. Bakı, 1995, 331 səh.
8. https: //m youtube kanalı
9. https: //azertag.az
10. https: //www.virtualkarabakh.az

## ŞUŞA AZƏRBAYCANIN MUSİQİ VƏ MƏDƏNİYYƏT BEŞİYİDİR

***Tahir Kərimli, b/m.***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
***kerimli_anar@mail.ru***

270 illiyini qeyd etdiyimiz Şuşa şəhəri Pənahəli xan Cavanşirin yaradıcılıq dühasının rəmzi, xanlığının, varlığının ifadəsi olan ikinci şah əsəridir. Onun ilk şah əsəri QARABAĞ xanlığının yaradılması idi. O, adını daşıdığı yeni paytaxtın tikintisini başa çatdırdıqdan və güclü ordu yaratdıqdan sonra bir çox böyük və mürəkkəb vəzifələri həyata keçirtdi.

Tədqiqatçı Vasif Quliyev yazır: "O, talançı, viranedici, üzücü müharibələrə tamamilə son qoymağa çalışır, sonrakı ömrünü Qarabağın yalnız iqtisadi tərəqqisinə, mənəvi, siyasi, hərbi yüksəlişinə, maarifinin, mədəniyyətinin inkişafına həsr etmək, tarixin üfüqlərindən hələ təzə-təzə boylanan Pənahabad qalasını Şərqin ən gözəl və zəngin şəhəri etməklə laləzara, gülüstana döndərmək, eləcə də vahid elmi fikir mərkəzinə çevirmək istəyirdi. Ona görə də məqsədinə daha tez çatmaq üçün Qalanı rəsmən paytaxt etmək barədə fərman verdi və tezliklə xanlığın iqamətgahını, sarayını, divanını, diplomatik heyətini Şahbulaqdan Pənahabada köçürtdü. Üstəlik, Qarabağ əhalisinin seçmə hissəsini-zəka sahivlərini, ən yaxşı, ən kamil, ən mahir sənətkarları, bəyləri, iri tacirləri, varlı və zəngin şəxsləri də burda məskunlaşdırdı. Eyni zamanda yaxın-uzaq ellərdən, xüsusən, Arazın o tayından savadlı, elmli adamları öz gənc paytaxtında yaşamağa səslədi. Qalanın şöhrətinin günü-gündən artıb-yayılması da öz növbəsində, ətraf vilayətlərdən və şəhərlərdən çoxlu sənət və peşə ustalarının Pənahabada axışıb gəlməsinə səbəb oldu".

Müdrik, ağıllı, uzaqgörən şəxsiyyət olan Pənahəli xan bəzən də haqqında eşitdiyi adlı-sanlı sənətkarları özü sarayına dəvət edirdi. Onun dəvətini məmnuniyyətlə qəbul eləyib, ailəliklə bu qalada kök salan onlarla şair, musiqiçi, rəssam, xəttat, memar... sənət ənənələrini də özləri ilə gətirməyi unutmurdular. Pənahabadın ilk sakinləri sırasına qatılan neçə-neçə təbrizli, ərdəbilli, ordubadlı, irəvanlı, şamaxılı, dərbəndli, gəncəli...çox çəkmədən möhkəm qranit qaya üzərində ucalan bu məğrur qalanın "vətən daşı"na çevrildilər.

Qalanın təzə sakinlərinin yaşayışı üçün Pənahəli xanın göstərişi ilə hər cür şərait, rahatlıq, dəbdəbə yaradılmışdı. Təzə gələnlərin üz-gözləri az bir vaxtda bu diyara elə alışmış, bu yurda elə öyrəşmişdi ki, onlar özlərini bir-birinə qaynayıb-qarışmış doğma adamlar kimi hiss edirdilər. Yerli sənətkarlarla əl-ələ, baş-başa verərək şəhərlərinin tərəqqisi, inkişafı yolunda yaşayıb-yaradan, bacarıq və qabiliyyətlərini göstərən yeni vətəndaşlar bacarıq və qabiliyyətlərini göstərməklə Qarabağ mədəniyyətinə öz ilk töhfələrini verirdilər. Bu vəhdətin və tərəqqinin nəticəsidir ki, Pənahavad təkcə siyasi paytaxt yox, eyni zamanda ədəbi və mədəni bir mərkəz kimi tanındı.

Şuşa şəhərində 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud olmuşdur. Pənahəli xanın hakimiyyəti illərində (1747-1763) şəhərin salınmasının ilkin mərhələsində ən qədim məhəllələr sonralar şəhərin relyefinə uyğun olaraq "Aşağı məhəllə" adlandırılmışdır. "Aşağı məhəllə" Seyidli, Çöl Qala, Çuxur Məhəllə, Quyuluq, Dördlər Qurdu, Qurdlar, Merdinli, Hacı Yusifli, Culfalar adlanan 9 məhəllədən, Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi isə

İbrahimxəlil xanın hakimiyyəti illərinə (1763-1806) təsadüf edir. Bu mərhələdə Saatlı, Mamayı, Köçərli, Xocamircanlı, Ağadədəli, Dəmirçilər, Təzə Məhəllə, Hamamqabağı kimi 8 məhəllədən ibarət "Yuxarı məhəllə" təşkil edilmişdir.

Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. XVIII əsrin 80-ci illərində şəhərin əhatəsinə möhtəşəm qala divarları çəkilib başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri, ticarət daha sürətlə inkişaf edirdi. Şuşalı tacirlər Təbriz Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Leypsik, London, Mançester, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdı. Şəhərdə "Pənahabadi" adlı gümüş sikkələr zərb edilirdi.

Məşhur rəssam V. Vereşşagin Şuşanı görəndən sonra yazmışdı: "Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş pilitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir".

XIX əsrin ikinci yarısında Şuşada tikinti işləri daha geniş vüsət almışdı. Xurşudbanu Natəvanın, Gövhər ağanın, Cəfərqulu xanın, Uğurlu bəyin, Fərzəli bəyin, Nəcəfqulu ağanın, Hasıqulunun, Səfi bəyin tikdirdiyi yeni tipli saray və imarətlər şəhərə xüsusi gözəllik verirdi. Dövlət tərəfindən əsası qoyulan bir sıra məktəb binaları, Qarabağın imkanlı adamlarının sayəsində ucaldılan məscid və hamamlar o zamankı memarlıq abidələrinin ən gözəl nümunələrindən sayılırdı.

Artıq XIX əsrin ikinci yarısında Şuşa şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla 25 minə çatmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi, təhsili və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışlar.

Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan Şuşa tanınmış elm və mədəniyyət xadimlərinin vətəni hesab edilir. Heç də təsadüfi deyildir ki, Xurşidbanu Natəvan, Molla Pənah Vaqif, Mir Möhsün Nəvvab, Əbdürrəhim bəy Haqverdiyev, Qasım bəy Zakir, Süleyman Sani Axundov, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Həmidə xanım Cavanşir, Bədəl bəy Bədəlbəyli, Əhməd bəy Ağayev, Ceyhun bəy Hacıbəyli, Səməd bəy Mehmandarov, Fərəc bəy Ağayev, Yaqub Quliyev və onlarla dünya şöhrətli xadimlərin həyatında məhz Şuşa mühitinin mühüm rolu olmuşdur.

Musiqişünas F. Şuşinski yazır: "Azərbaycan xalqının mədəniyyət tarixində ilk dəfə olaraq teatr, sirk tamaşaları, Avropa və Şərq konsertləri, musiqi, elm, maarif və bir çox sənət məclisləri, bundan əlavə mətbəə, kitabxana, realni uçiliş, qorodskoy uçiliş, seminariya və bir sıra mədəni-maarif müəssisələri Şuşada yaranmışdı. XIX əsrin 40-cı illərindən başlayaraq Şuşada incəsənətin müxtəlif sahələri inkişaf edirdi".

Dünyada Avstriyanın Vyana, İtaliyanın Neapol, Azərbaycanın Şuşa kimi şəhərləri var ki, musiqi bu şəhərlərin hər daşına, divarına, ab-havasına hopmuşdur. Haqlı olaraq Şuşa şəhəri Qafqazın konservatoriyası adlandırılmışdır. Bu konservatoriyanın nümayəndələri dünyanın bütün qitələrində Azərbaycan musiqisini ləyaqətlə təmsil edərək ona şöhrət gətirmişlər.

"Azərbaycanın bütün məşhur oxuyanları və çalanları Şuşada doğulmuşlar" deyən Xalq şairimiz Səməd Vurğun da, "Kim oxuya bilmirsə, deməli, şuşalı deyil" fikrini yazan görkəmli rus şairi Sergey Yesenin də tamamilə haqlı idilər.

Akademik Zemfira Səfərova yazır: "Məşhur alim, şair, musiqişünas, rəssam Mir Möhsün Nəvvab, mahir tarzən, bu aləti təkmilləşdirən Sadıxcan, gözəl oxuyanlar- xanəndələr Hacı Hüsü, Məşədi İsi, Əbülbaqi Zülalov (Bülbülcan), Cabbar Qaryağdı oğlu, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev, Seyid Şuşinski, Bülbül, Zülfü Adıgözəlov, Xan Şuşinski və bir çoxları burada yaşamış və yaratmışlar. Bu xanəndələr təkcə Zaqafqaziyada deyil, həm də Yaxın Şərqdə məşhur olan Şuşa muğam məktəbini yaratmışlar.

Şuşa həm də Azərbaycan bəstəkarlarının böyük ordusunun vətənidir. Uşaqlıq illərini bu şəhərdə keçirmiş Azərbaycanın müasir prosessional musiqisinin banisi Üzeyir Hacıbəylinin, onun qardaşı Zülfüqar Hacıbəyovun, məşhur bəstəkarlarımız Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Soltan Hacıbəyovun, Əşrəf Abbasovun, Süleyman Ələsgərovun, müğənni Rəsid Behbudovun və gözəl sazəndələrin, tarzənlərin, kamançaçıların- Ələsgərin, adını çəkdiyimiz Sadıxcanın, Məşədi Cəmil Əmirovun, Şirin Axundovun, Qurban Pirimovun, Bala Məlikovun, Qulu Əliyevin və b. vətənidir".

Şuşada birinci musiqi məclisi Şərq musiqisinin bilicisi Xarrat Qulu (1823-1883) tərəfindən təşkil olunmuşdur. Bu məclis dini məqsədlə yaranmışdır, lakin burada həm də muğamat sənəti öyrənilirdi. Məhərrəmlik qurtardıqdan sonra (onun keçirilməsinə bir neçə ay hazırlaşırdılar) xanəndələr bu muğamları artıq toylarda və başqa yerlərdə ifa edirdilər.

Musiqişünas Xarrat Qulunun məktəbi Azərbaycanın muğam sənətinin inkişafında böyük rol oynamışdır. Bu məktəbin nümayəndələri olan Hacı Hüsü, Məşədi İsi, Əbdülbaqi Zülalov, Dəli İsmayıl, Keştazlı Haşım, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu Şuşa vokal məktəbinin parlaq nümayəndələridir.

Xarrat Quludan sonra 80-ci illərdə Şuşada "Məclisi Fəramuşan" (Unudulmuşların məclisi) və "Musiqiçilərin məclisi" yaranır ki, onların rəhbəri Azərbaycanın XIX əsr mütərəqqi alimi, şairi, musiqişünası, rəssamı Mir Möhsün Nəvvab idi. Azərbaycan elmini, ədəbiyyatını və sənətini xeyli zənginləşdirmiş ensiklopedik biliyə və nadir istedada malik M.M. Nəvvab Şuşada doğulmuş, yaşamış və yaratmışdır (1833-1918).

M.M. Nəvvabın XIX əsrin 80-ci illərində məşhur xanəndə Hacı Hüsü ilə birlikdə yaratdığı "Musiqiçilər məclisi"ndə musiqi sənətinin estetik problemləri, xanəndələrin ifaçılığı, klassik muğamları müşayiət edən şeirlər müzakirə olunurdu. Bu məclisə öz dövrünün məşhur xanəndə və sazəndələri Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski daxil idi. Bir çox musiqiçilər özlərinin ilk təhsilini məhz bu cəmiyyətdə almışdır. Mir Möhsün Nəvvab musiqi sənəti haqqında "Vüzuhül-ərqam" risaləsini (Rəqəmlərin izahı) 1884-cü ildə Şuşada yazmışdır.

"Vüzuhül-ərqam" XIX əsrin sonunda Azərbaycan musiqisi haqqında Azərbaycan dilində (ərəb əlifbasıyla) yazılmış və çap edilmiş yeganə risalə idi. Bu risalənin Şərqdə ümumən risalələrin az yazılan bir dövründə yaranması və Şuşanın muğam nəzəriyyəsinin ənənələrinin M.M. Nəvvabın "Vüzuhül-ərqam" risaləsində davam etdirilməsi faktı böyük maraq döğururdu.

Musiqi məclisləri, dərnəkləri, şübhəsiz ki, Azərbaycan musiqi sənətinin inkişafında əhəmiyyətli rol oynamışdır. Bununla belə XIX əsrin sonu üçün xanəndə və sazəndələrin sənəti daha geniş

auditoriyanın məhəbbətini qazanaraq teatr və konsert sahəsinə çıxmışdır. Bu musiqiçilər Tiflisdə, Şuşada və sonra da Bakıda teatr tamaşalarının antraktında çıxış edirdilər.

1897-ci ildə Şuşada istedadlı yazıçı Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyilə həvəskar aktyorların ifasında Dahi Azərbaycan şairi Füzulinin poeması əsasında "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəcik göstərildi. Məcnun rolunu məşhur xanəndə Cabbar Qaryağdıoğlu oynayırdı. 1902- ci ildə Fərhad və Şirin mövzusunda ikinci belə musiqili səhnə qoyuldu. Fərhad rolunu yenə də Cabbar Qaryağdıoğlu ifa edirdi.

İlk Şərq konserti Şuşada Ə. Haqverdiyevin rəhbərliyi ilə verilmişdi. Sonrakı konsertlər Bakıda keçmişdi. Bu konsertlərdə əsas ifaçı böyük müğənni Cabbar Qaryağfıoğlu idi (1861-1944). O, Azərbaycan vokal sənətinin tarixində yeni səhifə açmışdır. Çoxcəhətli sənətkar olan Cabbar Qaryağdıoğlu Azərbaycan vokal sənətinin tarixində yeni səhifə açmış, xalq xanəndəsi və bəstəkarı kimi məşhur olmuşdur. Cabbar Qaryağdıoğlu öz sözlərinə çoxlu mahnı, təsniflər üçün isə yeni şeirlər yazmışdır. O, Azərbaycan musiqisinin canlı ensiklopediyası idi. Cabbar Qaryağdıoğlunun yüksək tessitura və geniş diapazonlu gözəl tenoru var idi. Qaryağdıoğlu kimi "Mənsuriyyə", "Heyratı", "Kürdi- Şahnaz"ı oxuyan yox idi. Cabbar Qaryağdıoğlu musiqili-ədəbi səhnələrdə və Şərq konsertlərində çıxış edərək, milli operanın yaranmasında önəmli rol oynadı, onun üçün münbit zəmin yaratdı.

Böyük rus şairi Sergey Yesenin 1924-cü ildə Bakıya gəlir. O, müxtəlif musiqi məclislərində, konsertlərdə Cabbar Qaryağdıoğlunun oxumağını eşidir, onun səsinə və xanəndəlik məharətinə məftun olur. O, ilk şəxs idi ki, Cabbar Qaryağdıoğlunun sənətinin Azərbaycandan daha geniş miqyasda, bütün Şərq aləmi üçün əhəmiyyətini bildirdi. Onu "Şərq musiqisinin peyğəmbəri" adlandırdı.

İlk Azərbaycan operası "Leyli və Məcnun"u digər dahi şuşalı Üzeyir Hacıbəyli 1907-ci ildə yazmağa başlayır. Amma bu operanın mövzusu bir qədər əvvəl 1897-1898-ci illərdə hələ bəstəkar Şuşada yaşayarkən qəlbində həkk olmuşdur. Bu illərdə Üzeyir doğma şəhəri Şuşada "Məcnun Leylinin məzarı üstündə" mövzusunda həvəskar aktyorlar tərəfindən nümayiş etdirilən səhnəni görmüşdü. Bu səhnədə Məcnun rolunu Cabbar Qaryağdıoğlu ifa edirdi, Üzeyir özü isə xorda oxuyurdu.

Musiqi mədəniyyəti tarixində ilk muğam operası "Leyli və Məcnun"dur. Bu opera Üzeyir Hacıbəylinin "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla", Müslüm Maqomayevin "Şah İsmayıl", "Z. Hacıbəyovun "Aşıq Qərib" kimi muğam operalarının üslubunu müəyyənləşdirdi.

Üzeyir Hacıbıylinin yaradıcılıq yolu Azərbaycan musiqi mədəniyyətinin yaranması və inkişafı tarixinin mühüm dövrünü əks etdirir. Məhz elə buna görə Üzeyir Hacıbəylinin anadan olduğu günü- 18 sentyabrı Ulu öndər Heydər Əliyevin fərmanına əsasən respublika ictimaiyyəti musiqi Bayramı kimi qeyd edir.

Zemfira Səfərova haqlı olaraq qeyd edir ki, 12 yanvar 1908-ci il bütün müsəlman Şərqində ilk operanın- "Leyli və Məcnun"un premerasından sonra Azərbaycan musiqisində yaranmış elə forma, janr tapmaq olmaz ki, Üzeyir Hacıbəylinin adı ilə bağlı olmasın.

Bədii mədəniyyətimizin ayrılmaz hissəsini təşkil edən Üzeyir musiqisi Azərbaycan xalqının canına, qanına hopmuşdur. Onun yaradıcılığı ölkəmizin hüdudlarını aşaraq müasir musiqi mədəniyyətinin bədii hadisəsinə çevrilmişdir.

Üzeyir Hacıbəyli dəfələrlə etiraf etmişdir ki, özünün şedevri “Koroğlu” operasını yaradarkən ən əvvəl Bülbülün səsini nəzərdə tutmuşdu. Bülbül Hacıbəylinin ölməz operasında Koroğlu rolunu ifa etmişdi.

Bülbül (əsl adı Murtuza Məmmədovdur) Şuşada anadan olmuşdur (1897-1961). Hələ uşaq ikən o, doğma diyarın və məşhur səslərin gözəlliyinə məftun idi. O, bu məşhur oxuyanlardan, onların bülbül kimi cəh- cəh vurmalarından öyrənirdi. 12 yaşında bu oğlan Qarabağ toylarında və bayramlarında iştirak edib oxuyurdu. Tezliklə o, Bülbül adıyla məşhurlaşdı, topulyar oldu. Əvvəllər xanəndə kimi, muğamların ifaçısı kimi çıxış edən Bülbül inqilabdan sonra yeni Azərbaycan vokal sənətinin banisi oldu. O, öz sənətində milli özünəməxsusluğu dünyəvi texnika ilə birləşdirə bilmişdir.

Qarabağdan çıxmış məşhur sənətkarların Azərbaycan musiqi sənətinin inkişafında böyük rolu olmuşdur. Azərbaycanda ilk simfonik muğamları bəstəkar Fikrət Əmirov (müğənni və tarzən Məşədi Cəmil Əmirodun oğludur) yaratmışdır. Həyatının son illərinə qədər simfonik konsertlərlə Qarabağa, Şuşaya qastrol səfərlərinə gedən, Cıdır düzündə açıq havada konsertlər verən görkəmli dirijor və bəstəkar Niyazinin (bəstəkar Zülfüqar Hacıbəyovun oğludur) Azərbaycan musiqisinin inkişafında çox böyük xidmətləri vardır. Məşhur müğənni Rəşid Behbudov (Məcid Behbudovun oğludur) Üzeyir Hacıbəyovun dünya şöhrətli “Arşın mal alan” kinofilminin baş qəhrəmanının obrazını yaratmışdır.

1938-ci ilin fevral aynda Şuşa Dövlət Kolxoz və Sövxoz Teatrı yaradılıb. 1943-cü ildə kollektivin adı dəyişdirilərək Şuşa Dövlət Musiqili Dram Teatrı olub. Ona Üzeyir Hacıbəylinin adı verilib. Teatrda dram və komediyalarla yanaşı opera və operettalar da oynanılıb. Şuşa Musiqili Dövlət Dram Teatrı 1949-cu ilin əvvəllərində fəaliyyətini dayandırıb. Yerli həvəsgarlar dram dərnəyində, daha sonra Xalq teatrında (1987-ci il) fəaliyyətlərini davam etdiriblər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə (11 may 1990), Mədəniyyət Nazirliyi tərəfindən (25 may 1992) Şuşa Dövlət Musiqili Dram Teatrının fəaliyyəti bərpa edildi. Şuşa Dövlət Dram Teatrında (direktor Yadigar Məmməd oğlu Muradovdur) qısa müddətdə Yadigar Muradovun rejissorluğu ilə Y. Hacıbəylinin “Arşin mal alan”, Ş.Qurbanov və S.Ələsgərovun “Özümüz bilərik” və Elxan Mikayılovun rejissorluğu ilə Eldar Baxışın “Uzun Həsən” əsərləri tamaşaya hazırlandı. Lakin həmin əsərlərin təqdimatı erməni işğalı ilə əlaqədar 13 fevral 1993-cü il fevral ayının 13-də Gənc Tamaşaçılar Teatrında oldu. Ötən müddət ərzində teatrın aktyorlarından Şükufə Musayeva Azərbaycan Respublikasının Xalq artisti, Yadigar Muradov, Teymur Məmmədov, Azad Məmmədov və Nazir Rüstəmov Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşlər.

1983-cü ildə Mir Möhsün Nəvvabın anadan olmasının 150 illiyi onun vətəni Şuşa şəhərində təntənə ilə qeyd edilmişdir. Bu münasibətlə Şuşa rayon mədəniyyət evinin səhnəsində Professor Nazim Axundovun yazdığı “Məclisi-fəramuşan”da bir gün” adlı ssenari əsasında teatrlaşdırılmış tamaşa göstərilmişdir. Tamaşaya Azərbaycan Mədəniyyət Universitetinin məzunu Yadigar Muradov quruliş vermiş və Nəvvab rolunu məharətlə ifa etmişdir. Digər rolları şəhərin hörmətli ziyalılarından sayılan Teymur Məmmədov, İlhami Cəfərsoylu, Hüseyn Məşədiyev, Allahverdi İsmayılov, Fəxrəddin Səfərov, Nizami Fətəliyev, Rüstəm Hüseynov, Tahir Kərimli, çayçı Sülüyman kimi müxtəlif peşə sahibləri ifa etmişlər. Rövşən Bayramovun rəssam işi və ayrı-ayrı rolların ifaçılarının Nəvvabın ruhuna layiq çıxışları Şuşanın tələbkar tamaşaçılarının böyük marağına səbəb olmuşdur.

Sovet dövründə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük dirqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman

iflasa uğramışdır. Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Heydər Əliev Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Heydər Əliyev XX əsrin 70-ci illərində Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə göstəriş vermişdi. Heydər Əliyev eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P. Vaqifin və Xurşidbanu Natəvanın yaşayaş-yaratdığı yerlərlə tanış olmuşdu.

Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statuau qaldırılaraq Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu gücləndirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

1977-ci ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında qərar qəbul edilmişdir.Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə Heydər Əliyev tövsiyyə edərək demişdir: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır. Həmin illərdə Ümummilli lider Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdır. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdır. Onun Molla Pənah Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisini, etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi. Ümummilli liderin Molla Pənah Vaqifin məqbərəsinin açılışında söylədiyi nitq onun Qarabağa qayğısının göstəricisi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif poeziya günlərində iştirak etdi. Heydər Əliye Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyyələrini vermişdir. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdir. Ümummilli liderin, eyni zamanda, Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalini milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyyə etmişdi.

1982-ci il iyulun 29-dan avqustun 2-sinədək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Qeyd

etmək lazımdır ki, bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə ümummilli lider ziyalıları Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez gəlmələrini tövsiyyə edirdi.

1992-ci il mayın 8-də Şuşanın Ermənistan silahlı qüvvərəri tərəfindən işğalı nəticəsində rayonun 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatr, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P. Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B. Haqverdiyevin, Q.B. Zakirin, M.M. Nəvvabın, S.S. Axundovun, N.B. Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realnı məktəbin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağılmış və məhv edilmişdir.

2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində bütün dünyaya bəyan etdi:

"Əzəz Şuşa, sən azadsan!
Əzəz Şuşa, biz qayıtmışıq!
Əzəz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandir!"

Qarabağın tacı olan Şuşa şəhərinin zirvəsində dalğalanan üşrəngli bayrağımızın əzəməti çox qürurverici olmaqla yanaşı, bu qələbədə əməyi olan hər kəsə qarşı minnətdarlıq duyğularımızı ünvanına çatdırmaq üçün daha da pərvazlandırır. Heç şübhəsiz ki, erməni işğalından azad edilmiş bütün müqəddəs yerlərimiz kimi gecələrində ulduzlar sayrışan, gündüzləri günəş şəfəqli Şuşa şəhəri də onu sevənlər, qurub- yatadanlar, Şuşanın tarixi, strateji və mədəni dəyərini dərk edənlər tərəfindən dünyaya nümunə olacaq səviyyədə yenidən bərpa ediləcəkdir.

Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi.

2021-ci il mayın 12-13-də bənzərsiz Cıdır düzündə "Xarı bülbül" musiqi festivalı keçirildi. 2021-ci il avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa şəhərində Heydər Əliyev fondu tərəfindən təşkil olundu. 2021-ci il sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Yzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi . 2022-ci il Prezidentin fərmanı ilə Şuşa ili elan edilmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. T. Kərimli. Mir Möhsün Nəvvab Qarabağinin həyatı, maarifçilik fəaliyyəti və pedaqoji görüşləri. Bakı, ADPU-nun nəşriyyatı, 2021, 149 səh.
2. E. Əhmədov. Şusa. Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı. Bakı, "Zərdabi Nəşr" MMC, 2021. 179 səh.

## ÜZEYİR HACIBƏYOVUN FƏLSƏFİ BAXIŞLARI

***Mahir Səlimov, dosent***
***Tərbiyə işləri üzrə direktor müavini***
***mahir.0707@mail.ru***

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov eyni zamanda görkəmli publisist, dramaturq, ictimai - siyasi xadim, maarifçi filosof olmuşdur.

Üzeyir Hacıbəyov 1885 - ci il sentyabrın 18 - də indiki Ağcabədi rayonun Rəncbərlər kəndində Mİr Qədir Ağanın ocağında atası Əbdulhüseyn, anası Şirinbəyim xanımının ailəsində dünyaya gəlmişdi. O, 5 yaşına qədər Ağcabədidə yaşamış sonra isə Şuşa şəhərinə köçmüşlər. Üzeyir bəyin uşaqlığı qədim Qarabağımızın tacı olan Şuşada keçib. Üzeyir dühasının qaynaqları da qarlı zirvələrin, dibi görünməz uçurumların, dərin dərələrin dövrələdiyi bulaqları bal dadan Şuşadır.

Bülbül səsli xanəndələri ustad çalğıçıları məşhur olan Şuşanın Qafqazın Konserveraturiyası adlandırırıblar. "Qafqazın Konserveraturiyası" balaca Üzeyir üçündə ilk musiqi məktəbi olub təbiət Üzeyir bəydən heçnə əsirgəməyib misilsiz istedad nadir musiqi qabiliyyəti saysız hesabsız melodiyalar yaratmaq bacarığı güclü yumor hissi möhkəm iradə erkən yaşlarından aşkar olunmuşdur.

Üzeyir bəy Şuşada Xurşud Bani Natavanla görüşmüş şairənin poezisiyası Üzeyirə xüsusi təsir göstərmişdi. O, Şuşada məşhur Qarabağ xanəndəsi Cabbar Qaryağdı oğlunun iştirakı ilə bir səhnəciyə baxmış, bu səhnəcik Məcnun Leylinin qəbri üstə adlanırdı. Məhz Üzeyir bəyin sonralar muğam operası yaratmaq istəyi bu tamaşadan formalaşmışdı. Üzeyir Hacıbəyov 1899 - cu ildə Qori müəllimlər seminaryasına daxil olmuş, 1904 - ci ildə bu seminaryanı bitirmişdir. Sonra Moskva və Peterburqda musiqi təhsili alan Üzeyir bəy professional bəstəkar kimi yetişmişdir. Üzeyir Hacıbəyov həyatı və yaradıcılıq fəaliyyəti üç bir - birindən fərqli ictimai siyasi münasibətləri özündə etiva edən dövrləri əhatə edir, rus çarizmi, Azərbaycan Xalq Cümhuriyyəti və sovetlər dövrü. Dahi bəstəkarımız görkəmli ictimai-siyasi xadim maarifçi filosov olan Üzeyir bəyin bütün fəaliyyəti boyu azərbaycançılıq ideyası xüsusi xəttlə keçir. Üzeyir Hacıbəyovun fəlsəfi baxışlarında türkçülük və azərbaycançılıq eləcədə millik və ümum bəşərilik vəhdət təşkil etmişdir. Xalq Cümhuriyyəti dövründə Üzeyir Hacıbəyov müsavat partiyasının üzvü və ideloqlarından biri olmuş AXC - nin rəsmi orqanı olan "Azərbaycan" qəzetini qardaşı Ceyhun bəylə birlikdə redaktə etmiş sonra qardaşı Ceyhun bəy Paris sülh konfransına getdiyi üçün qəzeti tək redaktə etmişdir. Üzeyir bəy qəzetdə istər çar rusyiyasının istər sovet rusiyasının imperialalist müstəmləkəçi siyasətini kəskin tənqid etmişdi. Bu illərdə Üzeyir bəyin Əhməd Cavadın sözlərinə yazdığı "Çırpınırdı qara dəniz" mahnısı, eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin milli marşını yazmışdır. Sonrakı sovet dövründə bəstəkar öz yaradıcılıq fəaliyyətini

davam etdirmişdir. İlk dövrlərdə Üzeyir bəyi sovet represiyasından Nərman Nərmanov xilas etmiş, 30 - cu illərin represiyası illərində isə Üzeyir bəyin şah əsəri olan "Koroğlu" operasını Stalinin çox bəyənməsi Üzeyir bəyin yaradıcılığı haqqında rəğbətli sözləri böyük bəstəkarı keçmişin və xaricdə olan qardaşının yaratdığı təhlükələrdən qorumuşdu. Qeyd olunan dövrdə Azərbaycan ziyalıların kökünü kəsməyi qarşılarına məqsəd qoymuş, üzü balşevik içi daşnaq müstəntiqlər Üzeyir Hacıbəyovun güllələnməsini həyata keçirəcək sənədlər hazırlamışdılar.

Üzeyir bəy ömürü boyu çox çətin bir həyat sürüb. XX əsrin əvəllərində maddi ehtiyaclar, nadan cızma qaraçıların onun hər əsərinə hücumları, təhqirləri, hətta qəzetlərdə onun karikaturalarının verilməsi Üzeyir bəyə təsir edirdi. Bütün bunlara baxmayaraq Üzeyir bəy öz yaradıcılığını genişləndirir yeni əsərləri ortaya qoyurdu. Üzeyir Hacıbəyov bütün yaradıcılığı boyu yaratdığı əsərlərdə milli ruhu yüksək şəkildə verə bilmiş buda onun əsərlərinin xalq tərəfindən sevilməsinə səbəb olmuşdur. Azərbaycançılıq ideyasınına sadiq olan Üzeyir bəy bütün yaradıcılığında bu ideyanı verə bilmişdi. Üzeyir bəyin "Leyli və Məcnun"dan "Koroğlu" ya qədər keçilən böyük sənəd yolu gərgin yaradıcılıq axtarışları və qiymətli sənəd kəşfləri ilə zəngin bir yoldur. Burada onu qeyd etmək lazımdır ki, ilk Azərbaycan operasının məhz Fuzlinin "Leyli və Məcnun" poeması əsasında yazılması da mənalı faktır. Üzeyir yaradıcılığında "Füzuli" poemasına çox dərin bir məhəbbət hökm sürməkdədir. Bədii dilimizin banisi Füzulinin ədəbiyyatımızda gördüyü vəzifəni, musiqimizdə böyük Üzeyir həyata keçirmişdir. Azərbaycan folklorunun xalq musiqimizi bütün incəliyi ilə araşdıran Üzeyir bəyin apardığı axtarışların nəticəsi olaraq "Azərbaycan Xalq musiqisinin əsaları" əsəri ortaya qoyuldu. Bu əsər Üzeyir Hacıbəyovu qüdrətli nəzəriyyəçi və tədqiqatçı kimi tanıtdı. Bəstəkarın musiqimizin müxtəlif məsələlərinə həsr olunmuş ayrı - ayrı məqalələri, çıxışları bu gün də ən dəyərli mənbə kimi bizim üçün qiymətlidir. Onuda qeyd etmək lazımdır ki, Üzeyir Hacıbəyov bədii yaradıcılığı ilə nəzəri fikirləri arasında ziddiyyət olan sənətkarlardan deyil, onun musiqisi sözünü, sözü də musiqisini tamamlayır.

Üzeyir sənədində diqqəti ən çox cəlb edən cəhət xalq musiqisinə münasibət məsələsidir. Bəstəkarın demək olar ki, elə bir yazısı, çıxışı yoxdur ki, həmin nöqtəyə toxunmamış olsun onun bu məsələyə yetirdiyi çox böyük diqqət təsadüfü deyildir. Üzeyir Hacıbəyov "Azərbaycan xalq musiqisinin əsasları" kitabının 1945 - ci ildəki ilk nəşrinə yazdığı ön sözdə həmin mövzunun necə işlədiyindən danışarkən qeyd edirdi ki, Azərbaycan xalq musiqisinin əsaslarını öyrənmək işinə 1925-ci ildə başlamışam. Seçdiyim bu mövzuya dair bir ədəbiyyat və xüsusi elmi əsər olmadığına görə mən ancaq şəxsi müşahidələrimlə apardığım diqqətli tədqiqatın nəticələrinə və Azərbaycan xalq musiqisinin bütün nümunə və formalarının dərin təhlilinə əsaslanmağa məcbur oldum. Beləliklə bu sətirlər də aydın təsdiq edir ki, ölməz sənətkar xalq musiqimizin elmi əsaslarını işləmək ona layiq olduğu yüksək qiyməti vermək və lazımınca tanıtmaq, sevdirmək üçün nə qədər gərgin tədqiqat işi aparmış və vətəndaşlıq qeyrəti göstərmişdir.

Üzeyir Hacıbəyov musiqi folklorumuzu toplamağın, xalq musiqimizi bütün incəliyi ilə araşdırmağın vacib olduğunu təkrar-təkrar xatırladarkən bu zəngin xəzinədən heç də passiv istifadəni, yerli-yersiz sitatlar gətirməklə istifadəni nəzərdə tutmurdu. Bəstəkarın qəti qənaəti belə idi ki, musiqi folklorundan xalqın arzu və düşüncələrini, həyata, dünyaya baxışını, sənətkarlıq sirlərini öyrənmək və bundan yaradıcılıqla faydalanmaq lazımdır. Əks təqdirdə, bəstəkar xalq musiqisinə heç nə əlavə edə bilməz, onu daha da zənginləşdirmək əvəzinə, ancaq təkrar etməli olar ki, bunun da əsl sənətkarlıqla, əlbəttə, əlaqəsi yoxdur. Xoşbəxtlikdən, böyük Üzeyir bu məsələdə də Azərbaycan musiqisində nümunə

göstərdi. Onun dühasının parlaq məhsulu olan "Koroğlu" yarandı. Üzeyir Hacıbəyov bu barədə yazırdı: "Azərbaycan xalq musiqisinin əsaslarını" öyrənmək sahəsindəki işimin, bir bəstəkar olaraq mənim üçün əməli əhəmiyyəti o oldu ki, mən "Koroğlu"operasını yazdım".

Üzeyir Hacıbəyovun dahiliyi ondadır ki, xalqın qəhrəmanlığını, vətənpərvərliyini, milli qürurunu, azərbaycançılığını musiqi dili ilə ifadə etmişdir. "Koroğlu" operası azərbayçılıq ideyasını daha dərindən təcəsüm etdirmişdir. Üzeyir Hacıbəyov "Koroğlu" operası haqqında belə yazır: "Koroğlu" Azərbaycan dinləyicilərinə Azərbaycan xalq və melodyalarının eyni ilə təkrar edən bəzi əsərlərdən daha yaxşı çatır, çünki "Koroğlu" operası xalqın doğma musiqi dilində yazılmışdır. Mən xalqdan hazır nəğmələr almamışam, yalnız xalq yaradıcılığının əsaslarını öyrənmişəm.

Fikrət Əmirov Üzeyir Hacıbəyovun milli və ümum bəşəri ideyaları vəhdətdə təqdim etməsini qeyd edir: "Böyük müəllimimiz belə hesab edirdi ki xalq ilə onun anladığı dildə danışmaq istedadından məhrum olan hər hansı bəstəkar dövrümüzə layiq, yüksək qiymətli əsərlər yaratmaqda da aciz qalacaqdır". Üzeyir Hacıbəyov belə bir əqidəyə birdən - birə gəlməmişdi. Əvvələn, dediyimiz kimi o, uzun illər boyu xalq musiqimizin yorulmadan toplamış, öyrənmiş, saf-çürük etmiş, mühüm elmi nəticələr çıxarmışdı. İkincisi də, o, təkcə xalq musiqimizi tədqiq etməklə kifayyətlənmirdi, xüsusən, rus və dünya xalqlarının ən görkəmli bəstəkarlarının yaradıcılığını ardıcıl izləyir, müvafiq nəticələrə gəlirdi. Üzeyir Hacıbəyov dünya şöhrəti qazanmış bəstəkarların sənətkarlıq sirlərini, onun böyük müvəffəqiyyətlərinin səbəblərini daim arayıb – axtarıb, dərindən – dərinə öyrənirdi. Yeri düşdükcə, ayrı-ayrı məqalə və çıxışlarında həmin məsələyə toxunmağıda vacib bilirdi.

Dahi bəstəkar Üzeyir Hacıbəyov yaradıcılığına nəzər saldıqda onun fəlsəfi baxışlarında azərbaycançılıq türkçülük ideyaları ilə yanaşı ümum bəşəri ideyaları, multikultural dəyərləri görürük. Üzeyir Hacıbəyov demək olar ki, bütün yaradıcılığı multikultarizmin örnəyi ola bilər. Azərbaycan operasının və şərqdə ilk operanın banisi olan Üzeyir Hacıbəyov "Leyli və Məcnun", "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Harun və Leyla", "Koroğlu" operalarında multikultiralizmin ənənələrinin müxtəlif təzahürlərini görürük. XVI əsrin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin poeması əsasında bəstələnmiş "Leyli və Məcnun" operasının qədim ərəb vilayətinin Azərbaycan musiqi irsində milli ruhda təfsirini əks etdirir, yəni bu rəvayyət ərəb qəbillərinin həyatından bəhs etsədə bu əsərin qəhrəmanları məhz Üzeyir bəyin musiqisi sahəsində gözümüz qarşısında azərbaycanlı kimi canlanır. "Rüstəm və Söhrab" bu kimi xüsusiyyətlərə malikdir bu opera X əsri fars şairi Firdovsinin "Şahnamə" əsərini motivlərinə əsaslanır bu muğam operasında bəstəkar milli musiqi vasitəsilə qəhrəmanların daxili aləmini xarakterizə etmişdir. Üzeyir Hacıbəyov "Şeyx Sənan", "Əsli və Kərəm" operaları başqa bir tərəfdən diqqəti cəlb edir bu əsərlərin məzmununda müxtəlif dinlərə və milətlərə mənsub qəhrəmanların bir-birinə səmimi qəlblə sevgisindən və faciyyəsindən danışılır. "Şeyx Sənanda" ərəb şeyxiylə gürcü qızının, "Əsli və Kərəmdə" azərbaycanlı şahzadə ilə erməni qızının faciəli məhhəbət hekayəsi əsasında bəstəkar çox təsirli əsər yaratmışdır. Lakin bu operaların talehi müxtəlif olmuşdur. "Şeyx Sənan" operası bir dəfə səhnəyə qoyulmuşdur. Uğursuz tamaşadan sonra bəstəkar əsərin əl yazmalarını məhv etmişdir. "Əsli və Kərəm" operası isə xalq arasında çox rəğbət qazanmışdır. Operanın süjet xətti iki gəncin azərbaycalı Kərəmin və erməni Əslinin məhəbbəti, Qara keşişin onların məhəbbətinə mane olması, onların qovuşa bilməyərək od tutub yanması üzərində qurulmuşdur. Əsərin faciəvi sonluğu Azərbaycan cəmiyyətində çox həssas qarşılanmışdır. Bu əsər Üzeyir Hacıbəyovun cəmiyyətdə baş verən faciəvi hadisələrə dini və milli zəmində qarşıdurmalara,

xalqlar arasındakı nifrət hisslərinə qarşı ehtirazı idi. Qeyd etmək lazımdır ki, bu məsələ bu gündə aktualdı və insanları həyacanlandırır. "Koroğlu" operasında Üzeyir Hacıbəyov xalq qəhrəmanı Koroğlunun obrazını yaradarkən onun Qafqaz xalqları arasında məhşur olmasını, onlara köməyini və xalqı zülümkarlardan xilas etməsini təsvir etmişdir. Çənlibel səhnəsində Koroğlunun təkcə azərbaycanlılar üçün deyil, digər millətlərin nümayəndələri üçündə xilaskar timsalında olması Koroğlunun adını tutub uzaq ellərdən gələn insanların ruh yüksəkliyi ilə qarşılanması və onun xalq işinə inamı öz əksini tapmışdır. Buradada multikulturalizm ənənələri özünü göstərir. Azərbaycanlıların digər xalqlarla əmin-amanlıq şəraitində yaşamağa çalışması onlara köməklik göstərməsi demək olar ki, milli mənəvi irsimizdə tərənüm olunmuşdur.

Ümummilli Lider Heydər Əliyev Üzeyir Hacıbəyli yaradıcılığına yüksək qiymət vermişdir. Ulu Öndərin göstərişi ilə 1975–ci il noyabırın 20-də Üzeyir Hacıbəyovun ev muzeyi açıldı, bu azərbaycanda ilk ev muzeyi oldu, ev muzeyinin açılışında Heydər Əliyev özü iştirak edərək nitq söyləmişdir onun nitqi Azərbaycan musiqi mədəniyyətinə sevgi və qayğının təzahürü idi. Ulu Öndər hesab edirdi ki, belə ev muzeyləri incəsənət xadimlərinin yaradıcılığını təbliğ edir, böyük tərbiyə və mədəniyyət ocağıdırlar. Ev muzeyləri həm də daha geniş məna daşıyaraq gələnlərdə xüsusən məktəblilərdə özünə inam, milli kökə bağlılıq, milli hisslər və müstəqilik düşüncələrini oyadır. Heydər Əliyev Üzeyir Hacıbəyovun əsərlərini Azərbaycan xalqının istiqlal fikrinin inkişafında, milli kimliyinin dərk edilməsində oynadığı rolu yüksək dəyərləndirir və belə hesab edirdi ki, onun yaradıcılığı milli musiqi mədəniyyətində yeni bir dönəmin başlanğıcını qoyduğu üçün önəmlidir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Multikulturalizmə giriş. Bakı, 2008. 432 səh.
2. Ü. Hacıbəyov Ensiklopediyası. Bakı, 2007. 264 səh.

## ŞUŞANIN TARİXİ, DİNİ ABİDƏLƏRİ

***Əlizadə Nəcəfov***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası"kafedrasının baş müəllimi***
***elizade.necefov@bk.ru***

Hörmətli konfrans iştirakçıları!

Bildiyiniz kimi Nazirlər Kabinetini "Şüşa ili " ilə bağlı 25 fevral 2022-ci il 124 S saylı Tədbirlər planı vardır və bu günkü tədbirimiz də həmin sərəncamıa tam uyğundur. Bü gün həm də ümumdünya muzeylər günüdür. Bu cəhətdən də Şuşanın tarixi dini abidələrindən danışmaq yerinə düşür.

Bütün Qafqazın gözəl guşələrindən biri olan Şuşa qalası müdafiə məqsədilə tikilmiş qala-şəhər olmuşdur.

**Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.**

**Ümummilli Lider Heydər Əliyev**

**Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

Tarixə nəzər salsaq qeyd etmək lazımdır ki, Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir.

XVIII əsrin ikinci yarısından başlayaraq şəhərin əhalisi sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdi. Hələ Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da gücləndi. Xanlığın ərazisində Əskəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və s. diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdi. Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdi.

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. XVIII əsrin 80-ci illərində şəhərin dövrəsinə möhtəşəm qala divarları çəkilib başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Şuşalı tacirlər Təbriz, Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdı. Şəhərdə "Pənahabadi" adlı gümüş sikkələr zərb edilirdi.

Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. "Rastabazar"ın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət olan və qalereyanı xatırladan səkiləri başdan-başa örtülü olduğundan bütün fəsillərdə quru və təmiz qalırdı. Küçənin ortası ilə nəqliyyat vasitələri hərəkət edirdi.

XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı ki, bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı. Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud idi.

Təkcə XIX əsrdə Şuşada iki poetik məclis, xarrat Qulunun musiqi məktəbi, 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. 6 mədrəsəsi olmuşdur.

M.M. Nəvvabın litoqrafiya daş basması və mətbəəsi olmuşdur. XIX əsrin 30 – cu illərində bu mətbədə çoxlu kitablar nəşr olunmuşdur. M.M. Xəzaninin " Şəriətül –İslam" kitabı çap olunmuşdur.

Ümummilli Liderin M.P.Vaqifin məqbərəsinin açılışında (14.01.1982)-söylədiyi nitq, onun Dağlıq Qarabağa qayğısının göstəricisi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada "Poeziya evi"ni açaraq, Vaqif poeziya günlərində iştirak etdi. Bununla yanaşı, ulu öndər Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Ümummilli Liderin, eyni zamanda, Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Ulu Öndər erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi. Ümummilli Liderin həmin gün Şuşada şəhər ictimaiyyəti ilə keçirilən görüşləri hər bir şuşalının yaddaşında unudulmaz iz qoymuş və bu gün də xatirələrdə yaşayır.

1982-ci il iyulun 29-dan - avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə Şuşa şəhərinin və Dağlıq Qarabağın azərbaycanlılar yaşayan digər məntəqələrinin siması xeyli dəyişdi. Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitut açıldı və orada Azərbaycan bölməsi yaradıldı. Bu, azərbaycanlı ziyalıların daimi iş yeri ilə təmin olunmasına, Qarabağda yeni elmi-mədəni mühitin formalaşmasına, azərbaycanlı əhalinin ali təhsil almasına və doğma yerlərə daha sıx bağlanmasına əlverişli şərait yaratmışdı.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P. Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, Hüseyin Mirsiyab oğlunun İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B. Haqverdiyevin, Q.B. Zakirin, M.M. Nəvvabın, S.S. Axundovun, N.B. Vəzirovun, Y.V. Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilmişdir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir:

"İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

Yuxarı Gövhərağa məscidi - "Kitabi-tarixi Qarabağ" əsərinin müəllifi Mir Mehdi Xəzaninin yazdığına görə, hicri tarixi ilə 1182-ci ildə (miladi ilə 1768-1769-cu il) Qarabağ hakimi İbrahimxəlil xan tərəfindən bina edilən məscid hicri 1281-ci ilində (miladın 1866-1867-ci illərində) mükəmməl

şəkildə təmir olunmuşdur. Daxili sahəsi 558 kv. metrdir. Təxminən 30 metr hündürlüyündə qoşa minarəsi var.

Baharlının "Qarabağnamə"sində deyilir ki, Şuşanın baş meydanında 1759-cu ildə Pənahəli xan tərəfindən qamışdan iki qapılı məscid tikilmiş, 1768-ci ildə isə onun yerində mərhum xanın oğlu İbrahimxəlil xan tərəfindən daha möhtəşəm məscid ucaldılmışdır. Təxminən 100 ildən sonra elə bu yerdə onun qızı Gövhər Ağanın tapşırığı və vəsaiti ilə memar Kərbəlayi Səfixan Qarabağı tərəfindən daha bir məscid inşa edilmişdir. Buna qədər mövcud olmuş Cümə məscidi binasının görünüşü ilə o zaman Qafqaza səyahət edən rus rəssamı Vasili Vereşaqının çəkdiyi şəkildən tanış ola bilərik. Rəssamın çəkdiyi şəkildəki məscid binası əzəmətlidir. Onun giriş hissəsi Səfəvi memarlığına xas olaraq həddən artıq böyük baştağdan qurulmuşdur. Baştağın üzərində dam ürtüyü Avropa memarlığına məxsus ampir şəklində işlənmişdir. Bu məscid binasının yerində tikilən Yuxarı Gövhər Ağa məscidinin fasadı isə üç eyniölçülü tağla irəli çəkilərək binanın şimal, yəni ön hissəsi boyunca uzanan eyvan şəklində həll olunmuşdur. Yeni binada Qurani-Kərimdən ayələr, məscidin inşa tarixi və Gövhər Ağanın vəsiyyətnamələrini əks etdirən çoxlu daş kitabələrə rast gəlmək olar. Binanın ikinci mərtəbəsi və minarələrdəki ornament, eləcə də kitabələr məşhur Azərbaycan şairi və nəqqaşı Mir Möhsün Nəvvab tərəfindən işlənmişdir.

Səxavəti və xeyriyyəçiliyi ilə ad çıxaran xan qızı Gövhər Ağa məscidin bir hücrəsini mədrəsə etmiş, burada ibadətə gələn və ehtiyacı olanlara həftədə bir dəfə yardım, məsciddə Quran oxuyan və azan verən müəzzinlərə məvacib ayırmışdı. Gövhər Ağa vəfat edəndən sonra məscid həyatində dəfn edilmiş, az sonra isə nəşi Məkkəyə aparılaraq orada torpağa tapşırılmışdır.

Gövhər ağa öz vəqfnaməsində vəqfləri idarə üçün altı mütəvəlli göstərir. Bunlardan üçü vəqfin gəlirini toplayan, biri toplanmış gəlirləri təhvil alan, biri də gəlir toplayan mütəvəllilərə nəzarət edən, onlara məsləhət verən, bütün vəqflərin mühafizəsinə çalışan mütəvəllidir. Bu beş mütəvəllinin üstündə göz olan bir baş mütəvəlli də vardır ki, bütün işlər bunun göstərişi və məsləhəti ilə aparılırdı. Bu mütəvəllilərin vəzifələrilə yanaşı vəqfdən onlara çatacaq maaş aşağıdakı kimi müəyyənləşdirilmişdir.

Birinci mütəvəlli vəzifəsinə hər il yüz əlli manat pul, bir cüt əkin yeri, bir bel də çəltik yeri maaş almaq şərtilə Mirzə Məhəmmədqulu təbib təyin olunur. Vəqf gəlirinin düzgün xərclənməsi, toplanan cinsi mədaxilin satılması, pulların mühafizəsi, məscidlərin, mədrəsələrin yaxşı saxlanması, vaxtında təmiri, mütəvəllilərə nəzarət və rəhbərlik onun, birinci mütəvəllinin vəzifəsidir. Baş mühasibat da bunun əlindədir.

Vəqfnamədə ikinci mütəvəllilik Nəcəfqulu bəyə tapşırılır. Onun vəzifəsi vəqf əmlakından toplanan bütün cinsi və nəqdi mədaxili təhvil alıb saxlamaqdır. Bütün görəcəyi işlərdə birinci mütəvəlli Mirzə Məhəmmədqulu ilə məsləhətləşməlidir. İldə yüz manat pul, Daruqalu əkininin 1/10-ni, Daruqaludan bir cüt əkin yeri və Maqsudludan bir bel çəltik yeri onun zəhmət haqqını təşkil edir.

Üçüncü mütəvəlli Məhəmməd bəydir. İllik maaşı Maqsudlu əkinlərinin 1/10-dən, Maqsudluda iki cüt əkin yerindən, bir bel də çəltik yerindən ibarətdir. Bu mütəvəlliyə vəzifə olaraq Maqsudlu qəryəsi (kəndi) də əlavə olaraq bütün vəqflərin mühafizəsi tapşırılır.

Dördüncü Əhmədbəylidir ki, Evoğlu kəndinin mütəvəllisi təyin olunur. İllik maaş olaraq ona vəqfdən Maqsudluya bir bel çəltik yeri, Evoğlu kəndinin əkininin 1/10 hissəsi verilir.

Beşinci mütəvəlli Hüseyn bəydir ki, Qaradağlı kəndinin gəlirini idarə etmək ona tapşırılmış, zəhmət haqqı olaraq Hüseyn bəyə Qaradağlı əkinlərinin 1/10-i, Qaradağlıda bir cüt əkin və bir bel də çəltik yeri təyin edilmişdir.

Axırıncı mütəvəlli axund Molla Hüseynəli vaizdir ki, hər üç amil mütəvəllinin işlərinə nəzarət və bütün vəqf işlərinə rəhbərlik etmək ona tapşırılmış, maaş olaraq ona hər il 20 manat pul, 6 çuval buğda və bir çuval düyü verilirmiş.

Vəqfnamədə bu altı mütəvəllidən əlavə Təbrizli Mirzə Əlinin də adı qeyd olunur və göstərilir ki, müdərris Mirzə Əli məscidlər yanındakı mədrəsələrdə tələbələrə dərs verməkdən başqa, mütəvəllilər arasındakı mühasibat işlərinə nəzər yetirməli, onlara məsləhət verməli, məscid və mədrəsələrin işini yaxşılaşdırmalıdır. Bu zəhmətin müqabilində müdərris hər il vəqfdən 10 çuval buğda, bir çuval da düyü almışdır. Vəqfnamədə mütəvəllilərin vəzifəsi və maaşı təyin edildikdən sonra vəqfdən gələn mədaxilin xərclənəcəyi maddələr bir-bir qeyd olunur. Ümumi gəlirin 1/3 hissəsi inanılmış bir adama tapşırılır ki, bu vəsaitlə alver edib onun miqdarını artırsın, məscidlərin cari və əsas təmirini bununla təmin etsin.

Gəlirin yerdə qalan 2/3 hissəsi isə aşağıda göstərilən maddələr üzrə xərclənməsi nəzərdə tutulmuş və 1920-ci ilə qədər əsasən icra olunmuşdur: Məscidlərin və mədrəsələrin cari təmiri, məscidlərin və mədrəsələrin işıq pulu, məscidlərin və mədrəsələrin qızdırılması üçün kömür pulu, məscidlərdə azan oxuyan iki azançının məvacibi, iki məscid xidmətçisinin məvacibi, mədrəsələrdə dini elmlərdən dərs verən 2 müdərrisin məvacibi, vəqfi idarə edən mütəvəllilərin maaşı, məhərrəm ayının birinci 10 günlüyündə təziyə xərci, üç əhya gecələrində 70 nəfər dindara iftar vermək, əhya tutanların üç gecəlik obaşdan yeməyi xərci, 20 nəfər Quran oxuyanların müzdü və iftar xərci, Ramazanda və aşurada fəqirlərə pul və yemək vermək, Məhərrəmin 7 və 9-unda hər iki məsciddə şərbət paylamaq, hər Qurban bayramı 10 qoyun kəsib vəqflərə paylamaq, Qədr gecəsi və günü cilov və plov bişirib fəqirlərə paylamaq, hər fitrə bayramında xurma alıb məscidlərin həyətlərində paylamaq, Ramazanın 15-də məscidlərin həyətində plov və cilov bişirib paylamaq, məscidlərdən birinin həyətində xəstəxana açmaq, ora xidmətçi təyin etmək, xəstəxana təbibinin məvacibi, xəstəxanada ölənlərin kəfən və basdırılma xərci, bunlardan artıq qalan pulu bir doğru adama tapşırmaq ki, məscidlər, mədrəsələr və kitabxanalar üçün xərclənsin.

Gövhər ağa vəqfnaməsində göstərilən mülklərin, istər əkin yerləri, istərsə də dükanlar olsun, hərəsinin ildə nə qədər mədaxilə malik olduğu bizə dəqiq bəlli deyildir. Bu malikanələrdən Maqsudlunun 2398, Evoğlunun 996, Qaradağlının 61 desyatin yerə malik olduğu bəllidir. Bu göstərilən rəqəmlər həmin yerlərin, 1920-ci il Azərbaycanda Sovet Hakimiyyəti quruluşu ərəfəsində vəqfin malik olduğu sahələrdir. Müəllif haqlı olaraq qeyd edir ki, Vəqf əmlakının mütəvəllilər və icarədarlar tərəfindən amansızcasına mənimsənildiyini nəzərə alsaq bu malikanələrin əvvəl də çox böyük olduğuna şübhə edilməz. Haqqında danışdığımız Gövhəriyyə vəqfi əmlakının və gəlirinin mütəvəlli və icarədarlar tərəfindən talan edilməsi ətrafında inqilabdan əvvəlki mətbuatımızda açılan mübahisə bizim bu fikirimizi qüvvətləndirir.

Bu mübahisələrə cavab olaraq Gövhəriyyə vəqfinə aid çap olunmuş hesabat ancaq XX əsrin əvvəllərində bu vəqfin gəliri haqqında bizə azca məlumat verir.

Bu hesabatda 1899-cu ildən 1906-cı ilədək Gövhəriyyə vəqf malikanələrinin gəliri 43882 manat, məxarici isə 32976 manat göstərilir. Bundan məlum olur ki, bu xərclərdən başqa bu müddət ərzində

vəqfin 10856 manat da nəqd pulu qalmışdır. Yenə həmin hesabatdan anlaşıldığına görə vəqfin 1899-cu ildə Gövhəriyyə vəqflərinin bankda 26856 manat nəqd pulu olmuşdur. Hesabatda vəqfin mədaxili və məxarici ayrı-ayrı maddələr üzrə deyil, ümumi göstərildiyindən biz bunların təfərruatı haqqında bir fikir söyləyə bilmirik. Qeyd olunacaq bir nöqtə varsa, o da mütəvəllilər və icarədarların xəyanəti üzündən talan olunmasına baxmayaraq, Gövhəriyyə vəqfləri pulunun get-gedə artmasıdır.

Gövhər ağa zamanında bu vəqf malikanələrinin necə idarə olunduğu haqqında müəyyən məlumat olmasa da, 1899-cu ildən sonrakı illərdə bu mülk və malikanələrin icarə verildiyini biz mətbuatda gedən mübahisələrdən anlayırıq.

Bu vəqfnamədə diqqətəlayiq olan birinci cəhət Gövhər ağa tərəfindən təyin olunan mütəvəllilərindən dördü öz ictimai vəziyyətinə görə bəy, üçü isə ruhani silkindəndir. İkinci səciyyəvi cəhət, vəqfə verilən kəndlərdəki bəzi mülklərin ümumi kənd yerlərindən xüsusi təliqələr əsasında ayrılması və hüquqlarının müdafiə edilməsidir. Bu xüsusi mülklərin sahibləri demək olar ki, tamamilə vəqfi idarə edən mütəvəllilərdir. Gövhər ağa tərəfindən verilən təliqədə bu yerlərin mütəvəllilərin xüsusi malı olduğu qeyd olunur.

Vəqfin ixtiyarına verilən Maqsudlu kəndi 2398 desyatin sahəyə malik olub, 39 evdən ibarət imiş.

Gövhər ağa təliqəsinə görə vəqf ixtiyarına girməyə səkkiz xüsusi mülkdən yeddisi Maqsudlu kəndindədir. Ona görə biz 39 evdən yeddisini hesabdan çıxarsaq, 32 rəiyyət evi qalır ki, bunlar da əkin yerilə bərabər öz əllərində olan bütün təsərrüfatları və əkinçilik alətləri ilə vəqfin ixtiyarına keçir.

Keçmişdə Gövhər ağanın ixtiyarında olan bu 32 evlik kəndin rəiyyəti indi vəqfi idarə edən ruhani mülkədarlar tərəfindən bilavasitə və yaxud icarədar vasitəsi ilə istismar olunur.

Bu kənddəki əkinçilər əvvəldə Gövhər ağa nəfinə verdikləri izafi məhsulu vəqf idarəsinə verməklə onların vəziyyəti heç bir növlə yaxşılaşmır, bəlkə daha da ağırlaşır. Əgər Gövhər ağanın vergi toplayan amilləri vergiləri toplayarkən qeyri-iqtisadi zora, məcburiyyətə müraciət edirdilərsə, vəqf idarəsində olan zəhmətkeş kəndlilər din təsiri altında Allah qorxusu qarşısında izafi məhsullarını "öz razılığı" ilə tufeylilərə, ruhanilərə və feodallara təslim edilirdi.

Maqsudlu kəndindəki rəiyyətin (kəndlilərin) müqəddəratı bilavasitə mütəvəllilik vəzifəsini daşıyan Məhəmmədbəyə tapşırılır. Məzkur bəy Maqsudlu kəndinin bütün gəlirini toplamaq və hesabatını aparmaq haqqına malikdir.

Bu vergilər yalnız pul deyil, cins olaraq da topladığı üçün bunları bazarda satıb nəqd pula cevirmək də mütəvəllini vəzifəsi idi.

Bu vəqfnamədə kəndlilərdən alınan vergilərin növləri və miqdarı göstərilməsə də, biz vəqf rəiyyətlərinin də mülkədar yerlərindəki kəndlilər kimi vəqf idarəsinə və yaxud icarədara müəyyən vergi verib, mükəlləfiyyət daşıdığını bilirik.

Vəqf təsərrüfatına daxil olan malikanələr hökümət vergilərindən azad olsalar da, istifadə etdikləri vəqf torpaqlarının rentasını artıqlaması ilə vəqf idarəsinə verməyə məcbur idi.

Vəqf institutunun hökümət tərəfindən himayəsi, vergilərdən azad edilməsi səbəblərini təhlil edəcək olsaq, dini pərdəyə bürünən bu müəssisənin ictimai vəzifəsini aydın görə bilərik.

Məşhur "Qarabağnamə" müəlliflərindən biri olan Həsən İxfa Əlizadə "Şuşa şəhərinin tarixi" adlı əsərində Gövhər ağa tərəfindən tikilmiş və onun adını daşıyan yuxarı və aşağı məscidlərin vəqfi və bu məscidlərin kitabələrindəki yazıları öz əsərində aşağıdakı kimi təsvir etmişdir. Həmin hissəni olduğu kimi veririk. Ona görə ki, bu kitabələri oxuduqda məlum olur ki, burada vəqfin əsasnaməsi məqsədi və

məramı, nizamnaməsi aydın yazılmış, insanlar təqvalı olmağa, ədalətli və təmiz adla yaşamağa dəvət olunmuş, vəqfdən gələn vəsaitlərin təyinatı üzrə xərclənməsi qanuna uyğun şəkildə tövsiyyə olunur. Bunu da qeyd etmək lazımdır ki, sonralar Şuşada və Qarabağın ayrı-ayrı şəhərlərində 20-dən çox vəqf mülkləri olmuşdur ki, onların da hamısı Gövhər ağa məscidlərinin vəqf qaydalarını (nizamnaməsini) daş kitabələrdə cüzi fərqlərlə, həmin vəqf mülklərinin daş kitabələrində vermişdilər.

Həsən İxfa Əlizadənin adı çəkilən əsərində həmin vəqf mülklərindən biri haqqında, daha doğrusu məşədi Hüseyin Mirsiyab oğlunun karvansara kompleksində tikdirdiyi məscidin salonunun bayır fasadında gözəl və aydın xətlə daşa həkk etmişdir. Onun da Azərbaycanda vəqf institutunun öyrənilməsində əhəmiyyətini nəzərə alaraq olduğu kimi burada verməyi məqsədə uyğun hesab etdik. Həsən İxfa Əlizadə yazır:

"Şuşa şəhəri zəngin memarlıq abidələri şəhəridir. Bunların bir çoxu tarix keçdikcə uçub dağılmışdır, bir hissəsi isə bizim dövrümüzə qədər gəlib çatmışdır. Bu abidələrdən iki məscid, divanxana, böyük karvansara daha yaxşı vəziyyətdə qalmışdır. Cümə məscidi adı ilə məşhur olan bu bina meydanın qarşısında tikilmişdir. Əhali çox vaxt həmin binaya yuxarı məscid deyir. Bu bina hicri 1182-ci (1768) ildə İbrahim xan tərəfindən tikilmişdir.

Hicri 1282-ci (miladi 1866) ildə İbrahim xanın qızı həmin məscidi əsaslı şəkildə təmir etmişdir. Bunu məscidin girəcəyindəki qapının üstündəki kitabələr əks etdirir. Bu kitabələr həmin məscidin vəqf hesabına işlənməsi və təmir olunmasını göstərir. Məsciddəki kitabələr fars dilində, aydın nəstəliq xətlə daşa həkk olunan sənət əsərləridir. Eyni zamanda, kitabələr vəqf məqsədi daşıyan hər iki məscidin gəlirinin nəyə sərf olunduğunu bildirir.

Yuxarı məscidin meydandakı kitabəsinin tərcüməsi belədir:

"Ürəkləri bilən odur" (o Allahdır). Şuşa qalasında olan iki Gövhəriyyə mədrəsəsi və iki məscidin vəqfləri aşağıdakılardır: Aşağı məscidin cənub tərəfində bir qatardan ibarət bütün on bir ədəd dükanlardır ki, bir tərəfdən məscidin həyətinə bitişir və digər tərəfdən qala meydanına qədər uzanır. Cavanşir mahalından Maqsudlu kəndinin aşağı tərəfindəki qərbdən hüdudu quzey kəndləri, şərqdən Gəlinxanımlıya və Quzanlıya, bir tərəfdən Küdri yüzbaşılıya və oradan da Ağ Kəhrizin yuxarısından otaqçı damına çatır. Və oradan da yeddi gəzə qədər və cənubdan Şahbulaq və Göytəpə sərhəddinə və Gəlinxanımlıya doğru üzüaşağı şimaldan Xaçın çayına kimi, Quzey kəndlərindən Tösu bağının yuxarısında olan Yolçu bağına kimi və Küdri yerindən-dəstəmaz suyuna və Elçi şıxlara kimi çıxır.

Cavanşir mahalından Qaradağlı kəndinin bütün altındakı hüdudu, şərqdən Tələk çayına, qərbdən Seysulan çayına və cənubdan Seysulan xəndəyinin ortasına qədər və oradan üzüaşağı Səngi köbər və İldırım uçan, şimaldan Səhləbada gedən yolla və Daşlı keçiddən üzüaşağı Şıxbaba çinarına kimi və nəhayət, Tələk çayına qədər uzanır. Kəbirli mahalından Evoğlu kəndinin bütün aşağı hissəsinin hüdudu: Şərqdən Saqqız ağacı pirinə, Qərbdən hacı Lazımın dəyirmanının başından üzüaşağı Oğulboynu çayına kimi və oradan Lələ bağına və oradan Qarqarlı boyu çayına kimi və oradan Gürşənaha ağacına, oradan Kürə və Saqqız ağacı pirinə kimi və şimaldan yuxarısı hacı Lazımın dəyirmanına və üzüaşağı Ərəs xanın əkdiyi yerə qədər və oradan bağ ağzına və oradan Evoğlu qışlağına qədər və oradan Evoğlu əkin yerinə qədər gəlir və oradan Kürə və oradan Yastı yola və oradan Saqqız ağacına qədərdir. Və Daruqəli torpağının bütün mülk və bağları. Məhduddur şərqdən Xıdırlı çayı ilə, qərbdən Qarağacı qəbiristanından Damlı təpəyə gedən ümumi yol ilə, cənubdan Kərim ağanın bağı ilə, şimalda Daşlı təpədən üzü aşağı qeyd olunan çaya qədər, şərqdən Mirzalıbəy və

şimaldan Məşədi Aşurun bağı ilə qərbdən dəllək oğlu Məhərrəmin və Allahqulu oğlu İmamqulunun bağı ilə, cənubdan böyük yol ilə, şimaldan Süleyman xan oğlu Həsən ağanın bağı ilə məhdud olan Telli kəndindəki bir parça meyvə və üzüm bağı bütünlüklə məscidin vəqfinə daxildir.

İki məscid mövqüfatının qalan hissəsi vəqfnamənin əslində və onun kitabçalarında ətraflı sürətdə şərtlərlə yazılmışdır ki, vilayətin mömünləri və müvəkkilləri onların (şərtlərinin) yerinə yetirilməsinə əməl etsinlər.

Cənnət məkanlı xanlar xanı xoşbəxt İbrahim Xəlil xan Cavanşirin qızı həzrəti Zəhranın möhtac kənizi, misilsiz xanım, böyük əsilli və uca nəcəbli, səadətli və şərafətli və həqiqət ədalı yüksəklik və böyüklüyün xəzinəsinin yeganə gövhəri həzrəti Məryəm xasiyyətli, əsrin Bilqeysi sərkar cənabi-Gövhər ağa bütün mömünlərdən, xüsusilə Şuşa şəhərindəki qeyd olunmuş mömünlərdən dua tələb edir. Hər kim qeyd olunan mövqüfata zülm əlini uzatsa, Allahın və Allahın övliyalarının əbədi lənətinə tutulsun.

"Allahın lənəti olsun zalim tayfaya..." Bu fikir çox maraqlıdır, görəsən bu yazının müəllifi və ya onu yazdıran zalım tayfa dedikdə kimləri nəzərdə tutmuşdur.? Qaynaqlardan məlum olur ki, bu fikirlər şəxsən Gövhər ağanın özünə mənsub olub şəhərdə yaşayan və xristianlıq təəssüfkeşliyi nümayiş etdirən rus və ermənilərə aiddir. Tarix Gövhər ağanın bu məsələdə nə qədər haqlı olduğunu təkcə XX əsrdə üç dəfə sübut etdi (1905-1906, 1918-1920, 1988-1994).

Saatlı Məscidi –Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Şuşa şəhərinin tarixini tədqiq edən Çingiz Qacarın yazdığına görə, Saatlı məscidinin yerində 1759-cu ildə Pənahəli xanın tikdirdiyi məscid və mədrəsə olmuş, məhz bu mədrəsədə böyük Azərbaycan şairi Molla Pənah Vaqif dərs demişdir.

Məscid Şuşanın Saatlı məhəlləsində tikildiyi üçün belə adlanır. Saatlı məhəllə məscidi olsa da, şəhərin digər məhəllə məscidlərindən həm həcmi, həm memarlıq quruluşu, həm də dekorativ tərtibatı ilə seçilirdi. Tədqiqatçı Rizvan Qarabağının yazdığına görə, bura Kərbəlayi Səfixan Qarabağının tikdiyi son minarəli məscid olmuşdur. Sonrakı illərdə bu gözəl sənətkarın tikdiyi məscidlərdə uca minarələr olmamış, onları damın üstündə güldəstə formalı kiçik şərəfələr əvəz etmişdir. Amma memarlıq üslubundakı belə kəskin dəyişikliyin nə ilə bağlı olması heç yerdə izah olunmur. Fasad yalnız divar və assimmetrik düzülüşə malik qapı və pəncərələrdən ibarətdir.

Saatlı məscidinin interyer həlli bədii kamillik nümunəsi hesab oluna bilər. Tavana dayaq olan dörd səkkizbucaqlı daş sütunlara minnətdar olaraq ibadət zalı üçnefli məkana malikdir. Bunun nəticəsində zalda sanki sonsuz sayda tağ keçidlər yaranır. Divarların səthi həndəsi fiqurlar və nəbati naxışlarla tərtib olunmuşdur. Tək minarə binanın arxa tərəfində yerləşdirilmişdir. Belə ehtimal edilir ki, minarə məscidlə eyni vaxtda deyil, sonrakı illərdə ucaldılmışdır.

İstedadlı memarın tikdiyi bütün binaların divarında bir söz yazılmışdır: "Qarabağdan olan Kərbəlayi Səfixan tərəfindən tikildi". Əlbəttə, bu daş imzalar sonrakı dövrlər üçün sənəd kimi böyük əhəmiyyət daşıyır. Lakin bunsuz da memarın yaratdığı əsərlərə, məscidlərə, hətta, uzaqdan baxanda belə, onun kim tərəfindən tikildiyi məlum olur – memar Qarabaği.

TARİXİ-DİNİ ABİDƏLƏR

1. Hacı Yusifli məscidi (XVIII) – Q. İsmayılov küçəsi (İNV №5089)
2. "Çöl Qala" məscidi (XVIII) – Keçmiş Kuybıışev küçəsi (İNV №5103)
3. Xoca Mərcanlı məscidi (XVIII) – Sabir küçəsi (İNV №5137)

4. Quyuluq məscidi (XVIII) – Keçmiş Şaumyan küçəsi (İNV №5146)
5. Seyidli məscidi (XVIII) – Keçmiş Telman küçəsi (İNV №5151)
6. Məscid (XVIII) – Keçmiş Əmiryan küçəsi, Çuxurlu məhəlləsi (İNV №5068)
7. Mərdinli məscidi (XIX) – A. Qaraşərov küçəsi (İNV №5077)
8. Mamay məscidi (XIX) – Q. Əsgərov küçəsi (İNV №5166)
9. Köçərli məscidi (XIX) – Keçmiş Sovet küçəsi (İNV №5145)
10. Malıbəyli məscidi (XIX) – Malıbəyli kəndi (İNV №5056)
11. Alban kilsəsi (XIX) – Qeybalı kəndi (İNV №5059)
12. Alban kilsəsi (XIX) – Daşaltı kəndi (İNV №5057)
13. Kilsə qalıqları – Q. Pirimov küçəsi (İNV №5041)
14. Qız monastırı (XVIII-XIX) – Şuşa şəhəri, keçmiş Qorki küçəsi.
15. Qazançı kilsəsi (XIX) – Haqverdiyev küçəsi (İNV №358)
16. Qaybalı məscidi (XIX) –
17. Şirlan məscidi (XIX) –
18. Yuxarı məscid mədrəsəsi (XVIII) – Vəzirov (İNV №360)
19. Mədrəsə (XVIII) – Keçmiş Krupskaya küçəsi (İNV №369)

ZİYARƏTGAHLAR

1. Türbə - Şuşa şəhəri (İNV №5042)
2. Heydər türbəsi – Şuşa şəhəri (İNV №340)
3. Həzrət Əli kahası (Nəzir kahası)
4. Həzrət Abbas şəfa ocağı
5. Saqqaxana və Pirgah pirləri
6. Seyid Mirfəsih türbəsi
7. Ağadədəli məhəlləsində Mir Mehdi ağanın ocağı
8. Çuxur məhəlləsində iki minarəli şəfa ocağı
9. Qasım ağanın ocağı
10. Seyidli məhəlləsində Seyid Xəlil Seyid Əli oğlunun ocağı

TARİXİ MEMARLIQ ABİDƏLƏRİ

1. Kurqan (tunc dövrü) – Şuşa şəhərinin şimal-qərbində
2. Şuşa və Şuşakənd daş qutusu qəbirləri (son tunc və ilk dəmir dövrü) – Şuşa şəhəri və Şuşa kəndinin yaxınlığında (İNV №1771)
3. Daş qutusu nekropolu (dəmir dövrü) – Qarabulaq kəndi (İNV №1773)
4. Nekropol (son tunc və ilk dəmir dövrü) – Dolanlar kəndi (İNV №1774)
5. Qala divarı (uzunluğu 8 kilometr, 1754-cü il) – Şuşa şəhəri (İNV №337)
6. Pənah xanın sarayı (XVIII) – Şuşa şəhəri(İNV №338)
7. Qara Böyük Xanım bürcü (XVIII) – Şuşa şəhəri (İNV №339)
8. Hacıqulların malikanəsi (XVIII) – Şuşa şəhəri (İNV №341)
9. Natəvanın evi (XVIII) – Şuşa şəhəri, keçmiş Lenin küçəsi (İNV №342)
10. Əsəd bəyin evi (XVIII) – Şuşa şəhəri, keçmiş Voroşilov küçəsi (İNV №343)
11. İkimərtəbəli karvansara (XIX) – Şuşa şəhəri, mərkəzi meydan (İNV №346)

12. Mehmandarovların malikanə kompleksi: məscid, kiçik yaşayış evi, böyük yaşayış evi (XVIII) – Şuşa şəhəri (İNV №347)
13. İbrahim xanın bürcü (XVIII) – Şuşa şəhəri (İNV №348)
14. İsa bulağı (XIX) – Şuşa şəhərinin yaxınlığında (İNV №349)
15. İbrahim xanın qəsri (XVIII) – Daşaltı kəndi (İNV №350)
16. M.P. Vaqifin məqbərəsi (XX) – Q.Quliyev küçəsi (İNV №350)

**İstifadə olunmuş ədəbiyyat:**


1. https://sia.az › news › culture
2. https://science.gov.az › news ›
3. https://az.wikipedia.org › wiki › Şuşa_abidələri
4. https://scwra.gov.az › view › objects


## ŞUŞA ELM VƏ TƏHSIL OCAĞIDIR

***Seymur Süleymanov, dosent***
***Tədris və elmi işlər üzrə direktor müavini***
***seymursuleymanov71@mail.ru***

Prezident İlham Əliyevin bu il yanvarın 5-də imzaladığı sərəncama əsasən, Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi mühüm əhəmiyyət kəsb edir. Sərəncamda vurğulanır ki, Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır.

2020-ci ilin 8 noyabrı Azərbaycan tarixinə şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu.
Şuşa həm də görkəmli şəxsiyyətləri ilə tanınıb.

Artıq XIX əsrin ikinci yarısında Şuşa əhalisinin sayı 25 minə çatmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi, təhsili və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışdır.

Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan Şuşa tanınmış elm və mədəniyyət xadimlərinin vətəni hesab edilir. Heç də təsadüfi deyildir ki, Xurşidbanu Natəvan, Molla Pəhah Vaqif, Mir Möhsün Nəvvab, Əbdürrəhim bəy Haqverdiyev, Qasım bəy Zakir, Süleyman Sani Axundov, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Həmidə xanım Cavanşir, Bədəl bəy Bədəlbəyli, Əhməd bəy Ağayev, Üzeyir bəy və Ceyhun bəy Hacıbəylilər, Səməd bəy Mehmandarov, Fərəc bəy Ağayev və dünya şöhrətli onlarca ziyalının xadimlərin həyatında məhz Şuşa mühitinin mühüm rolu olmuşdur.

Şuşa xalqımız üçün tarixi, mədəni, mənəvi və rəmzi əhəmiyyətə malikdir. Qarabağ xanlığının tarixi paytaxtı, mədəniyyət məbədi olan bu qədim şəhər özü boyda tarixi abidədir. Şuşa orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi, milli memarlıq incisi, Azərbaycan musiqisinin, xüsusilə muğamımızın beşiyi, "Şərqin konservatoriyası" adlandırılır.

Azərbaycanın mədəniyyət ocağı olan Şuşa şəhəri eyni zamanda Qarabağın açarıdır.

Orta əsrlərdən başlayaraq Azərbaycanda təhsil mollaxana, məktəb və mədrəsələrdə aparılıb. Mədrəsələrdə ərəb dili və Quran öyrədilib.

Gövhərağa məscidinin nəzdində fəaliyyət göstərən Gövhəriyyə mədrəsəsi isə el arasında "Gövhəriyyə məktəbi" adlandırılıb. 1864-cü ildə Gövhər ağa vəqf gəliri hesabına 175 min manat qızıl pul xərcləyərək Böyük Cümə məscidini əsaslı surətdə bərpa etdirdikdən sonra hücrələrdən birini mədrəsə üçün ayırıb. Burada oxuyan yoxsul uşaqların hamısı onun hesabına təhsil alıb. 1917-ci ildə məktəbin nəzdində müsəlman tələbə komitəsininin təşəbbüsü ilə pulsuz kitabxana zalı açılıb.

Zaqafqaziya məktəblərinin 1829-cu il 2 avqust tarixli Nizamnaməsinə əsasən, 1830-cu il dekabrın 30-da Şuşada Cənubi Qafqazın dünyəvi təhsil verən ilk qəza məktəbi fəaliyyətə başlayıb. O, dövlət idarələri üçün qulluqçular, ilk növbədə isə Azərbaycan və rus dillərinə tərcüməçilər hazırlamaq məqsədilə açılıb. Burada təhsil alanların böyük əksəriyyəti bəy və tacir balaları idi. Məktəb Şuşada olan Bazel alman missionerlərinin cəmiyyəti tərəfindən pulsuz olaraq bir il müddətinə verilmiş binada yerləşirdi. İki sinif otağından əlavə, burada iki müəllimin yaşaması üçün də yaxşı şərait yaradılıb.

Azərbaycanda maarifçi bir nəslin yetişməsində xüsusi rolu olan məktəblər var. Belə təhsil ocaqlarından biri də XIX əsrdə Şuşada yaranan Şuşa Realnı Məktəbidir. Məlum olduğu kimi, XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər yaranmağa başlamışdı. Belə məktəblərin inkişafı və maariflənmə səyləri baxımından Qarabağ bölgəsi, nəinki Azərbaycanda, o cümlədən Cənubi Qafqazda da öncüllük edirdi.

Böyük ruh yüksəkliyi ilə başlanan bu ənənə XIX əsrin sonlarında daha da güclənməyə doğru gedirdi. 1881-ci ildə Azərbaycanın Şuşa şəhərində yaranan 6 sinifli yeni tipli məktəb də belə təhsil ocaqları sırasına daxil idi.

Xalq dinin qadağan qanununa əhəmiyyət vermədən, başqa xalqların dillərini də öyrənir. Həmin dildə danışmağa və oxumağa cəhd göstərirdilər. 1890-cı ildə Tiflis məktəblərində alman dili məcburi dil kimi öyrədilirdisə, Şuşa məktəbində bu könüllülük prinsipi ilə aparılırdı. Yeni açılan bu məktəblərdə ədəbiyyatın tədrisinə xüsusi diqqət yetirilirdi. Ona görə ki, ədəbiyyat əsas tərbiyə vasitəsi kimi yetişdirmək qüdrətinə malik idi.

Şuşa realnı məktəbi həqiqətən də dövrünün nümunəvi maarif ocağı sayılırdı.

Şuşa realnı məktəbində o dövrün tanınmış maarifçi şəxslərindən Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Malikhaqnəzərov, Haşım bəy Vəzirov dərs deyirdi. Mirzə Salah bəy Zöhrabbəyov Fransada və Rusiyada təhsil almış görkəmli ziyalılardan idi. İbtidai təhsilini Şuşada molla yanında alan Mirzə Salah bəy sonra Fransaya yollanmış, burada 12 il təhsil aldıqdan sonra Rusiyaya gələrək, Sankt-Peterburq şəhərində təhsilini davam etdirib O, inqilabdan əvvəl Şuşaya qayıdıb, öz vəsaiti ilə burada məktəb tikdirib və həmin məktəbdə rus dili dərsi deməyə başlayıb. Bu tədris fənni üçün Mirzə Salah bəy Zöhrabbəyov "Azərbaycanlılar üçün rus dilinin tədrisi" dərslik vəsaitini yazıb. Bir müddət Şuşa real məktəbində müəllim işləyib. O, Firidun bəy Köçərli ilə birlikdə "Təlimati-lisani-türki" dərsliyini tərtib edib.

Şuşa məktəblərindən biri də Malıbəyli Qızlar Məktəbi olub. Qori Müəllimlər Seminariyasının məzunu olan Məmməd Qarayevi Bakıdan təyinatla Şuşaya göndəriblər. Bu məktəbin təsisçisi də elə o olub. Məmməd müəllim Malıbəylidə ilk dəfə qızlar məktəbi təşkil edib.

Şuşa sakinləri məktəblərdə ana dilinin öyrənilməsinə xüsusi diqqət yetirirdi. Bu baxımdan Şuşa məktəbinin müəllimləri Mirzə Həsən bəy Əmirov və Mirzə Aslan bəy Əmirov ana dilinin uğurlu tədrisi sahəsində çox məşhur idilər. Fransız dili bölgə tacirlərinin Fransa ilə ticarət əlaqələri yaratması üçün zəruri idi və əhalinin əlavə vəsaiti hesabına tədris olunurdu. Şəhər məktəbində təhsil pullu idi.

Təsis edildiyi ilk illərdə Şuşa şəhər məktəbində 375 nəfər şagird təhsil alırdı. Bu, Rusiyada dövrünün ən çox şagird kontingenti olan məktəbi idi.

Şuşa şəhər məktəbində 1875-ci il mayın 6-da kasıb zadəgan övladlarının təhsil aldıqları konvikt təşkil edildi. Onlar dövlət hesabına pansionda yaşayıb təhsil alırdılar.

Şəhər məktəblərinin nəzdində kitabxanalar təşkil edilirdi. Şagird kitabxanasının zənginliyi ilə fərqlənən Şuşa məktəbi tədris vəsaiti və fənn kabinetləri ilə çox yaxşı təchiz olunmuşdu.

Kütləvi kitabxanaların yaradılması sırasında da Şuşa Şamaxı ilə bərabər ilk yeri tutub. Şuşada kiçik mətbəə fəaliyyət göstərib. 1848-ci ildə Şuşada ilk teatr tamaşası təşkil edilib. Poeziya və xanəndəlik məktəbi baxımından Şuşanın özəl yeri olub.

1880-ci ildə Şuşa şəhər məktəbinin nəzdində xüsusi musiqi sinifləri açıldı.

Şuşanın Azərbaycanın digər şəhər mərkəzlərindən fərqli bir statusu vardır. Musiqi mədəniyyətimizin beşiyi sayılan Şuşada xanəndə və çalğıçıların professional məktəbi yaranmışdı. Şuşa ifaçıları ölkə hüdudlarından kənarda belə şan-şöhrət qazanmışdı. Məşhur rus şairi Sergey Yesenin demişdir. "Əgər oxumursansa, deməli, şuşalı deyilsən".

Şuşada ilk musiqi məktəbi Xarrat Qulu Məmməd oğlu açıb. İlk musiqi məktəblərinin yaranması ilə Şuşada xalq musiqisi ənənələri yayılır və zənginləşirdi.

Öz missiyasını uğurla həyata keçirən, xalqın maariflənməsi, elmə yiyələnməsi işində müstəsna xidmətləri olan, Azərbaycan ədəbiyyatına bir sıra məşhur yazıçılar, ədiblər, bəxş edən Realnı Məktəbin binası sonralar bir sıra təhsil müəssisələrinin fəaliyyət göstərməsi üçün gözəl məkana çevrilmişdir. Belə ki, Şuşanın qədim tikililərindən sayılan təhsil ocağının binasında 1960-cı ilədək Şuşa Pedaqoji Texnikumu, 1960-cı ildən 1989-cu ilədək Riyaziyyat təmayüllü 2 nömrəli internat məktəbi fəaliyyət göstərmişdir.

Binanın sonuncu sakinləri isə APİ-nin (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin) Şuşa filialı olub. 1989-cu ildən 1992-ci ilədək bu binada fəaliyyət göstərən ali təhsil müəssisəsinin Şuşa filialında tələbələr əsasən pedaqoji fakültələrdə təhsil alırdılar.

Bəli, təhsilimizin inkişafına əvəzsiz töhfələr vermiş əzəmətini, tarixi görkəmini, qədimliyini qoruyan Şuşa Realnı Məktəb çox təəssüf ki, 1992-ci ilə qədər ayaqda durmağı bacardı. Belə ki, 1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları orada bir çox tarixi, dini yerlərimizi məhv etdi, o cümlədən Şuşa Realnı Məktəbi yandıraraq xarabazara çevirdilər. Budur, artıq İlahi Ədalət zəfər çaldı. 30 ilə yaxın işğal olunmuş torpaqlarımızın həsrətinə son qoyuldu. 44 günlük Vətən müharibəsində qazandığımız qələbə erməni işğalçılarının böyük xülyalarını puç etdi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2021-ci il noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edərək diqqətə çatdırmışdır ki, Zəfər Günü bizim bayramımızdır,

bu, zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır.

Doğma Şuşamıza təhsilimiz qayıdır. Artıq bizləri qarşıda azad olunmuş torpaqlarımızda böyük quruculuq işləri, gözəl bir həyat gözləyir.
Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!".

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://az.wikipedia.org › wiki › Şuşa
2. http://www.musigi-dunya.az › new › added
3. https://stm.az › news › susanin-tehsilimizde-ve-medeniyyet

## MOLLA PƏNAH VAQİFİN QARABAĞDA DÖVLƏT XADİMİ VƏ ŞAİR KİMİ FƏALİYYƏTİ

***Vaqif Allahverdiyev, dosent***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
***vaqif. allahverdiyev2021@gmail.com***

28 il hər dəfə doğma Şuşamızın mənfur düşmənlərimiz tərəfindən işğal olunmasını ürək ağrısı ilə andıq. 44 günlük müharibədə Ali baş komandanımız cənab İlham Əliyevin polad iradəsi, dəmir yumruğu və şanlı ordumuzun qəhrəmanlığı sayəsində Qarabağımız, Şuşamız düşməndən azad olundu. İndi böyük bayram sevinci ilə hər il bu günü qalib xalq kimi qeyd edəcəyik. Möhtərəm prezidentimiz cənab İlham Əliyevin 2022 – ci ili Şuşa ili elan etməsi, bir daha bütün dünyaya bəyan etdi ki, Qarabağ Şusa Azərbaycanın əzəli, əbədi torpağıdır. Şuşa tarixən yadelli işğalçılar tərəfindən hücumlara məruz qalmışdır. Təkcə XX əsrdə Şuşa şəhəri 3 dəfə yandırılmış, dağıdılmışdır. 1905 - 1918 – 1992. Lakin bu təkcə XX əsrə aiddir. Mən diqqətinizi daha əvvəllərə xanlıqlar dövrünə, XVIII - əsrə cəlb etmək istəyirəm. XVIII - əsrdə Şuşa şəhərinin inkişafında Qarabağ ədəbi mühitinin formalaşmasında böyük xidmətləri olan Azərbaycan realist şerinin banisi M.P. Vaqif o dövrdə Şuşa şəhərinin yadelli işğalçılar tərəfindən işğal olunmasına qarşı həm siyasi xadim, həm də el şairi kimi mübarizə aparmışdır.

İlk növbədə Vaqifin Qarabağla xüsusən Şuşa şəhəri ilə bağlılığını diqqətinizə çatdırmaq istəyirəm. Bildiyimiz kimi M.P. Vaqif 1717- cil ildə Qazax mahalının Qıraqsalahlı kəndində anadan olmuşdur. Əsl adı Pənah, atasının adı isə Mehdidir . Qazaxda anadan olmasına baxmayaraq fəaliyyətinin çox hissəsi Qarabağla bağlı olmuşdur. Şairin Qarabağa gəlməsi, Şuşada yaşayıb yaratması onunla bağlı olmuşdur ki, 1759 – cu ildə Gürcüstan sərhəddində baş verən qarışıqlıq nəticəsində bir neçə kənd Qazaxdan çıxaraq Gəncə və Qarabağ xanlıqlarına köçməyə məcbur olur. Bu ailələr içərisində Vaqif də var idi. Şair əvvəlcə Tərtərbasarda yaşayıb orada bir məktəb açır, sonra isə Şuşaya köçməli olur. Şairin molla Pənah adlanması da onun məktəbdarlıqla məşğul olması ilə bağlıdır. Bu zaman Şuşa Azərbaycanın əsas mədəniyyət mərkəzlərindən biri olub sürətlə inkişaf edirdi. Vaqif Şuşada məktəb açıb yenə də dərs verməklə məşğul olur, eyni zamanda bədii

yaradıcılığını davam etdirir. Şairin bilik, bacarıq və müəllimlik şöhrəti şəhərdə geniş yayılır, Qarabağ hökmdarı İbrahim xana da çatır. Vaqif saraya dəvət edilərək "eşik ağası " yəni xarici işlər üzrə vəzir təyin edilir. Az bir vaxtda öz ağıl və istedadı nəticəsində sarayda böyük nüfuz qazanır və xanlığın bütün daxili və xarici işlərinə rəhbərliyi əlinə alır. XIX əsrin tarixçilərindən Mir Mehdi Xəzani özünün "Tarixi Qarabağ" adlı əsərində mövqeyini belə təsvir edir: "Molla Pənah bir Sahibi-kamal və müddəbir və təcrübəkar və şair və xoşrəftar adam idi və özü dəxi İbrahim xanın vəziri və çox mötəmidi idi ki, hər ümuri – hökumətdə Molla Pənahın tədbiri və müşavirəsi ilə rəftar edərdi və ona yaxşı inanıb etimad etmişdi ki, övladından artıq onun xatirin mənzur edərdi və ona çox-çox hörmətlər edib ixtiyari –külli vermişdi". Bu sətirlərdən də aydın olur ki, Vaqif İbrahim xanın sarayında böyük səlahiyyət sahibi olmuşdur. O, Qarabağ xanlığının bütün fəaliyyətinə istiqamət vermiş, hətta Şuşa şəhərinin abadlığı və təmiratı işlərinə də şəxsən rəhbərlik etmişdir.Vaqif dövründə Azərbaycan bır sıra xanlıqlara ayrılmışdır. Ölkənin gələcəyini düşünən fədakar dövlət xadimləri bütün xanlıqları bir mərkəzdə birləşdirib, müstəqil dövlət yaratmaq kimi böyük bir azrunu həyata keçirmək üçün mübarizə edirdilər. Şəkidə Çələbi xan, Qarabağda Pənah xan, Qubada Fətəli xan ayrı – ayrılıqda mübarizə aparırdı.Vaqifin Qarabağda çalışdığı illərdə Qacar sülaləsindən olan Ağa Məhəmməd xanın İranda hakimiyyəti ələ alması və işğalçılıq siyasətinə başlaması, birləşmək ideyasını xüsusilə zəruri etdi. Bu zaman ölkənin azadlığını qorumaq və müstəqil Azərbaycan yaratmaq uğrunda siyasətə Vaqif rəhbərlik edirdi. Vaqifin təşəbbüsü ilə İbrahim xan İrəvan xanı Məhəmməd xanı , Talış hakimi Mir Musatafanı və Gürcüstan hökmdarı 2-ci İraklini birləşməyə çağırır. Bu məqsədlə Vaqif Tiflisə gedir.Dörd hökmdar mübarizədə bir-birlərinə yardım edəcəklərinə söz verir. Ağa Məhəmməd şahın işğalçılıq siyasətindən xəbərdar olan İrakli o zaman Rusiya dövlətindən kömək almaq məqsədilə 2-ci Yekatrinaya müraciət etmişdir. Bu ittifaqdan sonra İbrahim xan da Vaqifin məsləhəti ilə Rusiya imperatoricasına müraciət etdi. Bu siyasi əlaqələrin yaranmasıda Vaqifin rolu çox böyük olmuşdur. Qarabağ xanlığının Qacara qarşı düzəltiyi bu ittifaq Ağa Məhəmməd Şah Qacarı son dərəcə qəzəbləndirmiş və o qüvvətli bir ordu ilə 1795 – ci ildə Araz çayını keçir, ordunu iki hissəyə bölərək, bir hissəsini İrəvan xanlığına, özü isə Qarabağ xanlığına hücuma keçir. Şahın gəlmək xəbərini eşidən İbrahim xan qalanın müdafiəsinə hazırlaşır. Vaqif bu müdafiəyə şəxsən özü başçılıq edir.

Qacar Şuşa qalasını 33-gün mühasirədə saxlasa da xalqın əzmini qıra bilmədi. Bu vuruşmaların canlı şahidi olan Mirzə Cəmal belə yazır: "Neçə dəfə Ağa Məhəmməd şah öz külli qoşunu ilə hücum etdi ki, gələni təsxir eləsin, amma İbrahimxanın rəşid və qoçaq sərvari və piyadə əsakari olan sərkərdələri onun müqabilinə çıxıb mərdanə dəva edib, onu məyus və məğlub geri qaytardılar. Axırda Ağa Məhəmməd Şahın əli boşa çıxıb Gürcüstan səmtinə üz qoydu".

Ağa Məhəmməd Şah Qacar Şuşa məğlubiyyətin (1795) yaddan çıxara bilməyib İbrahim xandan və onun hazırcavab vəzirindən intiqam almaq üçün fürsət gözləyirdi. Bu zaman Yekatrinanın ölümü və I Pavelin çarlığa keçməsi ilə əlaqədar olaraq Rusiya orduları Qafqazdan çəkildi. Bu fürsəti əldən qaçırmayan Qacar 1797 – ci ildə böyük bir güc ilə Şuşa üzərinə hücum etdi və Şuşa şəhərini ələ keçirdi. İbrahim xan öz yaxın adamları ilə Beyləqana, qaynı Əmma xanın yanına getdi. Vaqif isə şəhəri tərk etməyib Şuşada qaldı. Vaqif Qacar tərəfindən dustaq edilərək zindana salınır səhər edam ediləcəyi bildirilir. Lakin Ağa Məhəmməd Şah həmin gecə öz adamları tərəfindən öldürülür. Vaqif azad olur. Bu zaman İbrahim xanın qardaşı oğlu Məhəməd bəy Cavanşir xanlığı ələ keçirib əmisinin yaxın adamlarını aradan götürmək fikrinə düşür. Bunu hiss edən Vaqif ağır və kədərli dəqiqələr

keçirir. Vaqif İbrahim xana gizli məktub yazır, tez qayıtmasını xahiş edir. Məktubu çarığında aparan kəndli tutulur. Məhəmməd bəy Vaqifi oğlu Əli bəylə birlikdə 1797-ci ildə Şuşada öldürtdürür.

M.P. Vaqifin Qarabağ xanlığının yadellilərdən qorunmasında, Şuşa şəhərinin tikinti – abadlıq işlərində, mədəni həyatında, İbrahim xana verdiyi ağıllı məsləhətləri, xanlığın ədalətlə idarə olunması və s. kimi məsələlərdə dövlət xadimi kimi göstərdiyi fəaliyyətə nəzər saldim. Lakin bununla yanaşı bədii yaradıcılığında da şairin Qarabağ həyatına Şuşa şəhərinə, Qacarla bağlı, Məhəmməd bəy Cavanşirlə bağlı, Qarabağın füsünkar gözəlliklələrinin tərənnümü ilə bağlı məsələlərə diqqətinizi çəkmək istəyirəm. Vaqif XVIII əsrdə Azərbaycan poeziyasına yeni nəfəs, yeni üslub gətirmişdir.

Onun şeirlərindəki forma axtarışları, hisslərin təbiiliyi, obrazların rəngarəngliyi, dil zənginliyi indi də öz əhəmiyyətini saxlamaqdadır.

XVIII əsrin görkəmli siyasi xadimlərindən olan İbrahim xanla əlaqədar şeirə şairin yaradıcılığında hələ ki, təsadüf olunmayıb. Bu da ondan irəli gəlir ki, Vaqif öldürüldüyü zaman onun evi talan edilmiş, əsərlərinin çox hissəsi itib- batmış, divanı və əlyazmalarının bir hissəsi bizə gəlib çatmamışdır. Lakin Vaqif şeirlərində Qarabağda yaşayıb müəyyən mövqeyə malik olmuş bir sıra tarixi simaların adları çəkilib. Qarabağın vurğunu olan həssas bir şairin könül arzularını və ürək yanğısını ən yaxşı ifadə etmək mənasında "Hayıf ki yoxdur" rədifli qoşması Vaqif yaradıcılığında mühüm yer tutur. Qoşmanın yazılması olduqca maraqlı bir faktı üzə çıxarır. Belə ki, bir gün İbrahim xan Vaqiflə birlikdə öz atlıları ilə Kür qırağına gedir. Xanın burada çox qalacağını görən kənd ağsaqqalları Vaqifə müraciət edərək, xanın getməsini tezləşdirməyi xahiş etmişlər. Deyilənə görə yerli əhali xan əyalətdə çox qalarsa onun dəstəsi üçün azuqə hazırlamaqda çətinlik çəkəcəklərini Vaqifə bildirmişlər. Vaqif bu münasibətdə 2-qoşma yazaraq xanəndəyə oxutdurmuş, işarəni başa düşən xan Şuşaya qayıtmağı əmr vermişdir. Lakin biz həmin əsəri diqqətlə oxuduqda burada daha yüksək fikir və arzuların ifadə olunduğunu görərik. Vətənpərvər şair burada XVIII əsr Azərbaycan kəndlərinin ağır vəziyyətini təsvir etmişdir.

Qış günü qışlağı, Qıraqbasanı,
Gözüdür aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın,
Bir gözəl obası, hayıf ki yoxdur.

Şair təbii gözəlliyinə valeh olduğu Kür qırağında bir gözəl oba, abad bir kənd olmadığına təəssüf edir. Əsrlərlə işğallara məruz qalıb, nəhayət cahil xanların didişməsi nəticəsində xarabalığa çevrilmiş kəndləri görəndə şair qüssələnir. O, bu yerlərdə yoxsul həyat keçirən kəndli qadınların halına acıyaraq deyir:

Elə gözəllər var bunların içində,
Ələ düşməz hərgiz çüni Məçində,
Söyləgən,oylağın,dürüst biçimdə,
Bəzəyi, libası hayıf ki yoxdur.

"Qarabağ icrə bir şair Kəlimullah Musadır" misrası ııə yazdığı bir şeir Vaqifin yenicə Şuşaya gələrək məktəbdarlıq etdiyi dövrlərə aiddir. Şair bu şeirdə özünün yoxsul həyatından, Qarabağda, xüsusilə Cavanşir tayfası arasında şeirə yüksək qiymət verildiyindən danışır və göstərir ki, burada şairə möcüzələr yaradan Musa peyğəmbər kimi baxırlar. Cavanşir əhli, ilham sahiblərinin qələminə İsrail nəslindəm çıxan Musanın əjdahaya çevrilən müqəddəs əsası kimi hörmətlə yanaşırlar. Bu şeirdə

Vaqif demək olar ki, Qarabağ əhalisinin sözə, sənətə, şeirə nə qədər böyük qiymət verdiyini böyük sevinc hissi ilə qeyd etmişdir. Vaqif Ağa Məhəmməd şahın qəzəbindən qurtarıb, həbsxanadan çıxdığı zaman öz dostu Vidadiyə "Bax" qədifli qəzəlini yazır.

Ey Vidadi, gərdişi dövran-kəcrəftara bax,
Rüzgarə qıl tamaşa karə bax kirdarə bax,
Əhl züln necə bərbad eylədi bir ləhzədə,
Hökm adil padşahın, qədiri qəhharə bax.

Misraları ilə başlayan qəzəlində şahın ölümünü bir müjdə kimi xəbər verir, baş verən hadisəni belə təsvir edir.

Süb söndü şəb ki, xəlqə qiblə idi bir çırağ,
Gecəki iqbalı gör, gündüzdəki idbarə bax!
Taci – zərdən ta ki, ayrıldı dimağı – pürgürur,
Piyamel oldu təpəliklərdə səri – sərdarə bax!

Qəzəldə gecə xalq üçün qiblə sayılan bir çırağın yəni şahın sübh çağı həmin şahın başının təpiklər altına düşməsindən söhbət açır. Şair ölümdən xilas olmasını dəmirçinin ədalətsiz padşahın əlindən qurtarmasına bənzədir.

Qurtaran əndişədən ahəngəri- bicarəni,
Şah üçün ol midbəri tədbir olan mismarə bax!

Bu beyitin mənası belədir ki, bir dəmirçini öldürmək istəyən şah,ona bir gecədə 40 min at mıxı hazırlamağı əmr edir. Dəmirçi səhərə qədər yatmır,ölüm saatını gözləyir, Səhər tezdən şahın adamaları qapını kəsir.Ancaq onlar at mıxı yox, gecə ölmüş şahın tabutu üçün 4 mismar hazırlamağı xahiş edir. Bu gün Azərbaycan el məsəlində işlənən "Mıxı mismara çevirən Allah" ifadəsidə elə bu rəvayətdən götürülmüşdür.

Vaqif özünün Ağa Məhəmməd Şah Qacarın əlindən qurtarmasını dəmirçinin zalım şahın ölüm cəzasından qurtarması ilə müqayisə edərək öz müasirlərinə Ağa Məhəmməd xandan ibrət almağa çağırır.

İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən nə şahə, nə xunxarə bax!

Yuxarıda qeyd etdiyim kimi Vaqif Qacarın ölüm hökmündən qurtardıqdan sonra xanlığı ələ alan Məhəmməd bəy Cavanşir İbrahim xanın yaxın adamlarını ortadan götürmək istəyir. Bunu hiss edən Vaqif, ağır dəqiqələr keçirir və özünün məşhur "Görmədim" rədifli müxəmməsini yazır.

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm əyri gördüm özgə babət görmədim.

Göründüyü kimi şair, xüsusən, Məhəmməd bəy Cavanşirin hakimiyyətinə qarşı çıxır, onun simasinda feodal üsul- idarələrində işlərin zülm əsasında qurulduğunu tənqid edərək fikirlərini bədii surətdə ümumiləşdirmişdir.

Şairin Qarabağda, Qarabağ xanlığı və Şuşa şəhəri ilə bağlı bir neçə şeirini diqqətinizə çatdırdım.Bir daha demək istəyirəm ki,Vaqif yaradıcılığı ilə Azərbaycan şeir tarixində yeni bir dövr başlanır, yeni realist şeirin təməli qoyulmuşdur. Özündən sonra Q. Zakir, B. Şakir, X. Nətavan, Aşıq Pəri və başqaları Vaqif ədəbi məktəbini davam etdirmiş, Vaqif irsindən bəhrələnmişlər.

Xalq şairmiz S. Vurğun Vaqif irsinə dərin məhəbbət göstərmiş və ən yaxşı əsərlərindən olan "Vaqif" dramını böyük şairin həyat və yaradıcılığının son dövrünə həsr etmişdir. Ümummilli Liderimiz H. Əliyevin təşəbbüsü ilə 1982-ci ildə Şuşa şəhərində Vaqifin məqbərəsi tikilmişdir ki, buda H.Əliyevin Vaqif irsinə verdiyi dəyərin və qiymətin təzahürü idi. Mənfur düşmənlərimiz tərəfindən 1992-ci ildə Şuşa şəhəri işğal olan zaman tarixi abidələrimiz o cümlədən M.P. Vaqifin məqbərəsi dağıdılmışdır. 44 - günlük müharibədə Şuşa şəhəri Ali baş komandanımızın uzaqgörən siyasəti, polad iradəsi və dəmir yumruğu, müzəffər odumuzun qəhrəmanlığı sayəsində düşməndən azad edilmişdir. Prezidentimiz cənab İlham Əliyevin göstərişi ilə ilk bərpa olunan tarixi abidələrimizdən biri və 1-cisi M.P. Vaqifin məqbərəsi olmuşdur. Biz çox böyük və fərəh hissi ilə Şuşa ilini qeyd edir və bundan sonra hər il Şuşa şəhərində Vaqif poeziya günlərini böyük sevinc və fərəh hissi ilə qeyd edəciyik.

**İstifadə olunmuş ədəbiyyat:**

1. A. Həmid. XVII – XVIII əsrlər ədəbiyyat tarixi. Bakı, ADU, 1956. 154 səh.
2. Azərbaycan ədəbiyyat tarixi. üç cilddə. II cild. Bakı, 1960.
3. A. Dadaşzadə. XVIII -əsr Azərbaycan lirikası. Bakı, Elm. 1980.
4. A. Dadaşzadə. Vaqifin həyat və yaradıcılığı. Bakı, EA-nəşriyyat, 1966.
5. F. Köçərli. Azərbaycan ədəbiyyatı. Bakı, Elm 1978.
6. V. Vəliyev. "Qaynar söz çeşməsi". Bakı, 1986.

## FUNDAMENTAL VƏ TƏTBİQİ ELMLƏRİN İNKİŞAFINDA ŞUŞALI ALİMLƏRİN ROLU

***Sahib Zeynalov, dosent***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası"kafedrasının müdiri***
***sahib.zeynalov64@list.ru***

Azərbaycan Respublikası Rrezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətindən:

***Əziz həmvətənlər! Əziz bacilar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqini ürəkdən təbrik edirəm! Bütün şuşalilari ürəkdən təbrik edirəm!***

Prezidentimizin səriştəsi, tükənməz səbri, qətiyyəti, xalqa sevgisi sayəsində biz azərbaycanlilar qələbə sevincini yaşayiriq.

Yaşasin Rəşadətli Azərbaycan Ordusu və Müzəffər Ali Baş Komandan!

Hörmətli tədbir iştirakçıları hər birinizi salamlayıram və fundamental elmlərin inkişafında böyük xidməti olmuş məhşur kristolloqraf alim Xudu Məmmədovun bir kuplet şeirini yada salmaq istəyirəm.

Hüsnünə göz dikən çaşar, Qarabağ,
Gördüm qeyrətini-daşar, Qarabağ!
Sənsiz diriliyi neylər övladin?!
Ölər torpağinda yaşar, Qarabağ!

Bütün şəhidlərimizə allahdan rəhmət diləyirəm! Ruhlari şad olsun!

İlk növbədə mövzunun adı ilə bağlı mülahizələrimi diqqətinizə çatdırmaq istəyirəm. Məlumdur ki, elmlərin təbiət, cəmiyyət, ictimai, riyazi, fundamental, humanitar və s. sahələrə bölünməsində mükəmməl elmi əsas yoxdur. Müxtəlif alimlər tərəfindən fərqli mülahizələr əsaslandırmalar mövcud olsada, hesab edirəm ki, Avropa riyaziyyatçısı Evarist Qallua tərəfindən inkişaf etdirilmiş qrup nəzəriyyəsinə əsaslanaraq gələcəkdə elmlərin qruplara bölünməsi mümkün olacaqdır.

Təbiət elmləri ingiliscə natural science (skayns) sözündən götürülmüş, insana xarici münasibətdən təsir edən təbiət amillərini öyrənən elm sahələridir. Təbiət elmləri dünyanı naturalist nöqteyi-nəzərindən öyrənir. Elmi nəzəriyyədə təbiət elmləri dedikdə biologiya, astronomiya, fizika, kimya və coğrafiya nəzərdə tutulur.

Riyaziyyat, statistika, məntiq və informasiya texnologiyaları fənləri birlikdə formal elm sahəsi hesab olunur və təbiət elmlərinə şamil edilmir. Bunun səbəbi onların fərqli metodologiyalara malik olmasıdır. Riyaziyyat elmi təbiət elmi hesab olunmasada fundamental elm sahələrində aparılan tədqiqatlarda bazis rolunu oynayır. Ona görədə ilk növbədə riyaziyyat sahəsində elmi və metodik tədqiqatlar aparmış alimlər haqqında məlumat vermək istədim. Bildiyiniz kimi Üzeyir Hacıbəyov 18 sentyabr 1885-ci il tarixdə Şuşa qəzasının Ağcabədi bölgəsində anadan olmuşdur. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olan Üzeyir Hacıbəyov müxtəlif elm sahələri ilə yanaşı riyaziyyat sahəsində də xidmətləri olmuşdur. Belə ki, o "Hesab məsələləri" adlı dərslik yazmışdır. Həmin dərslik 1907-ci ildə Bakı şəhərində dərc olunmuş, 105 səhifədən ibarətdir və uzun müddət istifadə olunmuşdur.

2 oktyabr 1890-ci ildə Molla Şükürüllah tərəfindən yazılmış "Risaleyi hüruf və xütut" əsərində həm cəbri həm də həndəsi material öz əksini tapmışdır. Sovet İmperiyası dövründə Şuşa şəhərində anadan olan və riyaziyyat elminə öz töhfələrini verən bir çox alimlər olmuşdur. Onlardan fizika-riyaziyyat elmləri doktoru, professor Cəlal Eyvaz oğlu Allahverdiyevin, fizika-riyaziyyat elmləri doktoru Taryel Məmmədovun, fizika, riyaziyyat elmləri namizədi, dosent Zəfər Hüseynovun və başqalarının adlarını qeyd etmək olar.

Fundamental və tətbiqi elm sahələrində xidmətləri olan alimlərdən bir neçəsi haqqında sizə məlumat vermək istəyirəm.

Mustafayev Məhəmməd Cəfərqulu oğlu 22 aprel 1914-cü ildə Şuşa rayonunun Zarıslı kəndində anadan olmuşdur. 1930-cu ildə orta məktəbi bitirmişdir. Məhəmməd Mustafayev 1935-1940 illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Fizika-riyaziyyat fakültəsində ali təhsil almışdır. Məhəmməd Mustafayev 1953-cü ildə Lvov şəhərində "Parabolik tipə yaxın xüsusi törəmli xətti differensial tənliklər sistemi" mövzusunda dissertasiya müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

Məhəmməd Mustafayev tələbələr üçün dərsliklər yazmış, xarici riyaziyyatçıların elmi əsərlərini və dərsliklərini Azərbaycan dilinə tərcümə etmişdir.

Məhəmməd Mustafayev ali təhsil aldıqdan sonra ömrünün sonuna kimi Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) işləmişdir. O, bu ali təhsil müəssisəsində həndəsə kafedrasında dosent (1956-81) vəzifəsində çalışmışdır. Məhəmməd Mustafayev 3 iyun 1982-ci ildə Bakıda vəfat etmişdir.

Rüstəmov Paşa Həbib oğlu 1920-ci il mayın 20-də Şuşa şəhərində sənətkar ailəsində anadan olub. O, 1934-cü ildə Şuşa şəhər orta məktəbini bitirib. 1937-ci ildə Şuşa pedaqoji işçi fakultəsini

bitirərək Bakı Dövlət Universitetinin kimya fakultəsinə daxil olub. 1941-ci ildə Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirib.

1941-1942-ci illərdə Şuşa uşaq vərəm sanatoriyasında müəllim işləyib. P. Rüstəmov müharibədən qayıtdıqdan sonra 1945-1948-ci illərdə Şuşa 1 saylı orta məktəbində tədris-hissə müdiri və 1948-1952 -ci illərdə Şuşa rayon maarif şöbəsinin müdiri olmuşdur. 1953-cü ildə Azərbaycan EA

Kimya İnstitutunun aspiranturasına daxil olmuş, 1957-ci ildə kimya üzrə fəlsəfə doktoru və 1967-ci ildə kimya üzrə elmlər doktoru elmi dərəcəsini, 1968-ci ildə isə professor elmi adını almış, 1983-cü ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.

1959-1983-cü ilə qədər Azərbaycan SSR EA Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda laboratoriya müdiri, 1983-ildən ömrünün axırına kimi Azərbaycan Dövlət Universitetində kafedra müdiri olub. P. Rüstəmov respublikada fiziki-kimyəvi analizin və yarımkeçiricilər kimyasının əsasını qoyanlardan biridir. O, ikili, üçlü və daha mürəkkəb sistemlərin hal diaqramını öyrənmiş, yarımkeçirici materialların sintezi və tədqiqində təqdirəlayiq nəticələr əldə etmişdir. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə yüksək temperaturda davamsız kükürdlü birləşmələrin sintez şəraiti təkmilləşdirilmiş və materialşünaslıqda istifadə üçün tövsiyə edilmişdir. Alimin elmi məqalə və ixtiralarında xalkogenid birləşmə və bərk məhlullar əsasında onun yaratdığı yüksək effektli fotoçeviricilər, termoelektrik materiallar və radiasiya fazasını təyin etmək üçün qamma-detektorlarının hazırlanma texnologiyaları öz əksini tapmışdır. P. Rüstəmovun rəhbərliyi ilə 10 elmlər doktoru, 50 fəlsəfə doktoru yetişdirilib. P. Rüstəmov 600-dən çox elmi əsərin, o cümlədən 51 müəlliflik şəhadətnaməsi və 14 monoqrafiyanın müəllifidir.

O, I dərəcəli Vətən müharibəsi ordeninə, akademik Kurnakov adına medala və Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalına layiq görülüb.

İmanov Lətif Muxtar oğlu 1922-ci il sentyabrın 15-də Şuşa şəhərində anadan olmuşdur. 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsini bitirmişdir. 1954-cü ildə fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, 1964-cü ildə fizika-riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsini, 1966-cı ildə isə professor elmi adını almış, 1968-ci ildə AEA-nın müxbir üzvü, 1976-cı ildə isə həqiqi üzvü seçilmişdir. Əmək fəaliyyətinə Azərbaycan SSR Elmlər Akademiyası Fizika İnstitutunda başlayaraq elmi işçi, böyük elmi işçi (1944-1954), laboratoriya rəhbəri (1954-1980) vəzifələrində işləmişdir.

Lətif İmanov radiospektroskopiya üzrə tanınmış alimdir. Elmi fəaliyyətinin əsas istiqamətləri olan molekulyar qaz radiospektroskopiyası, dielektrik relaksasiya, elektron-paramaqnit rezonans və nüvə maqnit rezonans spektroskopiyası sahələri üzrə əsaslı elmi nəticələr əldə etmişdir.

L. İmanovun rəhbərliyi ilə mürəkkəb qaz readiospektrometr qurğuları yaradılmış, müxtəlif molekulların və onların izotop formalarının mikrodalğa spektrləri öyrənilmiş, spirt və merkaptan molekullarının yeni dönmə izomerləri aşkar edilmişdir. Alim yaratdığı ölçü qurğuları vasiəsilə üzvi maye və bərk maddələrin tədqiqi sahəsində uğurlar qazanmış, şüşələrin elektron-paramaqnit rezonans spektrini və elektrik xassələrini öyrənmişdir.

Xarici və respublika jurnallarında dərc edilmiş 150-dən çox məqalənin müəllifidir Rəhbərliyi ilə 1 elmlər doktoru və 10 fəlsəfə doktoru yetişdirilmişdir.

L. İmanov keçmiş SSRİ EA Spektroskopiya Elmi Şurasının üzvü, Radiospektroskopiya problemi üzrə Respublika Elmi Şurasının sədri olmuşdur. Əməkdar elm xadimi fəxri adına layıq görülmüşdür (1979).

Akademik Lətif İmanov 1980-ci ildə Bakıda vəfat etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Hüseynov Rəhim Əyyub oğlu 9 sentyabr 1924-cü ildə Şuşa şəhərində anadan olmuşdur. O, 1941-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika riyaziyyat fakültəsinə daxil olmuş, 1946-cı ildə universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra təhsilini həmin universitetdə astrofizika ixtisası üzrə aspiranturada davam etdirmişdir. 1949-cu ildə aspiranturanı başa vuran Rəhim Hüseynov Azərbaycan Dövlət Universitetində baş loborant vəzifəsində əmək fəaliyyətinə başlamış, 1951-ci ildə molekulyar fizika və optika kafedrasında astronomiya üzrə müəllim vəzifəsinə təyin edilmişdir. O, 1953-1954-cü illərdə astrofizika ixtisası üzrə baş müəllim, 1954 -1961ci illərdə astrofizika ixtisası üzrə dosent, 1961-1975-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasının Elmi İşlər üzrə direktor müavini və Günəş fizikası şöbəsinin müdiri, 1975-1992-ci illərdə Azərbaycan Dövlət Universitetinin astrofizika kafedrasının müdiri vəzifəsində çalışmışdır. 1953-cü ildə Rəhim Hüseynov "Günəş atmosferinin bəzi radioopik xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyasını yüksək səviyyədə müdafiə edərək respublikamızda astrofizika sahəsi üzrə ilk elmlər namizədi adına layiq görülmüşdür.

Allahverdiyev Cəlal Eyvaz oğlu 17 sentyabr 1929-cu ildə Şuşa şəhərində anadan olmuşdur. Cəlal Allahverdiyev 1951-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir və Mstislav Keldışın rəhbərliyi ilə Moskva Dövlət Universitetinin aspirantı olmuş, 1957-ci ildə "Öz-özünə qoşma olmayan tənliklərin bəzi siniflərinin məxsusi və birləşmiş funksiyalar sisteminin tamlığı haqqında" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. 1968-ci ildə SSRİ EA Tətbiqi Riyaziyyat İnstitutunda "Spektral parametrdən rasional asılı öz-özünə qoşma olmayan operatorların məxsusi qiymətləri və məxsusi elementləri haqqında" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. SSRİ AAK tərəfindən ona 1969-cu ildə professor elmi adı verilmişdir.

Onun ən məşhur elmi nəticəsi Allahverdiyev teoremi adı altında bir çox kitablara, o cümlədən funksional analiz dərsliklərinə salınmışdır. Cəlal Allahverdiyevin Milli Aviasiya Akademiyasının elmi məqalələr jurnalında tələbələri ilə birgə dərc edilmiş bir sıra əsərlərində kompyuterlərin iş prinsiplərinin nəzəri əsaslarının araşdırılması, təkmilləşdirilməsi, təbii dillərdə, o cümlədən Azərbaycan dilində kompyuterlə ünsiyyət mexanizmlərinin işlənib hazırlanması və Azərbaycan dilinin qrammatikasının təkmilləşdirilməsi, Azərbaycan dilinin formal qrammatika sının yaradılması istiqamətində fundamental məsələlər araşdırılmış və mühüm elmi nəticələr alınmış, deduktiv maşında qeyri-səlis çoxluqların təsviri və deduktiv nəticə alınmasının uyğun mexanizmi verilmişdir.

Cəlal Allahverdiyev 1957–1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsində əvvəlcə müəllim, sonra isə baş müəllim işləmişdir. 1960-cı ildə Azərbaycan SSR EA-da yeni yaradılmış Hesablama Mərkəzində şöbə müdiri, sonra isə elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1960-cı ildən AMEA Kibernetika İnstitutunun (indiki İdarəetmə Sistemləri İnstitutu) "İdarəetmənin riyazi məsələləri" laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. 1969–1970-ci illərdə Azərbaycan SSR EA Kibernetika İnstitutunda elmi işlər üzrə direktor müavini, 1970–1988-ci illərdə həmin institutda direktor vəzifəsində çalışmışdır. 1988–1994-cü illərdə Bakı Dövlət Universitetinin elmi işlər üzrə prorektoru işləmişdir. 1994-cü ildən bu universitetin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin "Əməliyyatlar tədqiqi və riyazi modelləşdirmə" kafedrasının müdiridir. 1975-ci ildə ABŞ, 1976-cı ildə isə Böyük Britaniyanın bir sıra universitetlərində mühazirələr

oxumuşdur. 1996-cı ildə Hindistan, 1997-ci ildə isə Argentinada keçirilmiş məktəblilərin Beynəlxalq riyaziyyat olimpiadasında Azərbaycan komandasının rəhbəri olmuşdur. 1998–2000-ci illərdə İstanbul Universitetində çalışmışdır.

Azərbaycan Sovet Ensiklopediyasının elmi redaksiya şurasının üzvü olmuşdur. Akademik, böyük alim, Cəlal Allahverdiyev 19 yanvar 2017-ci ildə 87 yaşında Bakı şəhərində dünyasını dəyişib.

Rüstəmov Əbülfət Həbib oğlu 1930-cu ildə Şuşa şəhərində sənətkar ailəsində anadan olmuşdur.1954-cü ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika -riyaziyyat fakültəsini bitirib. Təyinatla Xankəndi şəhər N. Gəncəvi adına 4 saylı orta məktəbə göndərilib. Bir müddətdən sonra Bakıya köçüb, Balaxanıda orta məktəbdə fizika–riyaziyyat müəllimi işləyib. Azərbaycan Elmlər Akademiyasının Fizika-Riyaziyyat və Texnika bölməsinin aspiranturasına daxil olub, Sverdlovski şəhərində Metallar fizikası Elmi Tədqiqat İnstitutunun aspiranturasında davam etdirib. 1965-ci ildə fizika-riyaziyyat elmlər namizədi adını almışdır. Azərbaycan Elmlər Akademiyasının Fizika-Riyaziyyat və Texnika bölməsində elmi işçi işləyib. "Elektronların arasında qüvvəli əhatə olan kristallarda elektron keçiriciliyinin tədqiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1968-ci ildən V.İ. Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda işləmiş və professor elmi adını almışdır. Fizika fakültəsinin "Mexanika və molekulyar fizika "kafedrasına rəhbərlik etmişdir. 1977-1982-ci illərdə "Ümumi texniki fənlər" fakültəsinin dekanı işləmişdir.

1988-ci ildə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan bölməsi GDPİ-na köçürülmüş, 1988-89-cu tədris ilində Gəncəyə köçürülmüş kollektiv Şuşa şəhərinə qaytarılaraq Azərbaycan Dövlət Pedaqoji İnsitutun əvvəlcə fakültəsi, sonra isə filialı kimi fəaliyyətə başlamışdır. 1990-cı ildə müstəqil "Fizika və ÜTF" kafedrası yaradılmışdır. Professor Ə. H. Rüstəmov həmin kafedranın müdiri işləmişdir. Prof. Ə. Rüstəmovun rəhbərliyi və kafedra əməkdaşlarının gərgin əməyi nəticəsində, qısa vaxt ərzində, çox çətinliklə də olsa, mühasirədə olan Şuşa şəhərində fəaliyyət göstərən filialda "Mexanika və molekulyar fizika", "Elektrik", "Optika və atom", "Fizikanın tədrisi metodikası və TTB", "Astronomiya və elektro–radiotexnikaya" dair müxtəlif fənn laboratoriyaları, 2 tədris emalatxanası və bir Elmi-tədqiqat laboratoriyası yaradılır. Kafedranın fəaliyyəti pedaqoji İnstitutun rəhbərliyi və Respublikanın Təhsil nazirliyi tərəfində yüksək qiymətləndirilir. 1992-93-cü tədris ilini başa vurduqdan sonra prof. Ə. Rüstəmov N.Tusi adına ADPU-nə qayıdır. Prof.Əbülfət Rüstəmov 1993-cü ilin dekabrında vəfat etmişdir. Bir çox Beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumlarda çıxış edib. Altı nəfər elmlər namizədi yetişdirib.

Rüstəmov Sabir Musa oğlu 31 dekabr 1930-cu ildə Şuşa şəhərində anadan olmuşdur. O, 1949-cu ildə Şuşa şəhəri Ü. Hacəbəyli adına orta məktəbi gümüş medalla bitirərək Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. Fakültənin 2 kursunu fəxri fərmnla bitirdikdən sonra Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə təhsilini davam etdirmək üçün Rusiyanın Qorki Şəhər Dövlət Universitetinin kimya fakültəsinə məqsədli təhsilə göndərilmişdir.

Sabir Rüstəmov 1954-cü ildə Qorki Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Onun diplom işi ətrafında hazırladığı ilk elmi məqaləsi 1957-ci ildə keçmiş İttifaqın Elmlər Akademiyasının ən mötəbər jurnalında çap olunmuşdur. 1963-cü ildə namizədlik dissertasiyası müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almış Sabir Rüstəmov 1963-cü ildən 1978-ci ilə Azərbaycan Elmlər Akademiyasının Qeyri üzvi və fiziki kimya İnsitutunda əvvəlcə kiçik elmi işçi,

sonra isə baş elmi işçi vəzifələrində çalışmışdır. 1969-1971-ci illərdə Moskvada doktorantura keçmiş, 1971-ci ildə doktorluq dissertasiyası müdafiə edərək kimya elmləri doktoru adına layiq görülmüşdür. Respublikamızda və ondan kənarda alimlər arasında qabaqcıl fiziki kimyaçı alim kimi tanınan Sabir Rüstəmov 1995-ci ildə Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Quliyev Rafiq Yaqub oğlu 26 avqust 1932-ci ildə Şuşa şəhərində anadan olmuşdur. 1950-ci ildə Ağdam şəhərində orta məktəbi bitirib həmin ildə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinə daxil olub. Universiteti bitirəndən sonra 1955-ci ildə göndərişlə Moskva Dördüncü İdarəsi yanında kompleks geoloji ekspedissiyası tərkibində işləmişdir. 1959-cu ildən Azərbaycan Geoloji İdarəsində geoloji – hidrogeoloji ekspedisiyalarında baş mühəndis işləmişdir. 1961-ci ildə Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunda aspiranturaya qəbul olunmuş və aspiranturanı Moskvada başa vurduqdan sonra geomorfologiya ixtisası üzrə elmlər namizədliyi rütbəsi dissertasiyasını müdafiə edərək, 1969-cu ilə qədər Coğrafiya İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsini hidrogeoloq ixtisası üzrə bitirib 1961-ci ildə Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunda aspiranturaya qəbul olunmuş və aspiranturanı Moskvada başa vurduqdan sonra geomorfologiya ixtisası üzrə elmlər namizədliyi dərəcəsi almışdır. 1969-cu ildə geomirfologiya ixtisası üzrə baş elmi işçi adını alıb. 1971-ci ildə fiziki coğrafiya ixtisası üzrə dosent elmi adını alıb. 1969-cu ilə qədər Coğrafiya İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. 1969-cu ildən etibarən Bakı Dövlət Universiteti coğrafiya fakültəsi fiziki coğrafiya kafedrasının dosenti vəzifəsində çalışır. Ümumi geomorfologiya, paleocoğrafiyanın əsasları, fiziki coğrafiyanın tədqiqat üsulları, geomorfoloji çöl tədqiqat üsulları, geomorfoloji xəritələşdirmə və sair fənləri tədris edir. 90 məqalə və elmi əsərin, 3 kitabın müəllifidir.

Həşimov Rəşid Cəlal oğlu 23 noyabr 1941-ci ildə Şuşa rayonunun Mirzələr kəndində anadan olmuşdur. Şuşada orta məktəbi və Kənd Təsərrüfatı Texnikumunu bitirdikdən sonra təhsilini Azərbaycan Politexnik İnsitutunun mexanika fakültəsində davam etdirmiş, 1968-ci ildə insitutu avtomobil nəqliyyatı üzrə bitirərək təyinatla avtomobil və avtomobillərin texniki istismarı kafedrasında saxlanılmışdır. O 1974-cü ildə aspiranturaya daxil olmuş, 1980-cı ildən həmin kafedrada baş müəllim, 1988-ci ildən dosent vəzifəsində əmək fəaliyyətini davam etdirir. Rəşid Həşimov maşınşünaslıq və maşın detalları ixtisası üzrə "Mexaniki sistemlərin vallarının yorulmaya qarşı müqavimətinin ehtimalla qiymətləndirilməsi" mövzusunda dissertasiya işi müdafiə edərək Texniki elmlər namizədi adına layiq görülmüşdür. Respublika, Zaqafqaziya, Ümumittifaq və beynəlxalq konfransların, iştirakçısı olmuş və məruzələrlə çıxış etmişdir. O. 1976-1982-ci və 1990-1996-cı illərdə mexanika fakültəsində dekan müavini, 1996-2000-ci illərdə isə tədris işləri üzrə prorektorunvə rektorun köməkçisi vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Texniki Universitetində, Milli Aviasiya Akademiyasında və Azərbaycan Dövlət Dəniz Akademiyasında dosent vəzifəsində əmək fəaliyyətini davam etdirən Rəşid Həşimovun həmişə məqsəd və məramı obyektivlik olmuşdur.

Əbilov Çingiz İldırım oğlu 05.12.1945-ci il tarixində Şuşa şəhərində anadan olumuşdur.

1968-ci ildə AzPİ-nin (hazırki AzTU) AHT fakultəsi "Elektron texnikası mühəndisi" ixtisasını bitirib.

1980-cı ildə Azərb. EA QÜFK institutunda "05.17.16- Yarımkeçiricilərin və elektron texnikası materiallarının texnologiyası" ixtisası üzrə namizədlik dissertasiyası müdafiə edərək, t.e.n. alimlik

dərəcəsi almışdır. 1994-cü ildə eyni ixtisas üzrə doktorluq dissertasiyası müdafiə edərək t.e.d. elmi dərəcəsini almışdır. 1997-ci ildən professor vəzifəsində çalışır.

1986-cı ildən 1997-ci ilə kimi AzTU-nun "Tətbiqi fizika və mikroelektronika" kafedrasında dosent, 1997-ci ildən hazırki dövrə kimi, əvvəl "Mikroelektronika və tətbiqi fizika", sonra isə "Elektronika" kafedralarında professor vəzifəsində çalışmışdır.

260 elmi məqalə, konfrans tezisləri və müəlliflik şəhadətnamələrinin (10 ixtira), 3 dərs vəsaiti, 5 metodiki göstəriş, 2 monoqrafiyanın müəllifidir. Qısa müddətlərlə Türkiyə (Şanlı Urfa) və İran (Təbriz) universitetlərində çalışıb. Elmi istiqaməti mürəkkəb tərkibli yarımkeçirici materialların alınma texnologiyası, xassələrinin (fiziki-kimyəvi, elektrofiziki və s.) tədqiqi və bərk cisim quruluşlarının yaradılması sahəsindədir.

Bayramov Rafael Vəli oğlu 1950-ci il oktyabrın 21-də Şuşa şəhərində anadan olub. 1958-1968-ci illərdə 1 saylı Şuşa şəhər orta məktəbində oxuyub. 1968-1973-cü illərdə Kiyev Dövlət Universitetinin coğrafiya fakültəsində kartoqrafiya ixtisası üzrə təhsil alıb. 1973-1976-cı illərdə Baş geodeziya və kartoqrafiya idarəsində mühəndis-kartoqraf vəzifəsində çalışıb. 1976-1992-ci illərdə Bakı Dövlət Universitetində dosent vəzifəsində çalışıb. 1992-1998-ci illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin çağırışı əsasında ordu sıralarında xidmət etmişdir. 1992-ci ilin fevral ayından Azərbaycan Respublikası Müdafiə Nazirliyi Baş Qərargahında topoqrafiya xidmətinin təşkilində və 1992-ci ilin aprelindən 1998-ci ilin noyabr ayınadək Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində polkovnik-leytenant rütbəsində topoqrafiya fənninin tədrisində xidmət etmişdir. Hərbi qulluqda olduğu dövrdə bir sıra fəxri fərmanlarla təltif olunmuşdur. 1998-ci ildən ordudan təxris olub əvvəlki iş yerinə Bakı Dövlət Universitetinə qayıtmışdır. Texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Bayramov Rafael Vəli oğlu 2 oktyabr 2020-ci ildə vəfat etmişdir.

Sumqayıt Dövlət Universitetinin riyaziyyat fakültəsinin dekanı, fizika-riyaziyyat elmləri namizədi, dosent Hüseynov Zəfər Qafar oğlu 28 sentyabr 1953-c ildə Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, 1970-ci ildə Şuşa şəhər 4 saylı orta məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1975-ci ildə ali təhsilini başa vuraraq Xankəndi Pedaqoji İnsitutunda müəllim vəzifəsində əmək fəaliyyətinə başlamışdır. Zəfər Hüseynov eyni zamanda xüsusi riyazi qabiliyyəti olan uşaqlar üçün riyaziyyat təmayüllü orta məktəbdə riyaziyyat müəllimi işləmişdir.

O, 1979-cu ildə Bakı Dövlət Universitetinin aspiranturasına daxil olmuş, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, mərhum Arif Babayevin və fizika riyaziyyat elmləri doktoru, professor Binəli Musayevin rəhbərlikləri altında elmi-tədqiqat işləri aparmışdır. 1985-ci ildə namizədlik dissertasiyası müdafiə edərək fizika riyaziyyat elmləri namizədi, alimlik dərəcəsi almışdır. Zəfər Hüseynov elmi tədqiqat işlərini davam etdirərək, doktorluq dissertasiyası işini başa çatdırmışdır. Dəfələrlə respublika və MDB məkanında keçirilən beynəlxalq elmi konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış etmişdir. 50-dən çox elmi, elmi metodik məqalənin, ali məktəblər üçün nəzərdə tutulmuş "Word 7.0 mətn redaktoru ilə işin əsasları", İnteqral tənliklər", EHM-in tətbiqi", "Hesablama üsulları və praktikumu" kimi dərs vəsaitlərinin müəllifidir. Dosent Zəfər Hüseynov Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edir. Kütləvi informasiya vasitələrində cəmiyyətin ictimai həyatı, təhsil və onun problemlərinə aid məqalələrlə çıxış edir. Zəfər Hüseynov yüksək elmi metodiki səviyyədə mühazirələr oxuyur, buraxılış işlərinə, magistr dissertasiyalarına rəhbərlik edir.

Elçin İsgəndərzadə Barat oğlu 16 sentyabr 1964-cü ildə Şuşa şəhərində anadan olub. 1981-ci ildə Ağdam şəhər 6 saylı orta məktəbi qızıl medalla bitirib. 1981-1986-cı illərdə Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsində təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə bitirib. Texnika və filologiya elmləri doktoru, professordur.

Nyu-York Elmlər Akademiyasının, "Qafqaz Xalqları" Beynəlxalq Elmlər Akademiyasının, Avropa Təbiət Elmləri Akademiyasının, Beynəlxalq Kadr Akademiyasının, Təbriz Dil və Kültür Akademiyasının, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Gürcüstan Milli Akademiyasının, Avropa Mədəniyyət Akademiyasının həqiqi (akademik) üzvü seçilib.

Texnika elmləri doktoru, professor Elçin İsgəndərov 2004-cü ildə Avrasiya Beynəlxalq Qurumu tərəfindən Asiya ölkələri üzrə Mədəniyyət Səfiri təyin edilib.

200-dən çox elmi əsərin, 47 ixtiranın, 14 monoqrafiya və dərs vəsaitinin, 85 bədii və elmi kitabın müəllifidir. Türkiyə, Rusiya, Qazaxıstan, Quzey Kıbrıs Türk Cümhuriyyəti, İran, Rumıniya, Ukrayna, Suriya, Qırğızıstan, Kosova, Makedoniya, Bolqarıstan, Albaniya, Gürcüstan, Özbəkistan, Polşa, İraq və digər ölkələrdə kitabları yerli dillərə çevrilərək çap olunub.

Azərbaycan Texniki Universitetinin professoru, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Texniki Elmlər üzrə Ekspert Şurasının üzvüdür.

Quliyev Ədalət Firidun oğlu Əməyin texnologiyası kafedrasının baş müəllimidir.

1979-cu ildə orta məktəbi bitirmişdir. 1980-1985-ci illərdə Sovet Azərbaycanının 60-illiyi adına Xankəndi Pedaqoji İnstitutuna daxil olmuş, 1985-ci ildə İnstitutu "Riyaziyyat əlavə fizika " ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. ADPU –nun 04.10.2012- ci il tarixli 1/619 saylı əmri ilə " Müəllimlər günü "münasibətilə "Təşəkkür" elan edilmişdir.

ADPU –nun 02.10.2014 cü il tarixli 1/640 saylı əmri il "Müəllimlər günü" münasibətilə "Fəxri fərman" ilə təltif edilmişdir. "Gələcək üçün Təhsil" kursunun sertifikatını almışdır. ADPU-nun Elmi Şurasının 2013-cü il 28 fevral tarixli qərarı ilə 2011/2012-ci tədris ilində dəqiq və təbiət elmləri üzrə "İlin müəllimi" müsabiqəsinin qalibi (1-ci yer), 2015-ci il 12 fevral tarixli qərarı ilə 2013/2014-cü tədris ilində dəqiq və təbiət elmləri üzrə "İlin müəllimi" müsabiqəsinin qalibi (3-cü yer) olmuşdur.

1985-1988-ci illərdə Şuşa rayon Xanalılar kənd orta məktəbində əvvəlcə fizika müəllimi, sonra isə dərs hissə müdiri vəzifələrində çalışmışdır.

1988-1991-ci illərdə Şuşa rayon Gənc Texniklər Stansiyasının direktoru olmuşdur.

1992-1993-cü illərdə N. Tusi adına ADPU-nun Şuşa filialının "Riyaziyyat" fakültəsində baş laborant vəzifəsində fəaliyyət göstərmişdir.

1993-cü ildən ADPU-nun Şuşa filialında müəllim, 1995-ci ildən isə baş müəllim kimi fəaliyyət göstərmişdir.

1996-2003-cü ilə qədər ADPU-nun Şuşa filialının "Riyaziyyat" fakültəsinin dekanı vəzifəsində işləmişdir.

2003-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Elektroradiotexnika" kafedrasında 0,5 ştat müəllim vəzifəsində çalışmış, 2009-cu ildə həmin kafedraya tam ştat baş müəllim vəzifəsinə təyin olunmuşdur. 2009-cu ildən hal- hazıra kimi baş müəllim vəzifəsində fəaliyyət göstərir.

2017 –ci ildən 2022 ci ilə kimi ADPU-nun Fizika fakültəsinin TMŞ və EŞ-nın üzvü olmuşdur. Hal hazırda ADPU-nun Fizika fakültəsinin TMŞ-nın sədr müavinidir.

4 dərs vəsaitinin, 12 metodik vəsaitin, 20-dən çox proqramın, 15 tezisin, 27-dən çox elmi məqalənin

müəllifidir,14 sertifikatı var.

**İstifadə olunmuş ədəbiyyat:**

1. A. Rzayev. Qarabağ dastanı. Bakı, 2021. 528 səh.
2. T. Kərimli. Qarabağ alimləri. Bakı, 2012.
3. İnternet resursları.

## ŞUŞANIN ƏDƏBİ MƏCLİSLƏRİ

***Anar Kərimli***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası”kafedrasının baş müəllimi***
***kerimli_anar@mail.ru***

Hörmətli konfrans iştirakçıları!

Qarabağ və onun tacı olan Şuşa şəhəri əsası qoyulduğu gündən elm, musiqi mədəniyyət beşiyi kimi formalaşmışdır. Şüşə kimi təmiz havası olan Şuşa şəhəri istedadlı insanları zaman-zaman öz qoynunda bəsləmiş, sözü ilə, musiqisi ilə dünyanı zinətləndirən yaradıcı şəxsiyyətlər formalaşdırmışdır.

Eyni zamanda bu istedadlı insanlar tarixin müxtəlif dönəmlərində ədəbi-poetik məclislər təşkil etmiş, müzakirələr aparmış, yeni yaradıcılıq nümunələri yaratmışlar.

1864-cü ildə görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvan Şuşada, o dövrün müqtədir alimlərindən sayılan Mirzə Əbdülqasımın mədrəsəsində “Məclisi-üns” (“Dostluq məclisi”) ədəbi məclisini təşkil etmişdir. Məclisin ilk təşəbbüsçüləri Mirzə Rəhim Fəna və Hacı Abbas Agəh olmuşlar. İlk vaxtlar məclisin üzvləri H.A. Agəhin mənzilində toplaşmışlar. 1872-ci ildə məclis, Natəvanın Natəvanın xahişi ilə onun sarayına köçmüş və həmin tarixdən etibarən “Məclisi-üns” adlanmışdır.

Ədəbi məclisin 30-dan çox üzvü olmuşdur. Hacı Abbas Agəh, Xurşidbanu Natəvan, Mirzə Rəhim Fəna, Məmo bəy Məmai, Mirzə Həsən Yüzbaşov, İsmayıl bəy Dəruğə, Məşədi Nəsir Lövhi, Mirzə Sadıq İman xan oğlu (Piran), İsgəndər bəy Rüstəmbəyov, Baxış bəy Səbur, Səməd bəy məclisin əsas üzvlərindən olmuşlar.

Şairlərlə yanaşı Qarabağın görkəmli xanəndə və sazəndələri də məclisin yığıncaqlarında fəal iştirak etmişlər.

Məclis Natəvanın vəfatına qədər (1897) fəaliyyət göstərmişdir.

Məclisə rəhbərlik edən XurşidBanu Natəvan Qarabağ xanlığının sonuncu xanı Mehdiqulu xanın qızı olmuşdur. Natəvan yüksək mədrəsə təhsili görmüş, fars dilini mükəmməl bilmişdir. Şairliklə yanaşı, həm də gözəl rəssam idi.

Məclis üzvlərindən İsmayıl bəy Allahqulu bəy oğlu Daruğə təhsilini Şuşada almış, Şuşa şəhərinin darğası olduğu üçün özünə Daruğə təxəllüsü qəbul etmişdir. Klassik üslubda Azərbaycan və fars dillərində şerlər yazmışdır.

Mirzə Sadıq İmanxan oğlu Piran Şuşada anadan olmuş təhsilini orada almışdır. “Məclisi Fəramuşan”da da iştirak etmiş, lakin “Məclisi-üns”ün üzvü olmuşdur. Mirzə Sadıq Firdovsinin “Şahnamə” əsərini əzbər bilirmiş və onu axşamlar hissə-hissə, xüsusi ahəng və uca səslə “Məclisi-üns”də oxuyarmış. Onun həm də gözəl səsi olmuş, cavanlığında xanəndəlik etmişdir.

"Məclisi-üns" şairləri özlərinə təxəllüs seçərkən onu Mirzə Sadığın qarşısında təntənəli surətdə qəbul edərmişlər. Mirzə Sadıq klassik üslubda Azərbaycan və fars dillərində şerlər yazmışdır.

Növrəs Şuşadakı hər iki ədəbi məclisdə iştirak etmişsə də vaxtının çoxunu "Məclisi-üns"də keçirmişdir. XIX əsrdə musiqi məclislərində və toylarda xüsusi "padşahlar" seçilər və məclisi həmin şəxs idarə edərdi. Şuşada olan belə məclislərdə bir qayda olaraq Növrəs " padşahlıq" edərmiş. Klassik üslubda, Azərbaycan və fars dillərində şerlər yazmışdır. Uşaqlar üçün yazdığı "Pəndi-ətfal" ("Uşaqlara nəsihət") adlı nəsihətamiz əsəri 1900-cü ildə Tiflisdə nəşr edilmişdir.

İsgəndər bəy Əsəd bəy oğlu Rüstəmbəyov mükəmməl mədrəsə təhsili görmüş, farsca və rusca yaxşı savadlı olmuşdur. Rusca təhsilini Şuşada almışdır. Dövrünün açıq fikirli ziyalılarındandır. Tez-tez Şuşa və Ağdam camaatı qarşısında çıxış edərək onları elmə, maarifə, yeniliyə dəvət etmişdir. "Məclisi-üns"ün iştirakçılarından idi. Klassik və xalq şeri üslubunda, Azərbaycan və fars dillərində şerlər yazmışdır.

1872-ci ildə "Məclisi-üns" Natəvanın sarayına köçdükdən bir az sonra Mir Möhsün Nəvvabın təşəbüssü ilə "Məclisi-üns"ün "fəramuş etdikləri", yəni unutduqları şairlərdən ibarət "Məclisi-fəramuşan" adlı ədəbi məclis təşkil olunmuşdur. Məclisin əsas üzvləri Mir Möhsün Nəvvab, Abdulla bəy Asi, Həsənəli xan Qaradaği, Fatma xanım Kəminə, Abdulla bəy Abış, Məşədi Əyyub Baki, Mirzə Əbdül Şahin, Hacı Hüsü, xanəndə-şair Mirzə Sadıq İmanxan oğlu (Piran), Mirzə Sadıq Lətif oğlu Hicri (Təbib), Molla Abbas Cavanşir, İbrahim bəy Azər, Mirzə Əli Aşiq, Mirzə İsmayıl Məhzun, Mirzə Məhəmməd Katib, Məşədi Məhəmməd Bülbül Qarayağdı, Molla Saleh Bülbül, Bəhram bəy Fədai, Məşədi Cəfər olmuşlar.

Şairlərlə bərabər "Məclisi-fərmuşan"da Qarabağın məşhur xanəndə və sazəndələri də iştirak etmişlər. Ümumiyyətlə Məclisin qırxa yaxın iştirakçısı olmuşdur.

Məclis bir qayda olaraq M.M. Nəvvabın mənzilində keçirilərmiş.

"Məclisi-fərmuşan" XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərmişdir.

Mir Möhsün Mir Əhməd oğlu Ağamirzadə Nəvvab Şuşada doğulmuşdur. Mükəmməl mədrəsə təhsili gördükdən sonra, 34 yaşında ikən Molla Abbas Cavanşirdən fəlsəfə, astronomiya və s. elmləri öyrənmişdir. Dövrünün elmlərinə bələd yetkin, açıqfikirli ziyalılarından idi. Riyaziyyat, musiqi, Şərq ədəbiyyatı, tarix, fiqh və s. elmləri mükəmməl bilmişdir. Müəllimliklə güzəran keçirmişdir. Şuşa və onun yaxın kəndlərinin bütün ziyalıları çox zaman onun mənzilində olarmışlar. Bu cəhətdən Nəvvabın evi mədəniyyət ocağını xatırladarmış.

Məclis üzvlərindən Abdulla bəy Əlibəy oğlu Asi Şuşada anadan olmuş, təhsilini də orada almışdır. Qasım bəy Zakirin nəvəsidir. Ərəb, fars, rus dillərini, həmçinin Əlişir Nəvaini dönə-dönə oxumaqla cığatay dilini də gözəl bilmiş, hətta bu dildə bir neçə qəzəl də yazmışdır.

Molla Abbas Cavanşir dövrünün müqtədir alimlərindən olmuşdur. Şuşada təhsil almış, ərəb və fars dillərini mükəmməl öyrənmiş, müəllimlik etmişdir. Nəvvabın yazdığına görə o, heyət, nücum və s. elmləri gözəl bilmişdir.

Molla Abbas Cavanşir imzası ilə heyət elminə dair əsər, həmçinin bir çox riyazi kitablara haşiyə yazmış, qəzəllərində isə Abbas təxəllüsü işlətmişdir. O, "Məclisi-fəramuşan"ın təşkilindən əvvəl vaxtının çoxunu Nəvvabın mənzilində təşkil olunan şeir məclislərində keçirərmiş.

Kərbəlayı Qulu Məhəmməd oğlu Yusifi Şuşada doğulmuşdur. Şuşada və qeyri-ətraf kəndlərdə Pərinaz oğlu adı ilə tanınmışdır. Əsas sənəti dülgərlik və xarratlıq olmuşdur. Xarrat Qulu həm də mahir

musiqişünas olmuşdur. Bir çox Qarabağ xanəndə və sazəndələrinin ustadı sayılır. Nəvvabla yaxın dost, həm də "Məclisi-fəramuşan"ın iştirakçısı olmuş, klassik üslubda Azərbaycan və fars dillərində şeirlər yazmışdır.

Mirzə Məhəmməd Məşədi Bayram oğlu Katib Şuşada anadan olmuş, təhsilini orada almışdır. Həm klassik, həm də xalq şeiri formasında gözəl şeirləri vardır. Katib həm də mahir xəttat imiş. Mirzə Fətəli Axundovla dost olmuş, onunla məktublaşmışdır.

Fatma xanım Bəybaba qızı Tahirzadə Kəminə Şuşada anadan olmuş, orada mollaxanada təhsil almışdır. Kəminənin atası Bəybaba da Fəna təxəllüsü ilə şeirlər yazmışdır. Kəminə klassik üslubda, Azərbaycan və fars dillərində şeirlər yazmışdır.

Göründüyü kimi XIX əsrdə Şuşada mövcud olan ədəbi məclislər şəhərin sosial-mədəni həyatında müstəsna rol oynamışdır. Məclislərdə yalnız şeir və musiqi dinlənilməmiş, elmi mükalimələr də aparılmışdır.

Ədəbi məclislərin özünəxas ədəb-ərkan, nizam-intizam, davranış normaları var idi, burada nalayiq hərəkətə, sözə yol vermək olmazdı. Belə hərəkət edənlər məclis üzvləri tərəfindən tənqidə məruz qalır, qınanır, onlar haqda tənqidi şeirlər yazılırdı. Şairlərin bir-birinə yazdıqları məktub və şeirlərdə son dərəcə yüksək, kübar müraciət formalarından istifadə olunurdu.

Qadınların kişilərlə bir məclisdə fəaliyyət göstərməsi Qarabağ ədəbi məclislərinin əsas özünəməxsusluqlarından biri idi. Qeyd etmək lazımdır ki, o vaxt Qarabağ qadınları həm yaradıcılıqda, həm də xeyriyyəçilikdə öz fəallıqları ilə seçilirdilər. Şairlər Natəvan, Fatma xanım Kəminə, aşıq Pəri ədəbiyyat tarixində fərqli yerə sahibdirlər. Natəvan, Gövhər ağa, Qara Pirimli Nigar, Fatma xanım Kəminə xeriyyəçi kimi də tanınmışlar. Qadınların xeyriyyəçilik fəaliyyəti özü də müəyyən ənənəyə bağlıdır. Xeyriyyəçilik qadınların əsas fəaliyyət sahələrindən biri sayılırdı. Qarabağ xanımları həm birgə fəaliyyət, həm idarəçilik işləri ilə həmin ənənəyə bağlı idilər. Xurşidbanu bəyim kimi tanınan Natəvana həsr olunmuş şeirlərdən bir neçəsində (Həsən Qarabaği və Nəvvabın şeirində) ona hətta ağa deyilməsi ilə də rastlaşırıq.

Şuşa ədəbi məclisləri XIX əsrdə Azərbaycanda mədəni ideologiyaların inkişafında da mühüm rol oynamışdır. İslamçılıq, türkçülük, azərbaycançılıq, müasirləşmə ideologiyaları sənətkarların yaradıcılığında öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci ildə Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi Qarabağın tacı olan Şuşa şəhərinin inkişafına bir töhvədir.

Qarabağ ədəbi mühiti onun təbiəti qədər zəngin və rəngarəngdir. Qarabağ ədəbi mühitinin öyrənilib araşdırılması, təbliği humanitar fikrimizin inkişafına xidmət edəcəkdir.

**Istifadə olunmuş ədəbiyyat**

1. Poetik məclislər. Yazıçı, Bakı, 1987. 526 səh.
2. T.M. Kərimli. Mir Möhsün Nəvvab Qarabağinin həyatı, maarifçilik fəaliyyəti və pedaqoji görüşləri. Bakı, 2021. 149 səh.

## ŞUŞA BƏDİİ SÖZ SƏNƏTİNİN DİLİNDƏ

***Qərənfil Rzayeva***
***"Keyfiyyətin təminatı" şöbəsinin müdiri, "Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***qerenfilrzayeva40@gmail.com***

Şuşanın dağları başı dumanlı,
Qırmızı qoftalı, yaşıl tumanlı,
Dərdindən ölməyə çoxdur gümanlı
Ay qız, bu nə qaş-göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

Sözləri XX əsrdə yaşamış azərbaycanlı xanəndə Xan Şuşinskiyə məxsus olan, sonralar şifahi ənənələrdə geniş yayılaraq xalq mahnısına çevrilən ("Azərbaycan xalq mahnıları" (1967) toplusunda yer almışdır) bu məşhur nəğmədə vəsf olunduğu kimi Şuşa Azərbaycan təbiətinin misli-bərabəri olmayan gözəl qızı, köksü şeir, sənət beşiyi olan əsrarəngiz təbiəti ilə görənlərin gözünü oxşayan əbədi, əzəli vətən torpağıdır. Qarabağın zümrüd qaşı Şuşa hələ bəxtəvər günlərində müxtəlif sənət sahiblərinin poetik ilhamının mənbəyi olmuş, aylı-ulduzlu gecələrinə, gündüzləri göz oxşayan düzlərinə, şiş qayalarına şeirlər qoşdurmuş, nəğmələr bəstələtmişdir.

Muğam ifaçılarımızın repertuarını bəzəyən "Qarabağ şikəstəsi" bütöv Qarabağın simvoludursa, "Xarıbülbül" Şuşanın simvoludur. Təsadüfi deyildir ki, Səməd Vurğunun Şuşa şəhərində ustad xanəndə Xan Şuşinskiyə bədahətən söylədiyi:

Könlüm keçir Qarabağdan,
Gah o dağdan, gah bu dağdan,
Axşamüstü qoy uzaqdan,
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi!

— məşhur şeiri həmişə xalqımızın dilinin əzbəri olmuşdur.

Sovet hakimiyyəti illərində də Şuşa haqqında poeziya nümunələri, müxtəlif sənət əsərləri yazılmışdır. Xalq şairi Rəsul Rzanın "Şuşa" (1947), "Şuşam mənim" (1980), Nəbi Xəzrinin "Şuşanın yolları" (1954), Mirvarid Dilbazinin "Şuşa", Arif Abdullazadənin "Şuşada" şeirlərində Azərbaycanın gözəl, füsunkar guşəsi olan Şuşadan heyranlıqla söhbət açılır, təbiəti yüz rəngə çalan bu əsrarəngiz torpaqda insanın nə qocalmayacağı, nə də ölməyəcəyi ehtimalı dilə gətirilir. Rəsul Rza "Şuşam mənim" şeirində "Pənahların yadigarı, nur parçası", "Cabbarın, Seyidin, Nəvvabın, Üzeyirin, Bülbülün nəğməsi" olan Şuşanın tarixdə heç bir fatehə, müxənnətə baş əymədiyindən, yandırdığı neçə-neçə milli sənət çırağından, Cıdır düzündən söhbət açaraq,

Səni bircə dəfə görən,
Bir könüldən, min könülə

Sənə aşiq, bənd olmuşdur,
Qarabağın yaraşığı!
...Şuşam mənim.
Mətanətlə, dəyanətlə,
Səxavətlə qoşam mənim
– deyə vəsf etmişdir.

Məmməd Arazın, Xəlil Rza Ulutürkün, Ənvər Əhmədin, Zivər Ağayevanın Şuşaya həsr etdikləri poetik nümunələr də Şuşa şəhərinə, onun şeir-sənət abidələrinə, əsrarəngiz gözəlliyinə, tarixi varlığına həsr edilmişdir.

Xalq şairi Məmməd Araz 1970-ci ildə yazdığı “Şuşada bir gecə” adlı şeirində:

Bu gecə gecənin son qatındayam,
Bu gecə bir qəndil qanadındayam ( 1, s.78)

- deyə bu möcüzəli şəhəri bir çilçıraq şəhəri kimi vəsf edir və dağ başında salınan Şuşaya “fəzadan asılan çilçıraq şəhər” deyir:

Uzaqdan: bir ulduz topası kimi
göy üzündədi.
Yaxından: bir qaya lampası kimi
yer üstündədi.
Gecənin qoynunda yanır dağ şəhər,
Fəzadan asılı, çilçıraq şəhər. (1, s.79)

Xalq şairi Xəlil Rza Ulutürk 1979-cu ildə “Şuşa səfəri” adlı lirik poemasında sal qayalı, məğrur görünüşlü Şuşanı “mərmər qəsrlərin ağappaq nuru” adlandırır və şəhəri heyranlıqla vəsf edərək belə poetikləşdirirdi:

“Şüşə deməliyəm bəlkə də sənə,
Şüşədən işıqlı, mərmər şəhərim.
Dağ bülluru kimi pardaxlı, parlaq,
Mənim yaqut qalam, gövhər şəhərim (2, 73).

Şair bu gözəl şəhərdə onlarca bulaq adını tarixləşdirir. “İsa bulağı”, “Qoşabulaq”, “Aydın bulağı”, “Südlü bulaq”, “Nağıllar bulağı” və s. bulaqların adını çəkir və yazır:

“İsgəndər tapmadı dirilik suyu,
Gəlsin nişan verim neçə qaynağı” (2,79)

-deyərək Şuşada çağlayan hər bulağı bir dirilik suyuna bənzədir.

Şairə Zivər xanım Ağayeva isə 1980-ci ildə yazdığı “Şuşa” şeirində tarixin daş yaddaşında yaşayan nəğmələr ocağı ulu torpağımızın sehrkar görünüşünə heyranlığını belə ifadə edir:

Bir yanı göydələn zirvə düzümü,
Bir yanı tər-təzə zümrüd meşəli,
Baxıram ətrafa elə bil Şuşa,
Dağların ovcunda büllur çeşmədi.

Şuşa əsrarəngiz təbiəti ilə sevilirdi. Təəssüf ki, Şuşanın yamyaşıl ormanları, xalıya bənzər al-əlvan düzləri, yamacları xain düşmənin qanlı əllərində soldu. Deyilənə görə, Şuşanın işğalından sonra

bir də Xarıbülbül boy göstərmədi, şövqlə bitmədi bu torpaqda. Xarıbülbülün eyni pərişan halını şairə Rüzgar Əfəndiyeva "Xarıbülbül" şeirində belə təsvir edir:

Şuşa indi sənə qəfəs,
Bu nə tale, nə kəsəkəs?

— deyə yad nəfəsində tənha qalan çiçəyə səbr etməyi, solmamağı ürək ağrısı ilə tövsiyə edir və "Solma yadın nəfəsində"- deyir.

Şair Dəmir Gədəbəylinin "Xarıbülbül" şeirində də eyni poetik ovqata rast gəlinir.

Bir millətə ar olsan da,
Əzablara yar olsan da,
Həsrətindən saralsan da,
Solma, yaşa, Xarıbülbül.

İşğaldan sonra poetik sözün kədər yükü poeziyamızın nəbzində döyünməyə başladı. Qələm sahibləri Vətən torpağının həsrəti ilə neçə-neçə hekayə, şeir, roman, poema yazdı. Düşmən tapdağında inləyən Vətənin ağır günündə çağırışına səs vermək üçün oğulları qisasa səslədilər. Xalq şairimiz Məmməd Arazın "Bizi Vətən çağırır", "Əsgər oğul", "Dur ayağa, Azərbaycan" kimi bədii siqlətli şeirləri; Zəlimxan Yaqubun "Sizi qınamıram" poeması, "Bu gecə yuxuma girmişdi Şuşa" şeiri; Ənvər Əhmədin "Sən hara qaçırsan qeyrətsiz oğul!", "Kəfənim qandan biçilər", "Ulu Tanrım","Oxuma, Arif"; Şuşalı şair Əyyub Şırlanlının "Şuşanı Allaha tapşırmışam mən", "Ramiz keşik çəkir hələ Şuşaya" , "Yurd həsrəti", "Ölüb Qarabağda qalaydım, Allah", "Şuşa", "Ay Şuşam"; Kərim Kərimlinin "Salam, Şuşam!", "Sizi qınayıram, ay şuşalılar" və Ələmdar Quluzadənin ağrılı Vətənin taleyindən bəhs edən onlarla şeirləri öz yurdundan didərgin salının bir elin, ulusun faciəsini, dogma sakinlərinə həsrət qalan yurd yerlərimizin qərib, bir az da qınaq dolu nigaran baxışlarının ümumiləşdirilmiş poetik nümunəsi kimi dəyərlidir.

"Bizi Vətən çağırır" şeirində Məmməd Araz Vətənin igid övladlarına üz tutub deyir:

İndi bizim ölümlə,
Çarpışan çağımızdı.
Ölümün boğazından,
Yapışan çağımızdı.
Ölümlə tərcümansız
Danışan çağımızdı.
Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır! (3, s.129)

Bu yolun ölüm, qan yolu olduğunu bəyan edən şair, torpağı əbədi məzarımız, müqəddəs məkan kimi ülviləşdirir.

Yaxud;

"Əsgər oğul" şeirində xalqın ümid yeri, Vətənə sevdalı, ölümə nişanlı əsgər qardaşlarımıza səslənir şair:

Son ataş də, son zərbə də səninkidir,
Oğul əsgər, əsgər oğul – mərd igiddir,
Mərd ölsə də mərdlik ölmür, hünər ölmür;

Hünər ölmür, mərdlik ölmür - əsgər ölmür. (3, s.130)

- deyən şair, Vətən uğrunda canından keçən iğidlərin ölümsüzlüyünü poetikləşdirmişdir.

"Ayağa dur, Azərbaycan!" adlı şerində isə M. Araz, kiçiyindən böyüyünə, cavanından qocasına, əsgərindən komandanına qədər bütün vətəndaşını özündə birləşdirən Azərbaycan adlı məmləkəti səsləyir.

Bağrının başına çalın-çarpaz dağlar çəkilən, sinəsində dərdi, qübarı körüklənən, püskürməyə hazır Qoca Vulkana səslənir:

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri
biz hər şeyi bölə billik!
Səndən qeyri
biz hamımız ölə billik!
Bu, Şəhriyar harayıdı,
Bu, Bəxtiyar harayıdı!

…Çək sinənə - qayaları yamaq elə,
Haqq yolunu ayağına dolaq elə,
Bayrağını Xəzər boyda bayraq elə,
Enməzliyə qalxmış olan bayrağını!
Azərbaycan, Azərbaycan,
Azərbaycan bayrağını! (3, s.132-133)

Çağdaş poeziyamızın görkəmli simalarından olan Zəlimxan Yaqubun "Sizi qınamıram" poeması da işğal illərində yazılmış son dərəcə qiymətli sənət əsərlərindəndir. Poemada Vətəni xəyanətə qurban gedən şair yazır:

Mən qurban görmüşdüm qoçdan, quzudan,
Mən qurban görmüşdüm, qoyun qurbanı.
Bir belə milləti, bir belə xalqı
Gör, kimlər eylədi oyun qurbanı.
Ay Laçın! Yaralı canına qurban,
Ay Şuşa, ağlama, boyun qurbanı! (4, s.232)

Şair öz yurdundan, dogma od-ocağından didərgin salındığı halda taleyin acı hökmünə boyun əyən soydaşlarına üz tutur. Onları ayağa durmağa, düşmənə qarşı vahid cəbhədi birləşməyə və axıdılan günahsız qanların qisasını almağa səsləyir.

Qəzəbi misralarında qılınca dönən sənətkar, hiylə torunu məharətlə toxuyan mənfur düşmənin eyiblərini bir-bir açır, ona lənət yağdırır. Ev-eşiyi dağılan, yurdu xarabazara çevrilən sakinlərin heç bir günahı olmadığını bütün varlığı ilə duyan şair, daha məhrəm bir dillə bu insanların qırıq qəlbini ovutmağa çalışır.

Sizi qınamıram, ay şuşalılar!
Sizin taleyiniz, sizin bəxtiniz
Zamanın səsinə, küyünə düşüb.

Qırx arşın quyunun dibi görünür,
İllərdir işiniz düyünə düşüb.
Açar əlindədir, qıfıl əlində,
Açmaq istəyənlər açmağa qorxur.
Bilir ki, üstünə dağ yeriyəcək
Qaçmamağa qorxur, qaçmağa qorxur.
Xocalı dağıldı… İstintaq gedir!
Şuşa bir nağıldı…İstintaq gedir! (4, s.233)

Taleyi namərdin əlində oyuncağa çevrilən Şuşa zaman keçdi, sakinlərinin yuxusuna girdi. Zəlimxan Yaqubun "Bu gecə yuxuma girmişdi Şuşa" adlı şeirində poetik mən misradan-misraya, bənddən-bəndə daha aydın, real cizgilərlə görünməyə başlayır.

Bu gecə yuxuma girmişdi Şuşa,
Cabbar ağlayırdı, Xan ağlayırdı.
Dönmüşdü qanadı qırılmış quşa,
Qarabağ başabaş qan ağlayırdı. (4, s.152)

Şeirdə bir tərəfdə Xanın, Cabbarın yanıqlı səsi, Natəvanın ahının göylərə yüksəlməsi, Seyidin tüstülənən qəlyanı, Zülfinin "Yetim segahı"nın hüznlü sədası, digər tərəfdə qəzəbindən tir-tir əsən Pənah xan, Qazaxda məzarından baş qaldırıb "milləti qurtarın dardan"-deyə Vaqifə doğru addımlayan qoca şair Vidadinin narahatlığı, gördüklərinə mat qalan Bülbülün, Üzeyrin sükunətə qərq olması və nəhayət, gözü nəmli, sinəsi qəmli, yarından ayrı düşən Xarıbülbülün fəğana gəlməsi böyük səmimiyyətlə qələmə alınmışdır.

Gözündə yaş gördüm, yanağında nəm,
Cıdır düzündəki "Xarı bülbül"ün.
Dərdin sinəsində dağlandı sinəm,
Didərgin olmuşdu yarı bülbülün. (4, s.153)

Vətənpərvər şair Kərim Kərimlinin 1993-cü ildə qələmə aldığı "Salam, Şuşam!" şeirində xəyanətə qurban gedən, oğulları qırılan, kişiləri vurulan, od içində boğulan, qan içində yuyulan, dərd əlindən körpələri qocalan, qocaları yorulan nakam bir şəhərin taleyindən danışılır. Şeirdə xain düşmənin yurdu yağmalaması, var-dövlətini talaması, Şuşanın min illik xəzinəsinin tonqallarda qalanması şairi kədərə boğur.

Salam, Şuşam!
Xanimanı dağılmış oyy…yurdu yağmalanmış,
Sarayları sökülmüş, var-dövləti talanmış,
Min illik xəzinəsi tonqallara qalanmış,
Min cür böhtan, yalanla günahsız damğalanmış,
Uğrunda övlad qanı sellənmiş, laxtalanmış,
Ramizini itirmiş, çalın-çarpaz dağlanmış,
Salam, Şuşam, unudulmuş şəhərim!
Haqqına daş basılmış, susdurulmuş şəhərim! (5, s.65)

1992-ci ilin 8 mayında işğala məruz qalmış Şuşa şəhəri nəhayət, 2020-ci ilin 8 noyabrında, düz 28 il, 6 aydan sonra öz azadlığına qovuşdu. Ali Baş Komandan, Azərbaycan Respublikasının

Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu mənfur düşmənləri Şuşadan qovdu, Şuşa öz sahiblərinə qucaq acdı. "Bu torpağın sahibləri qayıdıb. Əlində bayraq, əlində silah, ürəyində Vətən sevgisi, Əbədi yaşayacağıq bu torpaqlarda" – deyə qalib Prezidentimizin ucalan məğrur səsi dərdli könüllərə sanki məlhəm oldu. Şair Damət Kərimli isə bu qovuşmanı, bu sevinci "Şuşan gəlir qucağına" şeirində belə poetikləşdirdi:

Aç qoynunu, Azərbaycan,
Balan gəlir qucağına.
Neçə ildir həsrətinlə
Yanan gəlir qucağına.

Çəkilib qara buludlar,
Azad olub əsir yurdlar,
Durulubdu sellər, sular,
Saran gəlir qucağına.

Qarabağda yazdı dastan,
İlham, Ali Baş Komandan,
Döyüşlərdə zəfər çalan,
Paşan gəlir qucağına.

**İstifadə olunmuş ədəbiyyat:**

1. M. Araz. Seçilmiş əsərləri. I cild. "Lider" nəşriyyatı, Bakı, 2004.
2. X.R.Ulutürk. Məndən başlanır vətən. Yazıçı, Bakı, 1988.
3. M. Araz. Seçilmiş əsərləri. II cild. "Lider" nəşriyyatı, Bakı, 2004.
4. Z.Yaqub. Seçilmiş əsərləri. "Şərq-Qərb" nəşriyyatı. Bakı,2006.
5. K. Kərimli. Şuşalı, şuşasız günlərim. Bakı, 1998.
6. Ə. Şırlanlı. Vətən kişiliyə çağırır bizi. "Ağrıdağ" nəşriyyatı, Bakı, 2000.
7. F. Xəlilzadə. Ruhumuzun ünvanı Şuşa. Bakı, 2013

***Kompüter yığımı*** - *Sahibə Nəsirova, ADPU-nun Ağcabədi filialının kompüter mərkəzinin müdiri*

*Yığılmağa verilib: 19.04.2022*
*Çapa imzalanıb: 27.04.2022*
*Tiraj 50*

***ADPU-nun Ağcabədi filialının kompüter mərkəzi***

----------------------------------------------------------------------------------------------------------------------------

***E-mail:*** *sahibanasirova1963@mail.ru*